www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25 avqust 2014-cü il Bazar ertəsi № 212 (5921) Qiyməti 40 qəpik


**Xəbər**

## Kürdəmirdə toy vayla bitdi - 1 ölü...

yazısı səh.14-də

# Nə Qərb, nə də Rusiya modeli...

# AZƏRBAYCAN "ÜÇÜNCÜ YOL" ASTANASINDA - təhlil

Hakimiyyətin ölkəni "Qafqazın Sinqapuru"na çevirmək planı var; "Asiya pələngləri" və "neft monarxiyaları"nın nümunəsində bu yolun uğurluluğu təsdiqini tapıb; bəs, "Azərbaycan möcüzəsi" alınacaqmı?..




yazısı səh.5-də

# Mülkünü AXCP-yə qərargah kimi vermiş şəxs saxlanıldı

Azər Əsgərov xırda xuliqanlıqda və hakimiyyət nümayəndəsinə tabe olmamaqda suçlanır; obyekti dağıdılan sahibkara cinayət işi açılacağı istisna edilmir...

yazısı səh.3-də

**Gündəm**

### Hüquq müdafiəçisinə qarşı vəhşilik beynəlxalq aləmi ayağa qaldırdı



Britaniya səfirliyi İlqar Nəsibovun ölümcül döyülməsindən şokdadır, ATƏT hakimiyyətə səsləndi, "Freedom House" sanksiyalara çağırdı...

yazısı səh.4-də

### Rusiya Qərbin Qarabağ təşəbbüsünü pozmaq planını işə salıb

yazısı səh.9-da

### Banklarda 4,5 milyard manatlıq əmanət bata bilər

yazısı səh.15-də

### İŞİD-i Hollywood yaradıb?

yazısı səh.11-də

### Paytaxtda Çinin saxta məktəbli formaları satılır

Əməkdaşımızın Bakı Tikiş Evindən qeydləri

yazısı səh.12-də

### Siyasətçilərin fərari övladları

yazısı səh.8-də

### Amerikalı bankir Ukrayna uğrunda həlak oldu

"O, ruslara nifrət edirdi, biz də edirik..."

yazısı səh.15-də

### Komsomol dairəsi - "ölüm zolağı"...

yazısı səh.14-də

### Ermənilər konsert salonunu niyə hospital etdilər?

yazısı səh.3-də

### Leyla Yunusa, nəhayət, dərman bağlaması çatdırıldı

yazısı səh.3-də

### Gənc azərbaycanlı müğənni faciəvi şəkildə öldü

yazısı səh.12-də

### Dünyanın ən qəddar terror təşkilatı Amerikanı şeirlə hədələdi

yazısı səh.2-də



*Fazil Mustafa:*

### "Bu, kobra ilə rəqsə bənzəyir"

yazısı səh.7-də



*İsmayıl Şahtaxtinski:*

### "Bir çox məşhur azərbaycanlıya miqrant statusu almaqda kömək etmişəm"

yazısı səh.6-da



*Elxan Şahinoğlu:*

### "Davudoğlunun baş nazirliyi Azərbaycana xeyir gətirə bilər"

yazısı səh.8-də

# Bakıda kirayə ev bazarı qaynayır



**Bakının kirayə ev bazarında canlanma yaranıb. axar.az saytının əməkdaşı ev alqı-satqısı və kirayəsi bazarında vəziyyətlə maraqlanıb. Məlum olub ki, yeni tədris ilinin başlanması ilə əlaqədar kirayə evə tələbat artıb, bu da qiymətlərin bahalaşmasına təsir edib.**

Kirayə ev verən dəllalların sözlərinə görə, tələbələrin paytaxta axını müşahidə olunur. Onlar əsasən təhsil alacaqları ali məktəblərə yaxın yerlərdə kirayə ev axtarırlar.

Hazırda metronun "Elmlər Akademiyası" stansiyası ətrafında 350-400 manatdan ucuz kirayə ev tapmaq olmur. Şəhərin Nərimanov rayonu, Montin qəsəbəsi ərazilərində 250-300 manata kirayə ev var. Bir qədər kənarda - "Neftçilər", "Qara Qarayev", "Həzi Aslanov" metrostansiyaları ətrafında 200-300 manata kirayə evlər təklif olunur.

Müşahidəçilər qiymətlərin nisbətən artdığını qeyd edirlər.

# Putin Qərbi aldadıb

## Rusiya Ukrayna ilə müharibəyə hələ indi başlayır



Vladimir Putin

**"Qərb Rusiya qoşunlarının Ukrayna sərhədlərindən çəkilməsindən bir qədər rahatlanıb İraqdakı terrorçularla məşğul olanadək Kreml Donbasdakı döyüşçülərinin sayını əhəmiyyətli dərəcədə artırıb".**

axar.az xəbər verir ki, bu fikirlər "İnterpreter"in redaktoru Maykl Veyssin "Deyli Best" səhifələrindəki bugünkü yazısında yer alıb. Müəllif yazır ki, Rusiya öz kampaniyasını indi Ukrayna əleyhinə çevirir: "Kreml Donetsk və Luqanskdakı terorçuları açıq-aşkar dəstəkləyir. O, həmçinin Ukraynaya qaz nəqlini dayandırıb, indi isə ordunun geri çəkilməsindən bir həftə sonra onu Ukrayna sərhədinin başqa ərazisində yerləşdirir".

# Bu gün Bakıda hava küləkli olacaq

**Bu gün Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu, yağmursuz keçəcək, mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 23-27° isti, gündüz 30-35° isti, Bakıda gecə 24-26° isti, gündüz 32-34° isti olacağı gözlənilir. Atmosfer təzyiqi 758 mm civə sütunu, nisbi rütubət gecə 80-90 faiz, gündüz 50-60 faiz təşkil edəcək.**

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 26-27° isti, Zağulba, Mərdəkan, Şüvəlan, Buzovnada 27-28° isti, Türkan, Hövsan, Şıx, Sahildə 28-29° isti təşkil edəcək.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

«QAYA MƏTBUAT YAYIMI» MMC!

İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

Ən başlıcası gündəlik

«Yeni Musavat » qəzetinə–0,40 man

və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil, Telefonla zəng etməyiniz kifayətdir:

Bakı şəh. 564-63-45 598-35-22

Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur: mobil: (050)-235-23-41


# İŞİD Amerikanı şeirlə hədələdi

## "Biz sizin ölkədəyik, biz sizin şəhərlərdəyik"



**Amerika mediasında İŞİD təhlükəsi ilə bağlı gündəlik məlumatlar getdikcə daha çox yer almaqdadır. İŞİD üzvlərinin iki il əvvəl Suriyada qaçırılan amerikalı jurnalist Ceyms Foleyin başını kəsərək bunu "Youtube" vasitəsi ilə bütün dünyaya yaymasından sonra ABŞ-da və digər Qərb ölkələrində panika xarakterli reaksiyalar da müşahidə olunmaqdadır.**

Bu mənada "CBS Chicago" saytında gedən aşağıdakı yazı xarakterik hesab oluna bilər. John Dodge tərəfindən hazırlanmış yazıda deyilir ki, ötən son 6 ildə Çikaqo beynəlxalq terror şəbəkələri üçün potensial hədəfə çevrilib. Bu barədə sayta təhlükəsizilik üzrə yüksək rütbəli məmur məlumat verib. Ekspert bildirib ki, "Twitter"də radikal islamçıların yerləşdirdiyi materiallar narahatçılıq üçün ciddi əsas hesab olunmalıdır.

"Bir çox terrorçular hədəf barədə düşünəndə Çikaqoya üstünlük verirlər. Bu da təsadüfi deyil. Prezident Obama bu şəhərin yetirməsidir", "CBS Chicago" saytına təhlükəsizilik üzrə ekspert Ross Rays deyib. O, Federal Təhqiqatlar Bürosunun (Federal Bureau of Investigation) Çikaqo üzrə agenti olub. Ross Rays bildirib ki, Barak Obama prezident olaraq Usama bin Ladenin aradan götürülməsinə nail oldu. Pilotsuz uçaqlardan terrorçuları məhv etmək üçün istifadə etdi.

Bu arada isə Amerika hökuməti təhlükəsizliklə bağlı dövlət idarələrinə xəbərdalıq xarakterli bülleten göndərib. Xəbərdarlıqda İŞİD təhlükəsi ilə bağlı məsələlərdən söhbət açılır.

"Twitter"ə göndərilmiş fotoda Çikaqoda yerləşən qədim Respublika Binası və Ağ Ev yan-yana göstərilib. Fotonun aşağısındakı şeir formalı mətndə deyilir:

"Biz sizin ölkədəyik,
Biz sizin şəhərlərdəyik.
Biz sizin küçələrdəyik
Hər yerdə siz bizim hədəfimizdəsiz".

Əllə yazılmış bu mətn iyunun 20-si tarixi ilə qeyd olunub.

Təhlükəsizliklə bağlı hökumətin göndərdiyi bülletendə deyilir ki, ABŞ-ın hər hansı şəhəri ilə bağlı real təhlükə haqqında heç bir bilgi yoxdur. "Twitter"də göndərilmiş mesaj vasitəsi ilə İŞİD simpatizanları demək istəyirlər ki, onlar Çikaqo və Amerikanın digər şəhərlərində yerləşiblər.

Bu günlərdə ABŞ-ın müdafiə naziri Çak Hegel İŞİD haqqında demişdi: "Onlar bizim dünyanın hər tərəfində olan maraqlarımıza təhlükədirlər".

**❑ Elbəyi HƏSƏNLİ, Sürix**

# Ukraynanın şərqində şiddətli döyüşlər gedir



**Son 24 saatda Ukraynanın şərqində gedən döyüşlərdə 5 hərbçi həlak olub, 8 nəfər isə yaralanıb. anspress-in məlumatına görə, Ukrayna hökuməti separatçılara qarşı hücumların davam etdirildiyini açıqlayıb.**

Dünən separatçılar Donetsk vilayətində Kommunar yaşayış məntəqəsini "Grad"lardan atəşə tutublar. Qəsəbədə evlər yanıb. Qeyd edək ki, Kommunarda heç bir hərbi hissə və mövqe yerləşmir. İtkilər barədə hələlik məlumat yoxdur.

Donetsk, Qorlovka, Novosvetlovka və Xryaşevatoye yaxınlığında hərbi əməliyyatlar davam edir. Ukrayna hərbçiləri Saur-Moqila rayonunda mövqelərini saxlayıblar. Ötən sutka ərzində hökumət qüvvələri separatçıların mövqelərinə 60-a yaxın artilleriya zərbəsi endiriblər.

# İŞİD-lə savaşa İsrail də qoşuldu



Binyamin Netanyahu

**İsrail baş naziri Binyamin Netanyahu "Həmas" və İŞİD-i eyniləşdirib. anspress-in məlumatına görə, Netanyahu hər iki təşkilatın uşaqları öldürən İslam xilafəti qurmaq istəyən qurumlar olduğunu bildirib: "Hər ikisi eyni zəhərli ağacın budaqlarıdır. Hər iki hərəkat içində insan hüquqları olmayan, azlıqları öldürən, islam dövləti və xəlifəlik qurmaq məqsədləri var. İsrail dövləti islamçı radikallara qarşı dünyanın hər yerində mübarizəsini davam etdirəcək".**

Daha sonra İsrailin Qəzza zolağında keçirdiyi hərbi əməliyyatlara toxunan Netanyahu "Həmas"ın "işlətdiyi cinayətlərə görə əvəz alınacağını" bəyan edib: "Həmas" işlədiyi cinayətlərdən ötrü ağır əvəz ödəyir və ödəyəcək. Qəzzada xalqı "Həmas"ın terrorçuluqla məşğul olduğu binaları təcili boşaltmağa çağırıram. Bu yerlər bizim üçün hədəfdir. Son günlərdə İsrail vətəndaşlarına atəş açanların toxunulmaz olmadığını göstərdik. Əməliyyatları keçirməkdə israrlıyıq. Məqsədlərimizə çatana qədər bu əməliyyatlar davam edəcək".

# Obamadan sərt tapşırıq

## ABŞ prezidenti amerikalı polisləri tərk-silah etməyi düşünür



Barak Obama

**ABŞ prezidenti Barak Obama Ferqyusonda polis əməkdaşının 18 yaşlı qaradərili yeniyetməni güllələyərək qətlə yetirməsi ilə əlaqədar polis əməkdaşlarının ordu silahları ilə təchiz edilməsinin məqsədəuyğunluğunun araşdırılmasını tələb edib. anspress-in məlumatına görə, bu barədə Ağ Evin mətbuat rəhbəri xəbər verib.**

11 sentyabr 2001-ci ildə baş verən terror hücumundan sonra polislərə özlərini qorumaq məqsədi ilə adətən hərbi əməliyyatlar zamanı istifadə edilən silahlar verilib. Beləliklə, polislərin silahlandırılmasına ordu zirehli gödəkçələr, mina partlayışına dözümlü avtomobillər və digər sursatlar əlavə edilib.

Obama polis bölmələrinin təchizatı üzrə federal proqramların yoxlamasını istəyib və bundan sonra polisin silahlandırılmasını sual altına qoyub. Bundan əlavə, polislərin silahın saxlanılma və istifadə qaydasını bilib-bilməmələri ciddi şəkildə yoxlanılacaq.

Obama həmçinin bildirib ki, ABŞ-ın hərbi qulluqçularını və polis əməkdaşlarını ayırmaq lazımdır.

Qeyd edək ki, Ferqyusonda 18 yaşlı yeniyetmə polis tərəfindən güllələndikdən sonra artıq bir neçə həftədir ki, küçələrdə nümayişlər keçirilir.



# Kərkükdəki partlayışlarda 23 nəfər öldü

**İraqın Kərkük şəhərində törədilən üç partlayış nəticəsində 23 nəfər ölüb, 70 adam xəsarət alıb. APA TV-nin məlumatına görə, ilkin olaraq terror aktının hədəfi şəhəri nəzarətdə saxlayan peşmərgələr olub.**

Əvvəlcə peşmərgələrin yaşadığı dördmərtəbəli binaya partlayıcı quraşdırılmış yük maşını ilə hücum edilib. Bunun ardınca şəhərin iki müxtəlif bölgəsində asayiş binalarına terror hücumu olub. Partlayışlardan biri bazarın yaxınlığında törədildiyindən, ölən və yaralananların sayı daha çox olub. Yaralılar arasında vəziyyəti ağır olanlar var və ölənlərin sayının artacağı istisna olunmur.

Qeyd edək ki, Kərkük iyunun 12-dən peşmərgələrin nəzarətindədir. O vaxtdan şəhərdə terror aktlarının sayında azalma müşahidə olunurdu. Son partlayışlar Kərkükün peşmərgələrin nəzarətinə keçməsindən sonra ən böyük terror aktı sayılır.



# Tərtərdə gənc öz valideynlərini doğradı - 1 ölü...

**Dünən Tərtər rayonunda dəhşətli hadisə baş verib. Lent.az-ın əldə etdiyi məlumata görə, rayonun Bayandur kəndində 1985-ci il təvəllüdlü Arzuman Vəliyev valideynlərini öldürmək məqsədi ilə onları bıçaqlayıb.**

29 yaşlı oğlan əvvəlcə atası Rasim Vəliyevi çoxsaylı bıçaq zərbələri ilə qətlə yetirib. O, daha sonra anası Gülbəs Vəliyevaya hücum edib və anasına ağır zərbələr endirib. Qadın Bərdə rayonunda xəstəxanaya yerləşdirilib, vəziyyəti kritikdir.

Hadisəni törədən oğul tutulub. Onun ana-atasını hansı səbəbdən öldürməyə qərar verməsi dəqiq bilinmir. Digər məlumata görə, hadisəni törədən A.Vəliyev ruhi-əsəb xəstəsidir. O saxlanılıb. Faktla bağlı cinayət işi açılıb.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Mülkünü AXCP-yə qərargah kimi vermiş şəxs saxlanıldı

## Azər Əsgərov xırda xuliqanlıqda və hakimiyyət nümayəndəsinə tabe olmamaqda suçlanır; obyekti dağıdılan sahibkara cinayət işi açılacağı da istisna edilmir

**AXCP-nin qərargah kimi istifadə etdiyi, bir neçə ay əvvəl partlayış baş verdikdən sonra sökülən mülkün sahibi Azər Əsgərov avqustun 24-də saxlanılaraq polisə aparılıb. Bu barədə musavat.com-a onun yaxınları məlumat verib. Xəbərdə bildirilir ki, A.Əsgərov səhər saatlarında 18-ci polis bölməsinə çağırılıb. Orada ona bildiriblər ki, inzibati hüquq pozma ilə bağlı barəsində protokol tərtib olunacaq. O, 18-ci polis bölməsində saxlanılıb: "Bizə qeyri-rəsmi şəkildə məlumat çatıb ki, onun həbs edilməsi planlaşdırılır".**

Mənbə deyib ki, A.Əsgərov polis bölməsində bir neçə saat saxlanıldıqdan sonra o, Nərimanov Rayon Məhkəməsinə aparılıb.

Hüquqşünas Namizəd Səfərov musavat.com-a açıqlamasında bildirdi ki, avqustun 24-də günorta saat 13 radələrində A.Əsgərov ona telefon açaraq saxlanıldığını və Nərimanov Rayon Məhkəməsinə aparıldığını deyib: "Mən məhkəməyə getdim, orada məlum oldu ki, Azər Əsgərov xırda xuliqanlıqda, polisə tabe olmamaqda ittiham edilir. Mənə bildirdilər ki, Vəkillər Kollegiyasının üzvü olmadığım üçün bu işdə Azər Əsgərovun hüquqlarını müdafiə edə bilmərəm. Söhbət zamanı o da məlum



Azər Əsgərov

oldu ki, Əsgərovun barəsində həbslə bağlı olmayan inzibatı cəza tədbiri görülə bilər. Ancaq sonradan onun haqqında heç bir məlumat ala bilmədik, telefonu da söndürülüb. 18-ci polis bölməsindən deyirlər ki, həmin şəxsi onlar saxlayıb sonra buraxıblar, məhkəmədən də heç bir informasiya ala bilmirik. Əsgərovun yaxınlarına da heç bir informasiya verilməyib. Qeyri-rəsmi informasiyaya isə ondan ibarətdir ki, onun məhkəməsi avqustun 25-ci saat 10-a təyin olunub. Görünür, ortada nəsə qaranlıq məqamlar var, yəni mümkündür ki, onu sutkalıq həbs etsinlər, sonradan Azər Əsgərovun barəsində cinayət işi də başlanılsın, nə desən gözləmək olar. Hesab edirəm ki, Azər Əsgərova qarşı bu ittihamlar uydurmadır, sadəcə o, dağıdılan mülkünə görə mübarizə apardığı üçün başına bu oyunu gətirirlər".

Axşam saatlarına qədər Azər Əsgərovun taleyindən bir xəbər yox idi.

Xatırladaq ki, uzun illərdir Türkiyədə yaşayan və sahibkarlıq fəaliyyəti ilə məşğul olan A.Əsgərov Nərimanov rayonu ərazisində yerləşən mülkünü AXCP-yə qərargah kimi icarəyə vermişdi. Partiya orada yerləşəndən bir neçə ay sonra orada partlayış baş verdi və bunun ardınca həmin mülk söküldü. Mülkiyyətinin sökülməsi ilə bağlı Türkiyədən Bakıya gələn Əsgərov uzun müddətdir ona dəyən ziyanın ödənməsini tələb edir, ancaq indiyədək mülkünün sökülməsinə görə kompensasiya verilməyib.

Onu da qeyd edək ki, A.Əsgərov mülkünün dağıdılmasından sonra sosial şəbəkələrdə hakimiyyətə qarşı radikal çıxışlar edirdi. İstisna deyil ki, onun saxlanılması daha çox bu amillə bağlıdır.

İş günü olmadığı üçün Daxili İşlər Nazirliyindən hər hansı açıqlama ala bilmədik.

❑ T.ƏHMƏDLİ

# Həbsdəki məhbusların vəziyyəti ürəkaçan deyil

## Leyla Yunusa dərman və yemək bağlaması aparılıb; Orxan Əyyubzadənin ailəsi ilə görüşməsinə icazə verilmir...

**Xəbər verildiyi kimi, ölkədə son kütləvi həbslərlə bağlı demokratik qüvvələr Birləşmiş Hüquq Müdafiə Mərkəzi və Müdafiə Komitəsi yaradıb. Bu həftə hər iki qurumun növbəti toplantısı gözlənilir.**

Birləşmiş Hüquq Müdafiə Mərkəzinin sədri Mirmahmud Mirəlioğlu qurumun indiyə qədər gördüyü işlərdən danışdı: "Yaratdığımız mərkəz insan haqları, demokratiya məsələsində siyasi partiya, QHT-lərin bir araya gəlməsi, əməkdaşlıq etmək istiqamətində olan məsləhətləşmələrdən və görüləcək işlərdən ibarət qurumdur. Artıq bu istiqamətdə bəzi addımlar atılıb. Bizim qurumu bilərəkdən komitə kimi adlandırmaq doğru olmaz. Gördüyümüz işlərin də mahiyyətinə uyğun deyil. Fəaliyyətimizi genişləndirəcəyik. Qurumun aidiyyəti üzrə komissiyaları yaradılacaq. Demokratiya və insan haqlarının qorunması istiqamətində addımlar atacağıq. Cümə günü eyni vaxtda növbəti toplantımız olacaq".

Leyla və Arif Yunus, Rəsul Cəfərov və İntiqam Əliyevlə bağlı yaradılan Müdafiə Komitəsinin həmsədri Cəmil Həsənli isə Azad İsazadə ilə birlikdə təcridxanaya hüquq müdafiəçisi Leyla Yunus üçün yemək və dərmanlar apardıqlarını söylədi: "Yaratdığımız Komitənin indiyədək gördüyü işlər böyük bir hesabatdır. Bu, informatik formada düzgün deyil. Sadəcə, onu qeyd edim ki, avqustun 23-də mən və Azad İsazadə Bakı İstintaq Təcridxanasında olduq. Uzun müddət Leyla



Leyla Yunus



Orxan Əyyubzadə

xanım üçün dərman preparatları qəbul etmirdilər. O iş görüldü. Leyla xanıma dərman, ərzaq bağlaması çatdırıldı. Müdafiə Komitəsinin üzərinə düşən bütün işləri görməyə çalışırıq. Həbs olunanlarla bağlı keçirdiyimiz görüşlərdə, apardığımız müzakirələrdə, beynəlxalq təşkilatlarla yazışmalarımızda edə biləcəyimiz işləri həyata keçiririk. Müdafiə Komitəsinin toplantısı olsa, mətbuata xəbər veriləcək".

Hazırda həbsdə olan siyasi məhbusların saxlanma şəraiti və son durumları ilə də maraqlandıq. Müsavat başqanının müavini Tofiq Yaqublunun vəkili Nemət Kərimli sentyabrın 3-də Apelyasiya Məhkəməsinin olacağını bildirdi: "Son günlərdə Tofiq bəylə görüşməmişəm. Məhkəməyə hazırlaşırıq. Prosesə əlavə şahidlər gətiriləcək. Zərərçəkənlər də gələcək".

Nemət Kərimli digər hüquqlarını müdafiə etdiyi müsavatçı gənc Fərəc Kərimli və qardaşı Sirac Kərimli, NİDA-çı gənc Şahin Novruzlu, "Azad Gənclik" təşkilatından İlkin Rüstəmzadə ilə görüşdüyünü də qeyd etdi: "Keçən həftə qardaşlarla görüşdüm. Həmin gün valideynləri və qardaşı da onlarla görüşüb. Saxlanma şəraitlərindən narazılıqları yoxdur. Eləcə də, digər hüquqlarını müdafiə etdiyim şəxslərlə yaxınları ilə görüşə maneçilik törədilmir".

Hüquq müdafiəçisi Rəsul Cəfərovun vəkili Fariz Namazlı avqustun 23-də onunla görüşdüyünü bildirdi: "Hazırda heç bir şikayəti yoxdur. Saxlanma şəraiti və səhhəti normaldır. Ev dustaqlığı ilə bağlı vəsatət vermişdik. Nəsimi Rayon Məhkəməsi təmin etmədi. Bununla bağlı apelyasiya şikayəti verdik. Şikayətə baxılacaq günü gözləyirik. Mən eyni zamanda Leyla xanımın vəkiliyəm. Hələ də onunla görüşmək üçün müstəntiqdən görüş məktubu ala bilməmişəm. Çünki istintaq təcridxanasının dəftərxanası yoxdur. Bu baxımdan orderi birbaşa götürmür. Ona görə görüş almaq zamanı bir qədər uzanır".

İntiqam Əliyevin qızı Nərmin Kamil atası ilə görüşə bilmədiyinə görə son durumla bağlı məlumatsız olduğunu söylədi: "Vəkilin dediyinə görə, vəziyyəti yaxşıdır. Əlaqəmiz olmadığından bir söz söyləmək çətindir. Sabah zəng vurmalıdır. Ondan sonra son durumunu dəqiq biləcəyik".

Pərviz Həşimlinin vəkili Bəhruz Bayramov Ali Məhkəmənin qərarını gözlədiklərini diqqətimizə çatdırdı: "Pərviz bəyin səhhəti normaldır. Saxlanma şəraitindən heç bir şikayəti yoxdur. Son həbslərdən təəssüfləndiyini bildirir. Sonuncu dəfə avqustun 20-də onunla görüşmüşəm. Ailəsi ilə görüşünə də problem yaradılmır. Həftədə iki dəfə görüşür. Təcridxana rəhbərliyindən narazılığı yoxdur. Şüşə arxasında ailəsi ilə görüşür. Qızı ilə 1-2 dəqiqəlik görüş verilir. Əsas tələbi ondan ibarətdir ki, daimi yerdə görüş versinlər".

Avqustun 25-də gənc fəal Orxan Əyyubzadənin növbəti məhkəmə prosesi olacaq. Gənc fəala ailəsi ilə görüşə icazə verilmir. Bu barədə musavat.com-a onun anası Rəhimə Məmmədova məlumat verib: "Son bir ayda övladımla görüşə icazə verilmir. Heç bir səbəb də gətirmirlər. Apardığımız yeməkləri çətinliklə keçirə bilirik. Görüş məktubu tələb edirlər. Bunun üçün hakimin yanına getdim. Hakim məhkəmədən sonra məktubu verəcəyini dedi. Lakin məhkəmədən sonra isə ümumiyyətlə, məktub verə bilməyəcəyini bildirdi. Məhkəmədə vəkil bununla bağlı vəsatət qaldıracaq. Telefon vasitəsilə əlaqə saxlayır. Dedi ki, bədənində səpkilər əmələ gəlib. Deyilənə görə, təcridxanada virus yayılıb. Dərmanlar yazıb, veriblər ki, valideynlər alıb, gətirsin. Alıb apardım, əvvəlcə qəbul etmədilər. Uzun narazılıqdan sonra götürdülər. Su problemi var. Heç bilmirik, kimə müraciət edək. Bir sözlə dəhşətdir".

❑ Cavanşir ABBASLI

# Ermənilər konsert salonunu niyə hospital etdilər?



Hüseynbala SƏLİMOV

**Azərbaycanla Ermənistan arasında atəşkəs rejiminin çox intensiv şəkildə pozulması və onun yenidən adət olunan səviyyəyə enməsi özündə hələ də bir sıra sualar yaşadır: Bu, nə idi? Rusiya ilə Ermənistan Azərbaycanı, necə deyərlər, sınamaq, "dişinə vurmaq" istəyirdi, yoxsa bu hadisə ermənilərin özəl təşəbbüsü idi?**

Hər halda, sual sualdır və suallar bir qayda olaraq öz cavablarını gözləyirlər. Ən maraqlısı isə budur ki, elə bu günlərdə Ermənistandan daha bir soraq gəldi. Bəli, belə məlum oldu ki, bu ölkədə ən böyük konsert salonlarından birini, daha dogrusu, elə ən böyüyünü hərbi hospitala çeviriblər...

Bu xəbərə də adekvat cavab verilmədi. Halbuki ermənilər iki səbəbdən belə edə bilərdilər. Ola bilsin, Ermənistan rəhbərliyi daxildə özünə xal qazandırmaq istəyir və belə göstrəməyə çalışır ki, onun üçün ən prioritet məsələ Dağlıq Qarabağ və bir də bu bölgədə gedən proseslərdir...

Amma konsert-əyləncə mərkəzinin hospitala çevrilməsinin başqa səbəbləri də ola bilər. Hərbdə adətən böyük hücumlara hazırlaşarkən və yaxud da böyük hücumlar ərəfəsində arxa cəbhəni möhkəmləndirirlər. Ola bilsin ki, ya Ermənistan payızda böyük əməliyyatlara hazırlaşır və yaxud da ki, nə vaxtsa Bakının belə əməliyyatlara başlaya bilməsindən ehtiyat edir .

Təbii ki, bu, bir ehtimaldır, təhlilçi fərziyyəsidir və bəlkə də məsələ yalnız Ermənistandan asılı olsaydı, o, özünün fantaziyalarını bir az cilovlamağa cəhd edərdi. Amma ortalıqda Rusiya da var.

Azərbaycan, Gürcüstan və Türkiyə müdafiə nazirləri görüşərkən bu ölkənin Ermənistanda dislokasiya olunan hərbi hissələri erməni hərbi birləşmələri ilə birgə əməliyyatlara başladılar. Bizim Rusiyanın səmimiyyətinə inanmamaq üçün kifayət qədər əsasımız var. Hərçənd Rusiya rəhbərləri özlərini elə göstərirlər ki, sanki Azərbaycanın birinci dostları onlardır.

Güman ki, payızda Avrasiya İttifaqı və Gömrük Birliyilə bağlı məsələlər yenidən aktuallaşacaq. İndi maraqlı budur ki, Rusiya Ermənistana Avrasiya Birliyinin təsisçisi olmağa imkan vermədi.

Ola bilsin ki, bunun da iki izahı var. Birincisi, Rusiya Ermənistanı özündən o qədər asılı hesab edir ki, ona birinci rol vermək istəmir. İkincisi, Ermənistanın Avrasiya İttifaqında təsisçi olması Azərbaycanı daha da çəkindirərdi, onun bu təşkilata qarşı olan neqativ münasibətini bir az da tündləşdirərdi...

Ola bilsin ki, məhz elə bu səbəbə görə də Rusiya Ermənistanın Avrasiya İttifaqına Dağlıq Qarabağsız daxil olmasında israr edir - Rusiya hələ Bakı üçün qapıları açıq saxlamaq istəyir..

Düzdür, Bakıda güman edirlər ki, onların ehtiyatlı siyasəti Rusiyanın təhdidlərini sovuşduracaq. Amma Azərbaycanın NATO və Avropa Birliyi ilə bağlı planlarının olmaması doğrudanmı Rusiyanı axıra qədər qane etmək iqtidarındadır?

Biz də Bakı rəsmiləri kimi buna inanmaq istərdik. Amma Rusiya heç vaxt öz nəfsinə "yox" demir, onu qismən də olsa məhdudlaşdırmağa çalışmır...

Bütün bu proseslərin bir neqativ tərəfi də budur ki, qarşıdan dırnaqarası erməni genosidinin 100 illiyi gəlir. Ermənistan rəhbərliyi nəinki öz əhalisinin, həm də erməni diasporunun qarşısında hesabat verməlidir.

Ona görə də Azərbaycanı özlərinə sərf edən sülh variantına təhrik etmək istəyirlər. Həm də dırnaqarası genosid yubileyi ərəfəsində dünyanın diqqətini özlərinə cəlb etməyə çalışırlar... Bu xalq ən ağlagəlməz hərəkətləri etməyə qadirdir. İnanın, lazım gəlsə, böyük qırğın törədib dünyaya car çəkərlər ki, bəs bizi qırırlar!..

Onlar üçün əsas odur ki, dırnaqarası genosidin 100 illiyi ərəfəsində daha bir neçə ölkə bu mifik hadisəni tanısın, ABŞ prezidenti öz müraciətində dırnaqarası genosid sözünü işlətsin. Bunun üçün onlar hər şeyə, hətta böyük bir qırğın törətmək üçün irimiqyaslı hərbi əməliyyatlara da gedə bilərlər...

Üstəlik, ölkə daxilində S.Sərkisyan hakimiyyəti fövqəl möhkəmliyə malik deyil və müəyyən mənada erməni ictimai rəyindən asılıdır. Bəli, Azərbaycanın güclənməsi, daha müasir silahlarla silahlanması erməniləri həqiqətən də təşvişə salır. Elə bu səbəbdən də S.Sərkisyan uzaqvuran raketlər, ən müasir silahlar haqqında danışır...

Bununla o həm də müəyyən qədər Rusiyanı da şantaj etməyə, ondan daha yeni silahlar qopartmağa, ümumiyyətlə, bu ölkənin Ermənistana olan diqqətini artırmağa cəhd edir...

Qərəz, bu il gərgin olmağı vəd edir. Görək, nə olur?..

YENİ MÜSAVAT
N 212 (5921) 25 avqust 2014



# İŞİD yox, işıq gələn tərəfə gedək

**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**Vaxtilə dəyərli politoloq Vəfa Quluzadə deyəndə ki, Rusiya Cənubi Qafqaza işğal planı hazırlayıb, bir çoxları bizi də, təcrübəli analitiki də qınamışdı. Rus tankları Gürcüstanı şumlayandan, Abxaziya ilə Cənubi Osetiyanın "müstəqilliyini" tanıyandan sonra da özünü daha ağıllı sayanlardan ittihamedici fikirlər eşitdik.**

Dünyanın sakit guşələrindən biri olan Krımın ilhaqından, Ukrayna kimi sakit ölkənin cəhənnəmə çevrilməsindən sonra da bəzi ruspərəstlər absurd iddialarında qalmaqdadır. Kim bilir, bəlkə də bu mövqeni sərgiləmək elə onların birbaşa missiyasıdır, alternativləri yoxdur.

Ötən ayın əvvəllərində yazmışdıq ki, Rusiya Qarabağda ikinci cəbhə açıb diqqəti Ukrayna hadisələrindən yayındırmaq istəyir. Çox keçmədi ki, Qarabağda silahlar işə düşdü, tərəflər xeyli itki verdi. Ardınca da Putin Soçi görüşünü təşkil edib özünü sülhməramlı kimi göstərməyə çalışdı. Rusiya bununla həm də Qarabağın açarını özündə saxladığına işarə elədi. Axı son zamanlar Azərbaycan və Ermənistan prezidentlərinin Parisdə bir araya gətirilməsi planı var idi, ABŞ və Fransa buna hazırlaşırdı. Putinin barmağı adicə bir görüşə də imkan vermədi. Demirik ki, erməni günahsızdır, erməni cəlladlarının törətdiyi bəşəri cinayətlərin özgə cəzası var. Ancaq rus imperiyası olmasaydı, erməninin Azərbaycanın tarixi torpaqlarında nə ölümü vardı...

"Yeni Müsavat" növbəti təhlükənin anonsunu verib: Rusiyanın Qarabağda böyük təxribat hazırlaması haqda manşet yazı dərc edib. Rusiyanın öz bazarını Azərbaycan bostanına açıq elan etməsi addımı aldadıcı da ola bilər, Moskva daha böyük bazarın marağındadır - Gömrük İttifaqının, Avrasiya Birliyinin. Putun Azərbaycanı bu vahid bazarın tərkibinə qoşmaq istəyir. Artıq Gürcüstan, Moldova, Ukrayna geridönməz mövqe ortaya qoyub, üzü Avropaya gedirlər, itkiləri olsa da.

Rusiya anlayır ki, Azərbaycanın olmadığı bir qurumdan SSRİ qayırmaq mümkün olmayacaq. Şübhə yox ki, Soçi görüşündə Putun Azərbaycan dövlətindən istədiyini ala bilməyib, nə Qarabağ, nə Gömrük İttifaqı məsələsində. Odur ki, sərt cavab tədbirinin işə salınacağı şübhəsizdir. Bu, Qarabağ cəbhəsində də ola bilər, digər separatizm ocaqlarının çatılması ilə də, başqa dilə gətirmək istəmədiyim addımlarla da.

İndiki situasiyada narahatedici başqa məqam da var. Görünən budur ki, Azərbaycanın şimal təhlükəsindən xilası heç də Qərbin əlində deyil. Qərb xilas etsəydi, elə İraqda İŞİD-in qırdığı azərbaycanlıları xilas edərdi. Ən heyrətamiz olanı budur ki, bu gün bir-biri ilə düşmən münasibətində olan Rusiya-Avropa-Amerika Azərbaycan məsələsində eyni mövqedə dayanır.

Fakt: Həsən Həsənov adlı həmvətənimiz Kəlbəcərə getmişdi, orda qətlə yetirildi. Üstəlik, erməni Dilqəm Əsgərov və Şahbaz Quliyev indiyədək işgəncə altında girov saxlayır. Heç bir reaksiya yoxdur. Amma erməni diversant Karen Petrosyan ürək tutmasından öləndən sonra ABŞ Dövlət Departamenti və Fransa XİN-dən etiraz gəldi. Rusiya XİN-in nümayəndəsi Aleksandr Lukaşeviç də məsələni diqqətlə araşdırmağa çağırıb. Sonra da tərəfləri meyitlərin qaytarılması haqqındakı 2010-cu ilin 27 oktyabr bəyanatına diqqət çəkib.

Nə oldu, azərbaycanlılar qətlə yetiriləndə, meyiti düşmən əlində qalanda heç bunlar yada düşmürdü? Qarabağa münasibətdə vəziyyət Vəfa Quluzadənin dediyi kimidir, xristian təəssübkeşliyi öz sözünü deyir. Münasibətləri düşmənçilik həddinə çatsa da, Qarabağ onları birləşdirir. İqtidarlı-müxalifətli Azərbaycan ictimaiyyətini birləşdirə bilməyən Qarabağ...Necə ki, illər öncə BMT Baş Assambleyasındakı səsvermədə Azərbaycanın ərazi bütövlüyünə bitərəf qalmışdılar. Bu gün isə faktiki tərəfə çevriliblər - Ermənistan tərəfə...

Məncə, Azərbaycan daxilində vəziyyətin ciddi şəkildə təhlilinə, vətəndaş birliyinin təmin olunması üçün ciddi addımların atılmasına ehtiyac var. Yoxsa biriləri İŞİD-ə qoşulub soydaşlarını qırır, başqaları Əsəd dəstəsinə pənah aparır, digərləri uzaqdan Azərbaycanı hədələyir. Bu, cəmiyyətin parçalanmasının, ölkədə yadların təbliğatının üstünlük təşkil etməsinin məntiqi nəticəsidir. Əgər işğaldakı 20 faizi Vətənimizə birləşdirmək istəyiriksə, öncə 80 faizin birliyinə nail olmalıyıq. Sonra gec ola bilər. Naxçıvanda İlqar Nəsibovun qanlı sifətinə baxanda ilk düşündüyüm İŞİD oldu. Deyəsən, bizim də içimizdə İŞİD-çilik yetişir. Çox təhlükəli tendensiyadır. Çalışaq işıq gələn tərəfə gedək, İŞİD gələn tərəfə yox...

# Hüquq müdafiəçisinə edilən vəhşilik beynəlxalq aləmi ayağa qaldırdı

## Britaniya səfirliyi İlqar Nəsibovun ölümünə döyülməsindən şokdadır, ATƏT hakimiyyətə səsləndi, "Freedom House" sanksiyalara çağırdı; Naxçıvan DİN-in yaydığı açıqlamaya görə Sabir Rüstəmxanlı üzr tələb etdi: "Fərid Əsgərov VHP-nin sıravi üzvü də deyil, nəinki təşkilat sədridir"

**Naxçıvan Daxili İşlər Nazirliyi jurnalist, hüquq müdafiəçisi İlqar Nəsibovun "Demokratiya və QHT-lərin İnkişaf Resurs Mərkəzi" İctimai Birliyinin ofisində döyülməsi ilə bağlı məlumat yayıb.**

Nazirliyin məlumatında bildirilir ki, Naxçıvan Şəhər Polis İdarəsi tərəfindən araşdırma aparılıb. Araşdırma zamanı müəyyən edilib ki, heç də ictimai birliyin ofisinə hücum edilməyib, hadisə yalnız məişət zəminində baş vermiş davadan ibarət olub: "Məlum olub ki, ictimai birliyin həmtəsisçisi olan İlqar Nəsibov uzun müddətdən bəri yaxın dostluq münasibətləri saxladığı Vətəndaş Həmrəyliyi Partiyası Naxçıvan təşkilatının sədri olmuş, Naxçıvan şəhər sakini Fərid Əsgərovla birlikdə ictimai birliyin ofisində vaxtaşırı görüşərək orada içki məclisləri qurublar.

21 avqust 2014-cü ildə axşam saatlarında hər iki şəxs qeyd olunan ünvanda yenə də içki məclisi qurub, orada spirtli içki qəbul ediblər. Həmin vaxt spirtli içkinin təsiri altında olan İ.Nəsibov və F.Əsgərov arasında yaranmış mübahisə sonda əlbəyaxa davaya çevrilib.

F.Əsgərov öz izahatında bildirib ki, onlar arasındakı davaya səbəb onun ailə üzvləri haqqında İ.Nəsibovun işlətdiyi nalayiq və təhqiramiz ifadələr olub. Hər iki şəxs əlbəyaxa dava zamanı bir-birinə bədən xəsarətləri yetiriblər.

F.Əsgərov polis tərəfindən saxlanılıb. Faktla bağlı inzibati araşdırma tədbirləri davam etdirilir".

Öz növbəsində jurnalistin həyat yoldaşı Məlahət Nəsibova "Turan"a bildirib ki, Naxçıvan DİN-in məlumatı böhtandır.

Nəsibova həyat yoldaşının ümumiyyətlə danışarkən söyüşdən istifadə etmədiyini bildirib: "Əgər içkili olsa idi, bunu hamı və mən hiss edərdim. İlqar Fəridlə dost da ola bilməz. Çünki Fərid İlqarın oğlu yaşındadır. İlqar xatırlayır ki, bu, onu vurduqdan sonra fiziki cəhətdən qüvvətli şəxslər ofisə daxil olub və ofisi dağıdıb".

M.Nəsibova İlqarın döyülməsi və ofisin dağıdılması işinin hakimiyyət orqanları tərəfindən təşkil edildiyini istisna etmir. O, bu işi Avropa Məhkəməsinə qədər aparacaq: "Biz Naxçıvan MTN-dən şübhələnirik. Son vaxtlar Bakıda QHT-lərə hücumlardan sonra bizə də təzyiqlər artmışdı. Bundan başqa Turac Zeynalovun işi Avropa Məhkəməsində kommunikasiyaya başladığına görə hakimiyyətdə bizə qarşı aqressivlik yaranmışdı. Ay yarım əvvəl İlqarı maşınla vurmuşdular, kiçik xəsarət almışdı deyə onu ictimailəşdirmədik. İlqara son hücumu planlı hücum hesab edirik. Özü də bu döyülmə onun öldürülməsinə hesablanmış hadisədir. Təsəvvür edin ki, qayçı ilə başının ortasından üzü aşağı bir neçə yerdən cıza-cıza ona xəsarətlər yetiriblər".

M.Nəsibova avqustun 24-də "Yeni Müsavat"a son vəziyyətlə bağlı danışdı. Hüquq müdafiəçisi bildirdi ki, İ.Nəsibov xəstəxanadan çıxarılıb və evə yerləşdirilib: "Vəziyyət olduğu kimi qalır. Sümük zədələnmələri var. Ancaq xəstəxanadan çıxarıb, evə gətirmişik. Çünki orada şərait yoxdur. Digər tərəfdən, çox şey edə biləcəklərini düşünüb bu addımı atdıq. Başında silkələnmə olub, yaddaşı arabir itir, hələ danışa bilmir. Həkim danışmağa icazə vermir".




**Məlahət Nəsibova:** "Turac Zeynalovun işi Avropa Məhkəməsində kommunikasiyaya başladığına görə bizə qarşı aqressivlik yaranmışdı, məqsəd İlqarı öldürmək olub, biz Naxçıvandan getməyəcəyik"

M.Nəsibovanın sözlərinə görə, polis ofisə baxış keçirib, stol üstündə olan qayçı və bıçaq götürülüb, təhqiqat aparılır və hələ də cinayət işi açılmayıb: "Hətta İlqarın tibbi ekspertizası aparılmayıb. İstintaq bizə heç bir məlumat vermir. İstənilən halda hüquqi prosedurlarımızı işə salacağıq. Artıq şübhələrimiz var ki, bu iş hakimiyyətdən sifariş olunub".

Müsahibimizin dediyinə görə, Naxçıvanı tərk etmək fikri yoxdur: "Biz Naxçıvanda doğulmuşuq, ata-babalarımız burada anadan olub. Canımız-qanımızla bu torpağa bağlıyıq. Bu yeri necə tərk etmək olar? Hələ burdayıq, işləməliyik, Naxçıvan çətin bölgədir, biz burda lazımıq".

Vətəndaş Həmrəyliyi Partiyası (VHP) Naxçıvan DİN-in yaydığı rəsmi açıqlamaya kəskin etiraz bildirən bəyanat verib.

VHP-nin mətbuat xidmətindən axar.az-a daxil olan məlumatda bildirilir ki, Naxçıvan DİN-in İ.Nəsibovu Naxçıvanda döyən F.Əsgərovun VHP-nin yerli təşkilatının sədri kimi təqdim edilməsi əsassızdır və heç bir məntiqə sığmır. VHP bəyan edir ki, F.Əsgərov adında Naxçıvan MR təşkilatının nəinki sədri, heç üzvü belə yoxdur: "Fərid Əsgərov adlı şəxs 2 il öncə təşkilata üzvlük üçün müraciət etsə də, onun müraciəti VHP Siyasi Şurası tərəfindən müsbət dəyərləndirilməyib və o, təşkilat sıralarına hətta üzv kimi qəbul edilməyib".

Bəyanatda VHP Naxçıvan Muxtar Respublikası təşkilatına Abdulla Abdullayevin sədrlik etdiyi də xatırladılıb və yayılan yanlış xəbərə görə partiyanın ictimai-siyasi nüfuzuna ziyan vurduğu üçün Naxçıvan DİN-dən təkzib vermək və üzr istəmək tələb edilib. VHP QHT sədrinin döyülməsi faktını pisləyib.

Jurnalistə qarşı zorakılıqla bağlı Müsavat, AXCP və ALP bəyanatla çıxış ediblər. Siyasi partiyalar hüquq müdafiəçisinə vəhşicəsinə hücumu pisləyir, bunun rəsmi qurumlar tərəfindən təşkil edildiyini istisna etmir, sifarişçilərin və iştirakçıların cəzalandırılmasını tələb edir.

Naxçıvandan olan deputat Fərəc Quliyev də baş verən zorakılığı pislədi. Deputat "Yeni Müsavat"a qeyd etdi ki, hansı zəmində olursa - olsun zorakılıq əleyhinədir: "Kimin günahı varsa, cəzasını almalıdır. Mən hadisənin baş vermə səbəblərini bilmirəm. Amma insanlar vəzifəlisindən sıravisinə qədər qanun qarşısında bərabərdir. Qanunun aliliyini təmin etmədən demokratiyadan danışmaq olmaz. Bəzi məmurlar isə bunu bilmək istəmirlər və təbii ki, bu hadisəni pisləyirik".

"Naxçıvanda İlqar Nəsibovun vəhşicəsinə döyülməsindən şoka düşdük. Ümid edirik ki, ədalətli araşdırma olacaq və cinayətkarlar cəzasını alacaq". Bu barədə Böyük Britaniya səfirliyinin bəyanatında bildirilir. ATƏT-in mətbuat azadlığı üzrə nümayəndəsi Dunya Miyatoviç hadisə ilə bağlı qəzəbini bildirib. "Azərbaycan hakimiyyətini Nəsibova bu dəhşətli hücumu tam və müstəqil şəkildə araşdırmağa və təqsirli şəxsləri məsuliyyətə cəlb etməyə çağırıram", deyə Miyatoviç bildirib: "Müstəqil mətbuatın, media fəallarının və ifadə azadlığının bu şəkildə boğulmasına dərhal son qoyulmalıdır. Azərbaycan hakimiyyəti bu təcrübəyə son qoymaq üçün əlindən gələni etməlidir".

"Jurnalist İlqar Nəsibova dəhşətli fiziki hücum Azərbaycanda insan haqlarının vəziyyətinin sürətlə və köklü pisləşməsində sonuncu travmadır". Belə bir bəyanatla isə "Freedom House" insan hüquqları təşkilatının prezidenti David J. Kramer çıxış edib: "Görünür, Azərbaycan hökuməti saxta ittihamlı həbslərlə, ya da avqustun 21-də Nəsibova qarşı olduğu kimi, döyməklə insan haqları fəallarını və hakimiyyət tənqidçilərini qorxuzmaqda israrlıdır. Birləşmiş Ştatlar və Avropa Birliyi bu dəhşətli hücumlara icazə verən və onları törədən rəsmilərə qarşı sanksiyaları nəzərdən keçirməlidir".

❑ **Emil SALAMOĞLU**

# Nə Qərb, nə də Rusiya modeli...

**Bir çoxları nədənsə güman edir ki, Azərbaycan bu gün mütləq iki inkişaf yolundan birini seçməli olan bir durumdadır - ya avrointeqrasiya, ya da Avrasiya inteqrasiyası. Birinci yola ölkəni fəal şəkildə Qərb sövq edir. Bu yol Avropa və ya Amerika demokratiyasının siyasi-iqtisadi, hüquqi dəyərlər modellərinə sözsüz düzlənməyi nəzərdə tutur. İkinci yola isə Azərbaycanı sərt şəkildə Rusiya məcbur edir. Bu yol isə Qərbdən uzaqlaşmağı, suverenliyi məhdudlaşdırmağı və Moskvanın cızdığı hərbi-siyasi, sosial-iqtisadi və ideoloji münasibətlər sisteminə uyğunlaşmağı diktə edir.**





# Azərbaycan "üçüncü yol" astanasında - təhlil

## Hakimiyyətin ölkəni "Qafqazın Sinqapuru"na çevirmək planı var; "Asiya pələngləri" və "neft monarxiyaları"nın nümunəsində bu yolun uğurluluğu təsdiqini tapıb; bəs, "Azərbaycan möcüzəsi" alınacaqmı?..

Ölkədə yaşanan olaylara məhz bu rakursdan baxan siyasətçilər, politoloqlar, sadəcə, siyasiləşmiş vətəndaşlar Azərbaycanın hakim dairələrinin iki inkişaf vektorundan hansına üstünlük verdiyini, yaxud verməyə hazırlaşdığını hesablamağa çalışırlar. Əlamətdardır ki, hətta son vaxtlar vətəndaş cəmiyyətinin tanınmış nümayəndələrinin bir-birinin ardınca həbsinə çoxları tərəfindən məhz deyilən geosiyasi kontekstdə baxılmağa başlanıb. O anlamda ki, hakimiyyət rusiyayönlü inkişaf vektoruna üzünü çevirib və bu üzdən ölkəni Qərbin "təsir agentləri"ndən təmizləməkdədir.

Hamı real olaraq dərk edir ki, Azərbaycan inkişaf modelinin seçməklə bağlı taleyüklü bir dönəm, öz strateji kursunu müəyyən etməkdə mürəkkəb bir mərhələ yaşayır. Bu narahatlıq, məsələyə belə ifrat həssaslıq başa düşüləndir. Amma inkişafın digər, şərti desək, "üçüncü yol"u da mövcuddur. Bu yolun uğurlu olduğunu "Asiya pələngləri" - Sinqapur, Malayziya, Tailand, həmçinin "neft monarxiyaları" - Ərəb Əmirlikləri, Küveyt, Bəhreyn, Qətər və s. ölkələr öz parlaq nümunələrində sübut ediblər.

Son illərin tendensiyaları və Azərbaycanın modernləşdirilməsinin inkişaf xarakteri də söyləməyə əsas verir ki, hakim elita başda ölkə prezidenti olmaqla, şərti desək, "üçüncü yol"a istiqamətlənib. Yeri gəlmişkən, ölkənin modernləşmə üzrə baş ideoloqu Ramiz Mehdiyevin geniş həcmli yazılarını diqqətlə oxumaq yetər ki, Azərbaycanın sistemli şəkildə məhz bu istiqamətdə hərəkət etdiyini anlayasan.

Söhbət həyatın bütün sferalarında sürətli inkişafa və yenilənməyə stavka edilməklə siyasi sahədə paternalistik avtoritazmin əsaslarını saxlamaqdan, eyni zamanda həm Qərb demokratiyasının, həm də Şərq despotizmi və totalitarizminin "ifratlarından" ciddi cəhdlə qaçmaqdan gedir. Belə bir versiyanı əsas kimi götürsək, o zaman müşahidə edilən bütün tendensiyaların və son illər ölkədə baş verənlərin demək olar hamısı ("milli modernləşmə" işində ən həssas məsələ olan korrupsiya ilə mübarizə istisna olmaqla) bu sxemə tam uyğun gəlir.

Heydər Əliyevin prezidentliyinin ikinci (1998-2003), İlham Əliyev prezidentliyinin isə birinci (2003-2008) müddətinə xas olmuş demokratiyanın və qərbyönlü istiqamətin aktiv imitasiya dönəmi artıq arxada qalıb. Axır illər ölkə iqtidarı həm Avropa İttifaqından (Qərb), həm də Avrasiya İttifaqından (Rusiya) kənarda qalmaq istədiyini əsla gizlətmir. Hakim çevrələr mahiyyət etibarilə və öz ritorikaları ilə nümayiş etdirirlər ki, onlar suveren milli inkişaf modelinə, o cümlədən "üçüncü yol" axtarışlarına üstünlük verməklə liberal-demokrat və totalitar neosovet yolundan məsafə saxlamaq niyyətindədirlər.

Azərbaycan rəhbərliyi bütövlükdə "Asiya pələngləri" və "neft monarxiyaları"nın uğurlu təcrübəsinə söykənərək, təxminən 2008-ci ildən etibarən məqsədyönlü şəkildə suveren inkişaf modelinin reallaşması yolunda hərəkət edir. Bundan ötrü siyasi sahədə: avtoritar hakimiyyət sistemi üçün müvafiq hüquqi bazanın yaradılması, müxalifətin daha zəif, nəzarət oluna bilən, loyal və konstruktiv qüvvəyə çevrilməsindən ötrü onun seleksiya edilməsi və marginallaşdırılması, repressiv treninqlərlə bütün KİV-ləri dəqiq siyasi sərhədi olan icazə verilmiş azadlıq çərçivəsində işləməyə kökləyib informasiya məkanı üzərində kontrolun saxlanması, habelə vətəndaş cəmiyyətini müxalif ovqatlılardan, xaricdən böyük qrantlar alanlardan və "üçüncü yol" modelinə uyğun gəlməyənlərdən sərt şəkildə təmizləməklə bu sektora qəyyumluğun gücləndirilməsini nəzərdə tutur.

Deyilə bilər ki, "üçüncü yol"un buna nə dəxli var, əgər analoji total nəzarət və dinləməni digər postsovet avtoritar liderlər - Putin, Lukaşenko, Kərimov, Rəhmon və başqaları da həyata keçirirsə? İş də elə həmin ölkələrin liderlərinin motivasiya bazasının, ambisiyalarının və fiks-ideyalarının müxtəlifliyindədir. İş ondadır ki, bütün postsovet avtoritar liderlərin mütləq siyasi və maliyyə qüdrətinə ümumi meylliyinə rəğmən, onların hərəsinə bir "ambisiyalı qəribəlik", "prioritet şıltaqlıq" xasdır: birisi üçün (məsələn, Kərimov) bu, nəyin bahasına olur-olsun hakimiyyəti qorumaq, bir başqası üçün (Nazarbayev) böyüklük zirvəsinə çatıb alternativsiz avtoritet və ümummilli lider olmaq, üçüncülər üçünsə (Lukaşenko) özünün Belarusdakı "balaca kommunizm"ini dəyişməz şəkildə və qapalı rejimdə qoruyub saxlamaq, Putindən ötrü də "rus torpaqlarını bir yerə yığmaq" və Çar və ya Sovet imperiyasını bərpa eləməkdir.

Ancaq bizim artıq hüdudsuz hakimiyyətə və hüdudsuz sərvətlərə , "prioritet ehtiraslar və şıltaqlığa" malik ölkə rəhbərliyi üçün son illər Azərbaycanın sürətli modernləşməsi, dünyada analoqu olmayan layihələrin və uğurların əldə edilməsi, həmçinin perspektivdə Sinqapur, Malayziya və ya Dubay möcüzəsinə bənzər "Azərbaycan möcüzəsi"nin yaradılması cəzbedicidir. Bu xüsusda ölkənin hakim elitasının ölkədə sərt qayda-qanun yaratmağa, müxalifəti zəiflətməyə və margillaşdırmağa, informasiya azadlığının sərhədini daraltmağa, vətəndaş cəmiyyəti üzərində nəzarəti gücləndirməyə yönəlik hərəkətləri ilk növbədə "üçüncü yola"a kurs götürülməsi və Azərbaycanın avtoritar modernləşdirilməsi məsələsi ilə bağlıdır.

Əlbəttə ki, hər bir repressiv və ya digər daxili siyasi hadisə bir çox səbəb və motivlərlə izah edilə bilər, lakin proseslərin inkişafının ümumi tendensiyası ölkənin "üçüncü model" çərçivəsində planlı şəkildə hərəkətindən xəbər verir. Bu yerdə məntiqi sual doğa bilər ki, Azərbaycanın təcrübəsinə qismən əsaslanmaq istədiyi bu iki ölkələr qrupu ("Asiya pələngləri" və "neft monarxiyaları") xeyli dərəcədə bir-birindən fərqlənir və o qədər də üst-üstə düşən inkişaf yollarına malik deyillər.

Həqiqətən də belədir, ancaq əhəmiyyətli bir məqam var ki, onların hamısını şərti olaraq hansısa "üçüncü yol"da birləşdirməyə imkan verir. Görünür, məhz bu məqam Azərbaycanın hakim elitası üçün cəlbedici nümunə qismindədir. Söhbət bütün bu ölkələrin siyasi vektorlarının və siyasi inkişaf modellərinin oxşarlıqlarından gedir. Onlara aşağıdakı ortaq xüsusiyyətlər xasdır:

1. Dövlət idarəçiliyində paternalistik və ya patrimonial avtoritarzim;

2. Partiyasız, birpartiyalı və ya dominant partiya sisteminə, real müxalifətin və real siyasi plüralizmin yoxluğuna sadiqlik;

3. Vətəndaş cəmiyyətinin rüşeym vəziyyəti, KİV və QHT-lərin (dövlət) nəzarətində olan durumu.

Bütün bu dövlətlər qısa tarixi zaman kəsiyində sistemli modernləşmə sahəsində, sosial-iqtisadi inkişafın templərində, ölkənin və əhalinin yüksək həyat səviyyəsinin təmin edilməsində fantastik uğurlara nail olublar. Onların uğurları və əldə olunmuş yüksək rifah səviyyəsi, iqtisadi yüksəliş hamını heyran edir. Bununla belə, onlar siyasi demokratiyanın təbliğlərindən uzaqdır və öz uğurlarına sırf avtoritar idarəçilik metodları hesabına çatıblar.

Götürək Sinqapuru. Gerçəkdən də bu ölkədə möcüzə baş verib - hər hansı təbii faydalı ehtiyatı olmayan balaca ərazidə rəqabət qabiliyyətli yüksək inkişaf edən iqtisadiyyat qurmaq, əhalinin rifahını görünməmiş şəkildə qaldırmaq, korrupsiyanın kökünü tamamilə kəsmək və cinayətkarlığı minimuma endirmək mümkün olub. Amma mətbuat Sinqapuru belə fenomenal nailiyyətlərə gətirən üsullara tez-tez susqunluq göstərir. Əgər haqqında çox vaxt danışılmayan Sinqapur modernləşməsini götürsək, onda qeyd eləmək olar ki, bu, despotik və totalitar modellərdən uzaq olsa da, eyni zamanda Qərb inkişaf modelinə də birbaşa ziddir.

Sinqapur modernləşməsinin atası, baş nazir Li Kuan Yu sırınan liberal şablonları rədd edib və Sinqapuru müstəqil inkişaf yolu ilə aparıb. Li Kuan Yunun paternalist avtoritarzimi (yəni əhalinin dövlət himayəsindən kənarda saxlanmaması) Qərb iqtisadi və ictimai-dövlət modelinə real alternativ oldu. Belə ki, Sinqapurda (eləcə də Malayziyada və o cümlədən ərəb əmirliklərində) modernləşmənin fenomenal uğurları istənilən vətəndaşı ictimai sabitlik üçün təhlükəli hesab edib qeyri-müəyyən müddətə və məhkəmənin hökmü olmadan həbsə atmağa avtoritar hakimiyyətə mane olmur.

Bu ölkələrdə həmçinin, KİV-lərə nəzarət və hətta antidövlət materiallarına imkan verməyən hansısa senzura təcrübədən keçirilir. Sözgəlişi, Sinqapurda (və bu qrupa aid bir sıra digər ölkələrdə) KİV-lərin, partiyaların və QHT-lərin xaricdən maliyyələşməsi qəti şəkildə qadağan edilib. Siyasi sistemdə isə uzun illər parlamentdəki yerlərin demək olar, hamısına sahib olan hakim partiya açıq-aşkar dominantlıq edir. Sinqapurda məhkəmə sisteminin müstəqilliyi də nisbidir. Çünki baş nazirin timsalında ali hakimiyyət sərfəli olmayan istənilən məhkəmə qərarını ləğv edə bilər. Onu da qeyd edək ki, Sinqapurda və "üçüncü yol" ölkələrinin hamısında korrupsiya ilə mübarizədə parlaq nəticələr təkcə məmurların həddən artıq yüksək əməkhaqları hesabına yox, həm də sərt metodlar, olduqca yüksək cərimələr və ağır cəzalar hesabına əldə olunub.

Gördüyümüz kimi, "üçüncü yol"a Azərbaycanın hakim elitası heç də təsadüfdən meyillənməyib. Axı, korrupsiya ilə hələ ki, baş tutmayan mübarizə istisna olmaqla, yerdə qalanların hamısı tezliklə "Azərbaycan möcüzəsi" yaratmağı hədəfləmiş bizim avtoritar hakimiyyətin arzularının reyestrinə və hərəkət proqramına tam uyuşur.

Yalnız onu əlavə eləmək qalır ki, Azərbaycanın timsalında Qafqazın Sinqapuru, Küveyti və ya Malayziyası yaratmaqdan ötrü təkcə arzu və hakimiyyətin avtoritar konstruksiyası yetərli deyil. Bunun üçün həm də istehsal, texnologiyalar, təhsil, səhiyyə, turizm, ekologiya, vergi siyasəti və s. sahələrdə ciddi uğurlar və irəliləyişlər gərəkdir. Hələ biz hakimiyyət sisteminin adekvat şəkildə yeniləşdirilməsi və cavanlaşdırılmasını, habelə korrupsiya və monopoliya ilə sərt mübarizənin vacibliyini demirik. Hər halda, Azərbaycanın modernləşməsində həqiqi uğurlar və "üçüncü yol"un seçilməsinin qanunauyğunluğu haqda hamı ən əvvəl ölkənin və əhalinin real, yüksək rifah göstəriciləri, eləcə də dövlətin cazibədarlıq imici əsasında mühakimə yürüdəcək. Bunların hansına nail olmaq mümkün olacaqmı?

❑ **Analitik xidmət**

YENİ MÜSAVAT
N 212 (5921) 25 avqust 2014

# "Bir çox məşhur azərbaycanlıya miqrant statusu almaqda kömək etmişəm"

## **Amerikada çalışan azərbaycanlı vəkil İsmayıl Şahtaxtinski:** "Azərbaycan məhkəmələrində çox geridə qalmış, ədalətsiz üsul və prosedurlar var"; "Azərbaycanlıların çoxu viza üçün müraciət edəndə səhv yol seçir"



**Belə səhnələri daha çox Hollivud filmlərində görürük. Geniş məhkəmə zalı, ortada emosional çıxış edən vəkil, onu heyranlıqla dinləyən məhkəmə heyəti, andlılar və sonda... qanun zəfər qazanır... Hüquq sistemi, vəkillik institutu barədə bir azərbaycanlının təsəvvürünü dəyişdirən sistem də deyə bilərik buna.**

Bu günlərdə sosial şəbəkədə qarşıma çıxan bir məlumat isə məni daha da maraqlandırdı. Məlum oldu ki, həsədlə baxdığımız Amerika vəkillik sistemində bir azərbaycanlı vəkil də təmsil olunur, fəal şəkildə işini qurub, hətta ABŞ vəkillər kollegiyasının üzvüdür.

"İ.S.law Firm, PLLC"-in təsisçi və direktoru, ABŞ-ın hüquq doktoru, ABŞ vəkillər kollegiyasının üzvü İsmayıl Şahtaxtinski ilə virtual tanışlıqdan sonra Amerikada vəkilik, bir azərbaycanlını oraya aparan yol, ordakı yüksəlişi... bir sözlə, məni maraqlandıran bütün məsələlərdən danışdıq. Söhbət zamanı müasir azərbaycanlıları daha çox maraqlandıran Amerikaya mühacirət mövzusuna da toxunduq. Son illər Azərbaycanda hüquq sisteminin, vəkillik institutunun iflasa uğradığını nəzərə alanda maraqlı paralellər də apardıq.

***– Amerikada azərbaycanlı vəkil... Azərbaycan cəmiyyəti bu fakta o qədər də öyrəşməyib. Sizi Amerikaya aparan yol haradan və necə keçib?***

- Mən ABŞ-a 14 il əvvəl köçmüşəm. O vaxtdan vətəndaşlıq alıb, burada ailə qurub yaşamışam. ABŞ-ın Nyu Orleans şəhərində, Loyola Hüquq Universitetində hüquq doktoru təhsili almışam. Orda öz firmamı yaratmaq qərarına gəldim. 2007-ci ildən öz işimi qurdum, ABŞ-ın paytaxtı Vaşinqtonda və Vaşinqtonun ətraflarında hüquqi xidmətlər göstərirəm.

***– Amerikada vəkil kimi çalışmaq, özünə bu sahədə yer tutmaq çətindirmi? Xüsusən də əgər buna iddialı olan şəxs amerikalı deyilsə və uzaq Azərbaycandan gəlibsə...***

- İstəyi və iradəsi olan adam üçün heç nə çətin deyil. ABS-da vəkil olmaq üçün gərək Hüquq Doktoru dərəcəsi alasan, sonra isə hansı ştatda hüquqşünaslıq edəcəksənsə, orada imtahan verib hüquqşünas lisenziyası almalısan. Hüquq Doktoru üçün gərək bakalavr təhsilindən başqa 3, bəzən də 4 il əlavə təhsilin olsun. Bu təhsili yalnız akkreditə edilmiş Hüquq Universitetləri verir.

Məsələn, öz hüquq təhsilimi Loyola Hüquq Universitetində almışam.Təhsil zamanı burada çox böyük rəqabət olur. Hətta proqramı yarımçıq atan, oxumağı buraxan tələbələrə də rast gələrsən. Tələbələr arasında reytinqlər təyin olunur və gələcəkdə iş tapma şansı bu reytinqdən asılıdır. Hüquqşünas işinin böyük bir hissəsi yazı və ünsiyyətdən ibarətdir.Yəni uğurlu hüquqşünas olmaq üçün yaxşı nitq qabiliyyətin olmalıdır, ictimai fəallıq da vacibdir. O cümlədən, dəqiq, aydın, ədəbi dildə hüquqi sənədlər yazmalısan. Bu mənada, əlbəttə ki, ingilis dilinin ana dili olmaması ABŞ-da hüquqşünas kimi işləməyə bir qədər çətinlik yaradır. Amma iradə, səbir və dözüm nəticəsində bu çətinliyin də öhdəsindən digərləri kimi gəlmək mümkündür. Nəticədə ingilis dili ana dilindirmi, deyilmi, heç bir fərqi qalmır.

Məndən tez-tez soruşurlar, Amerikada məhkəmələrdə və ya imiqrasiya proseslərində necə ola bilər ki, yerli hüquqşünaslardan daha effektivli və ya daha bacarıqlı ola bilərsən? Axı dil fərqi var və s. Bu suala ətraflı cavab vermək çətindir; çünki onda gərək özümü tərifləyəm. Birincisi, ABŞ-da belə bir problem yoxdur. Tarix boyu ən böyük işləri aparan vəkillərin böyük hissəsi müxtəlif ölkələrdən köçənlər olub. Bir də ki, Amerika imiqrantlar ölkəsidir, burda aksent və ya dialekt məsələsi heç bir işdə uğur qazanmağa mane olmayıb. İkincisi, Hüquq Doktoru dərəcəsi almaq üçün 3-4 il ərzində intensiv təhsil alırsan. Bu zaman da dil, yazı problemləri tamamilə aradan götürülür. Belə olmasa, onda Hüquq Doktoru dərəcəsi və lisenziya almaq mumkün deyil. Ona görə də, ABŞ-da doğulmayan vəkillərin ingilis dilində nəinki çətinliyi olur, hətta yerlilərin çoxundan belə daha yaxşı, qrammatik və ədəbi dildə danışıb yaza bilirlər. Bu, həqiqətən belədir, amma hər dəfə özümü tərifləyib bu nəzəri izahı verməkdənsə, müştəriyə deyirəm, əmin olun ki, gördüyüm işin nəticəsi sizin bu suala tam cavab olacaq.

***- Firmanızın istiqamətləri nələrdir? Məhkəmə işlərinə çıxırsızmı? Ümumiyyətlə, hansı növ işlərə baxırsız?***

- Bizim firma imiqrasiya, biznes, beynəlxalq ticarət və zərərçəkənlərə kompensasiya almaqla məşğuldur.Tez-tez məhkəmələrə çıxıram, istər imiqrasiya, istər beynəlxalq məhkəmələrdə, istər də mülki işlərdə iştirak edirəm.

***- ABŞ-da hakim vəkillə tanış olarsa, bu, prosesə təsir edirmi?***

- Cüzi şəkildə ola bilər, yəni deyə bilmərəm ki, belə şey mümkün deyil. Amma geniş mənada, hakimlə vəkilin tanışlığı, yaxınlığı prosesə çox az təsir edir. Bir də ki, böyük işlərin çoxu "jury" andlılar tərəfindən həll olunur deyə, hakimi tanıyıb-tanımamaq o qədər də önəmli deyil. Digər tərəfdən, əgər hakimin bir və ya hansısa tərəfin vəkili ilə əlaqəsi varsa, onda ya hakimin özü, ya da digər tərəflərin müraciəti əsasında iş başqa hakimə keçir.

***- Ümumiyyətlə, Amerikada miqrant statusu almaq üçün şərtlər nədir?***

- Bu, çox ümumi sualdır. Imiqrant statusu almağın çox üsulları var. Və hər üsulun şərti fərqlidir. Ümumi şərtlər budur ki, cinayət işi, keçmişdə imiqrasiya fırıldaqları, müəyyən qruplarla əlaqələr olmasın və s.

***- Amerika azərbaycanlılara miqrant statusunu asanlıqla verir?***

- Bəli, çünki ölkələr arasında fərq qoyulmur.Yalnız bəzi viza növləri var ki, ölkələrarası müqavilələr əsasında verilir. Məsələn, Azərbaycanla ABŞ arasında olan müqavilə əsasında Amerikada biznes yaradan azərbaycanlılara E-2 vizası verilir, amma Rusiya ilə belə bir müqavilənin imzalanmamasına görə Rusiya vətəndaşlarına bu viza növü şamil edilmir.

***- Bu günə qədər hansısa tanınmış azərbaycanlıya miqrant statusu almaqda yardım etmisizmi?***

- Əlbəttə, çoxlarına. Amma onların kimliyi və ya işləri haqqında danışa bilmərəm. Bu məsələlər çox məxfidir. Müştərinin kimliyi və işi haqqında məlumatı yayan vəkil ABŞ-da öz vəkillik lisenziyasını ömürlük itirə bilər.

***- Amerika bütün siyasi mühacirlərə yaşıl işıq yandırırmı?***

- "Siyasi mühacir" hüquqi termindir.Yəni adamın siyasi mühacir olub-olmaması gərək hüquqi cəhətdən sübut edilsin. Əgər sübut olunsa, onda ABŞ o adama hansı ölkədən olub-olmadığına baxmayaraq, siyasi sığınacaq verir.

***- Bir azərbaycanlının Amerikadan mühacirət alma şansı ilə başqa bir ölkə vətəndaşının şansı eynidirmi? Üstünlük daha çox kimdədir?***

- Elə bir fərq yoxdur.Yalnız müvəqqəti viza müraciətlərində, inkişaf və şəffaflıqdan asılı olaraq, bəzi ölkə vətəndaşları üçün viza almaq daha asandir. Amma daimi yaşayış icazəsi və ya vətəndaşlıq almaq üçün azərbaycanlıların şansı hamı kimidir.

***- Maraqlıdır ki, Amerikaya getmək üçün viza almaq çox çətindir. Müsahibə şərtlərinin ağırlığı, tələb olunan sənədlərin çoxluğu ilə bağlı fikirlər var. Bunlar stereotiplərdir, yoxsa bu çətinlikləri aşmaq üçün asan yollar var?***

- Asan yol yoxdur. Var düzgün yol və səhv yol. Təəssüflər ki, keçmiş Sovet ölkələrindən vizaya müraciət edənlərin çoxu səhv yolu seçir: əvvəldən lazımlı sənədləri hazırlamır, müsahibəyə ilk dəfədən tam hazırlıq görmür və çox təəssüf ki, tez-tez saxta sənədlərdən istifadə edirlər. Buna görə, stereotip deməzdim, sadəcə, Azərbaycan daxil, digər postsovet ölkələrdən olan viza müraciətlərinə daha şübhəli yanaşırlar. Bəzən görürəm ki, kimsə hətta ilk dəfədən düzgün yolla viza almağa şansı ola-ola, nədənsə saxta uydurmalara əl atırlar, rədd cavabı alandan sonra vəkilə üz tuturlar. İlk dəfədən imiqrasiya üzrə ixtisaslaşmış vəkillə məsləhətləşsələr, bu problemlərin çoxu yaranmaz.

***- Maddi məsələlərə də toxunaq, mümkünsə. Məsələn, sizin firmanızdan hüquqi məsləhət xidmətinin məbləği nə qədərdir? Doğrudanmı, Amerika vəkilləri çox baha olur?***

- Bizim firmada vəkildən məsləhət almağın giyməti 200 dollardır. Hazırda biz Azərbaycanda fəal reklam kampaniyası apardığımız üçün bu qiymət 100 dollardır.Əgər müştəri məsləhətdən sonra bizim digər xidmətlərimizdən istifadə edərsə, onda biz bu 100 dolları növbəti xidmətin pulundan çıxırıq.Yəni bu halda vəkil məsləhəti pulsuz başa gəlir, yalnız görülən işin xərçi ödənir.

Bilirsiz, vəkillik də həkimlik kimi çox məsuliyyətli işdir. İşlərin çoxunda insanların taleyi, maddi həyatı və ailə həyatı həll olunur. Müştərilərin peşəkar səhvlərdən qorunması üçün vəkillərdən aylıq iri məbləğdə sığorta xərcləri, illik kvalivikasiya kursları keçmək, yüksək dərəcədə nəzarət və əlavə xərclər tələb olunur. Yaxşı vəkil olmaq üçün hətta şəxsi həyatınla bağlı qurbanlar verirsən. Məsələn, məzuniyyətə çıxsam da, daima telefondayam. Elə vaxt olur ki, məzuniyyətdə ola-ola telefonla məhkəmə ilə danışıram. Bəzən işlər o qədər emosional və müştərinin həyatı üçün vacib olur ki, yuxum ərşə çəkilir, gecə-gündüz bu barədə duşünürəm. Ona görə də bütün bu xərcləri və ABŞ vəkilindən edilən tələbləri üst-üstə gələndə, heç də demək olmaz ki, Amerika vəkilləri çox bahadır.

***- Miqrant statusu almış şəxs üçün Amerika nələr vəd edir? Yəni ona hansı güzəştlər edilir, hansı ödəmələr edilir?***

- Elə bir avtomatik güzəştlər olmur. Amerika, ümumiyyətlə, imkanlar ölkəsi sayılır. Və bura gələn insanlara olunan ən böyük güzəşt - onlara verilən imkanlar və azadlıqlardı. Amma sosial güzəştlərlə yaşayıb-dolanmaq fikri olanlara, yəqin ki, Avropaya və ya Kanadaya köçmək daha uyğun olar.

***- Azərbaycanın hüquq sistemi, məhkəmələri ilə bağlı yəqin ki, məlumatlısız. Sizcə, ölkəmizdə bu sahə hansı vəziyyətdədir? Vəkillik institutunun iflasa uğradığı barədə deyilən rəylərdə həqiqət payı nə qədərdir?***

- İki nöqtənin ikisində də - həm nəzəri, həm də praktik baxımdan vəziyyət çox pisdir. Nəzəri baxımdan: çox geridə qalmış, ədalətsiz üsullar və prosedurlar var. Məsələn, cinayət işlərində məhkəmə zamanı ittiham olunanın qəfəsdə saxlanması onun hüquqlarını pozur və onu bir günahkar kimi təqdim edir. ABŞ-da cinayət işi ilə bağlı məhkəmə proseslərində ittiham olunan nəinki sərbəst formada iştirak edir, onun günahsız olduğunun göstərilməsi üçün hər cür şərait yaradılır. Psixoloqlar müəyyən ediblər ki, insanın sağ əli tərəfində oturan şəxs onun fikirlərinə daha çox təsir edə bilir. Ona görə də ABŞ məhkəmələrində, adətən, ittiham olunan şəxs hakimin sağ tərəfində oturur. İttihamçı ilə ittiham edilən eyni formada və eyni səviyyədə təmsil olunur. Sonra, məsələn, Azərbaycanda andlılar ("jüri") məhkəməsinin olmamağı narahat edicidir. Andlılar məhkəməsi faktlar barədə ən ədalətli qərar verir. Amma Azərbaycanda andlılar məhkəməsi yoxdur. Sistemdə belə problemlər çoxdur. O ki qaldı praktiki baxımdan, Azərbaycanda hüquq sistemində rüşvətxorluq, korrupsiya, saxtakarlıq və ədalətsizlik barədə heç danışmağa dəyməz.

***-İsmayıl bəy, hüquq firmanız həm də bir biznes sahəsidir. Bizə ABŞ-da xırda, orta biznes qurmaq imkanlarından danışın. Bunun üçün bürokratik əngəllər varmı? Məsələn, ilkin sərmayə üçün nə qədər kapitala ehtiyac var? Rəqabətə davam gətirmək olurmu? Xırda, orta sahibkarlıq üçün güzəştlər mövcuddurmu?***

-Yaxşı sualdır. Birinci onu deyim ki, ABŞ-da biznes qurmaq, mülk almaq, iş görüb pul qazanmaq üçün heç burda olmaq və ya Amerikanın vətəndaşı olmaq lazım deyil; statusa ehtiyac yoxdur. Yəni Azərbaycandan istənilən şəxs üçün biz burda biznes də qura bilərik, korporasiya, bank hesabları aça, mülk də ala bilərik. Və həmin biznesin əsasında da onlara ABS-a imiqrasiya etməkdə kömək edə bilərik. İlkin kapital deyilən şey yoxdur. Bank və ya sığorta şirkətləri istisna olmaqla, biznes qurmaq üçün hüquqi baxımdan heç bir minimal kapital tələb olunmur.

Bürokratik əngəllər azdır; çox vaxt heç olmur. ABŞ-ın hər bir ştatı əlindən gələni edir ki, investisiya cəlb etsin. Bunun üçün çalışırlar ki, bütün qeydiyyat sistemlərini, hökumət orqanlarını, lisenziya sistemlərini mümkün qədər təkmilləşdirib asanlaşdırsınlar. Bizneslə olan işlərdə hökumət işçiləri daimi nəzarət altında olurlar ki, hər hansı bir biznesin yaranmasına və inkişafına maneçilik yaranmasın. O cümlədən, xırda sahibkarlara və bizneslərə kütləvi güzəştlər edilir. Qısaca onu deyim ki, Amerika imkanlar və azad biznes ölkəsidir. Nə bacarırsan, onu da et və açıq, ədalətli rəqabətə girərək istədiyin hər şeyə nail ol!

***- Yaxşı, bəs xidmətlərinizdən istifadə etmək istəyən azərbaycanlılar sizinlə necə əlaqə yaratsınlar?***

- Bizim Azərbaycan dilində saytımız var: http://amerikavekil.com/ Arzu edənlər bizə məktub da yaza bilərlər: vekil@amerikavekil.com

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 212 (5921) 25 avqust 2014

"Baxış bucağı"

**Azərbaycanın Avropa Şurası Nazirlər Komitəsinə sədrliyə başlamasından sonra ölkədə xüsusilə də siyasi məhbuslar məsələsində müsbətə doğru ciddi addımların atılacağına inam yaranmışdı. Amma hakimiyyət əvəzində siyasi məhbus siyahısını hazırlayanların özlərini də həbsə atdı, həmçinin, digərlərinin təqibi davam edir. Böyük Quruluş Partiyasının başqanı, Milli Məclisin AŞPA-dakı nümayəndə heyətinin üzvü Fazil Mustafa ilə söhbətimizin ilk sualı bu barədə oldu:**

# "Bu, kobra ilə rəqsə bənzəyir"

## Fazil Mustafa: "İqtidar əlindədirsə, hamıdan ağıllısan, doğrusunu sən düşünürsən, başqalarını dinləməyə də gərək yox"

*- Fazil bəy, sizcə, ölkədə nə baş verir, hakimiyyət nədən belə radikal yol tutdu?*

- Bunun səbəblərini anlamaqda mən də çətinlik çəkirəm. Gerçəklik budur ki, Azərbaycan hakimiyyəti kifayət qədər xarici təzyiqlərdən özünü qoruyacaq gücdədir və daxildə də hətta zəif şəkildə də olsa, müxalifətin müqaviməti yoxdur. Belə bir şəraitdə bir-iki hüquq müdafiəçisinin hakimiyyət üçün hansısa ciddi problem yarada biləcəyi ehtimalı demək olar, ciddi səslənmir. O zaman məsələlərin bu şəkildə gərginləşdirilərək təqdim olunması anlaşılan deyil. Məncə, hakimiyyət bacardıqca həbs tədbirlərinə əl atmamalı, tənqidə daha dözümlü yanaşmalıdır. Xüsusilə də AŞPA-da Nazirlər Komitəsinə rəhbərlik etdiyimiz bir ərəfədə ümummilli problemləri gündəmə gətirmək fürsətini qaçırıb, beş-altı nəfərin həbsinin müzakirəsinə bütün diqqətləri yönəldə bilərik ki, bu da bizim dövlət maraqlarımıza uyğun deyil. Hər halda etiraf etməliyik ki, çox sərt kurs seçilib və əslində cəmiyyətə buna rəvac verəcək hansısa situasiya müşahidə olunmur.

*- Üçüncü sektorun təmsilçilərinin hədəfə alınmasının alt qatında nə dayanır? Məntiqlə iqtidar QHT-lərin daha güclü olduğu və proseslərə aktiv müdaxilə imkanlarının mövcudluğu illərində bu cür davranmalı idi, nəinki indiki situasiyada? Hansı təhlükə, hansı informasiya hakimiyyəti belə bir mövqe tutmağa vadar edə bilərdi?*

- Diqqət edirsinizsə, daha çox xaricdən külli miqdarda qrantlar almış QHT rəhbərlərinin adları "qara siyahıda" yer alır. Bu, bilavasitə xarici güclərin məhz bu sektor vasitəsilə ölkədə problemlər yaratması ehtimalına görə ortaya qoyulan davranışlardır. Bütün hallarda belə məsələlər hüquq çərçivəsində aparılmalı, qəti sübutlar olduğu halda cəza mexanizmləri işə düşməlidir. Həbs olunanların içində xarici qüvvələrlə ciddi əməkdaşlığı olan subyektlər də var, olmayanlar da var. O zaman bir məsələyə diqqət yetirmək lazımdır ki, bu əməkdaşlıq dövlət maraqlarına həqiqətənmi ciddi zərbə vurub? Bütün hallarda baş verənlər onu göstərir ki, hakimiyyətin əlində məzmunu tam olaraq açıqlanmayan elə informasiyalar var ki, bizim üçün yersiz görünən addımlar atılmasına qərar verilib. Əks halda QHT sektorunu təmsil edən şəxslərin üzərinə bu qədər ciddi hücumlara hansısa zərurət olduğunu düşünmürəm.

*- Soyuqqanlı təhlil apars aq, belə qənaətə gələ bilərik ki, əslində Qarabağ cəbhəsində gərginliyin mövcudluğu şəraitində, böyük müharibə təhlükəsinin baş verməsi halında iqtidar-müxalifət-vətəndaş cəmiyyətinin vahid mövqe sərgiləməsi, ölkədə vətəndaş birliyinə nail olunması istiqamətində addımların atılması zəruri idi. Nədən fərqli yol, cəmiyyəti daha çox parçalama yolu seçilib? Burda daxili amillərlə yanaşı, xarici təsirin olması da mümkündürmü?*

**"Bugünkü qədər Azərbaycan müxalifətinin cəmiyyətə təsir göstərmək imkanının sıfır nöqtəsinə endiyi dövr olmayıb"**

- Bu, əslində fərqli yol sayılmaz. Bu, əsl azərbaycanlı yoludur. İqtidar sənin əlindədirsə, hamıdan ağıllısan, doğrusunu sən düşünürsən, başqalarını dinləməyə də gərək yox. İllər uzunu bu, belə olub və milli xarakterimizin ayrılmaz atributuna çevrilib. Biz elə daxildə bu birlik modelini tapa bilsəydik, Qarabağı niyə itirirdik? İndi də bölgədə yaşanan gərginlik fonunda Azərbaycan cəmiyyəti əvvəlkindən daha çox uzlaşma yollarını və mexanizmini tapmalıdır, təəssüf ki, bu kimi düşüncələrə bizlər nəyisə itirəndən sonra, ciddi məğlubiyyətdən sonra gəlirik. Gizlətməli deyil, Azərbaycan ciddi təzyiq altındadır, düşünürəm ki, xarici siyasətimizin daha rasional məcrada aparılması ölkəni bir sıra ciddi təhlükələrdən qoruya bilib. Ancaq bu riskli vəziyyətdə hər zaman doğru qərarlar qəbul edəcəyimizin təminatı yoxdur. Ona görə də daxili uzlaşma barədə nə qədər gec deyil, düşünüb hərəkət etməliyik. Ölkənin taleyinə məsuliyyət payının cəmiyyətin bütün siyasi və sosial subyektləri arasında balanslı bölüşdürülməsi ümumi işin ancaq xeyrinə olardı.

*- Naxçıvanda hüquq müdafiəçisi İlqar Nəsibovun başına gətirilən dəhşətli hadisəyə artıq ölkə xaricindən sərt reaksiyalar gəlməkdədir. Sizə elə gəlmirmi ki, ölkədə artıq qəddarlığı ilə İŞİD-çilərdən seçilməyən fərdlər də meydana çıxıb? Bu faktı necə dəyərləndirirsiniz?*

- Hər hansı hüquq müdafiəçisinin, o cümlədən İlqar Nəsibovun fiziki təzyiqə məruz qalması ölkəmizə yaxşı imic qazandırmır və mən ümid edirəm ki, hüquq-mühafizə orqanları bu əməli törətmiş şəxslər barədə ciddi tədbirlər görəcək.

Bu yanlış bir tendensiyadır və bu tendensiya Azərbaycana qarşı siyasi təzyiqlər etməyi düşünənlərə çox əlverişli şanslar yaradır.

*- Bu yay tətili ölkəmiz üçün heç də yaxşı notlarla yadda qalmadı, beynəlxalq qınaqların artması da bunu sübut edir. Vəziyyətlə əlaqədar parlament partiyalarının təşəbbüsləri olacaqmı? Konkret halda nə təklif edirsiniz?*

- Ukraynadakı, İraqdakı, Suriyadakı, Liviyadakı vəziyyəti görəndə bir az sualınızın vəziyyəti bizdə daha kritik göstərməyə yönəldiyini sezirəm. Təbii ki, narahatçılıq doğuran çox sayda məqamlar var, ancaq bütün hallarda bu günün xarici geosiyasi mühitində baş verənlərlə müqayisədə Azərbaycanda hələ ki, bu gün çoxlarının həsrətini çəkdiyi sabitlik normal şəkildə qoruna bilir. Könül istərdi ki, idarəetmənin demokratik metodlarına iqtidar daha çox üstünlük verərdi. Ona görə də islahatların aparılması istiqamətində təkliflərimizi daha israrla Milli Məclisdə gündəmə gətirməyə hazırlaşırıq.

*- Yeri gəlmişkən, İŞİD-in Azərbaycana təhlükəsini önləmək üçün nə etmək lazımdır? Artıq bu terror hörgütü Türkiyəyə hücum edəcəyini də bəyan edib.*

- İŞİD-in Azərbaycan üçün təhlükəsi bütün terrorçu təşkilatların təhlükəsi qədərdir. Əgər təhlükələri sadalamağa başlasaq, bu terrordan da təhlükəli məqamları diqqət mərkəzinə gətirə bilərik. İrandan tranzit yolu ilə məqsədyönlü şəkildə Azərbaycana kütləvi şəkildə narkotik vasitələrin yayılmasını daha böyük təhlükə hesab edərdim. Beş-on terrorçunu yaxalayıb zərərsizləşdirməyə hər hansı bir dövlətin gücü çatar, ancaq minlərlə narkotik yayıcısını necə zərərsizləşdirə biləcəksən? Artıq İŞİD adlanan bu quruluşun qısa müddətdə tətbiq etdiyi üsullar onun islamla yalnız şəkilcə əlaqəsindən danışmağa imkan verir. Mahiyyətcə islama qarşı olan, bu dinin dəyərlərini bilincli şəkildə gözdən salmağa çalışan avantürist və manyak elementlərin fəaliyyətindən söhbət gedir. Bu təhlükəyə qarşı artıq ortaq bir dünya ictimai rəyi formalaşmaqdadır və çox güman ki, bu düyünün çözülməsi üçün dünya dövlətləri koordinasiyalı addımlar atacaq. Türkiyəyə hücum etməyə gəldikdə isə, artıq bu baş verib, siftəsinə 49 nəfər türk diplomatını əsir götürüb, hələ ki, iki aydır qosqoca Türkiyəni yönəldənlər İŞİD-a qarşı ciddi bir addım ata bilməyiblər.



**"Hakimiyyətin Rusiya ilə davranışı Şirvanşah İbrahimin qüdrətli Teymurla davranışına bənzəyir"**

*- Ölkədə haqqı pozulanların intihara əl atması artıq adi hala çevrilib. İki gün əvvəl biri özünü körpüdən atmaq istədi, dünən də bir nəfər özünü doğrayıb. Bu kimi hadisələr haqda nə demək olar?*

- Hər şeydən öncə, insanlar arasında ciddi bilgiləndirməyə ehtiyac var ki, intihar ən böyük günahlardan sayılır və çətinliyə düşən hər bir insan dərhal intihar barədə düşünsə, Yer üzündə insan övladı yoxa çıxardı. O zaman kimsəsiz adada ümidsiz vəziyyətdə qalan Robinzon da intihar etməliydi. Yüzlərlə bu kimi misallar çəkmək olar. Bu, bilavasitə insan haqları ilə bağlı təqdim olunmamalıdır, sırf psixi natamamlıq kimi baxılmalıdır. Ölkədə məhkəmə ədalətsizliyi də var, hüquq pozuntularının sayı da eninə-uzununa yayğındır, ancaq kiminsə intiharı üçün bu bəhanə sayıla bilməz. Məncə mətbuat insanların bu təhlükəli seçimini çox da təbliğ etməməlidir. O zaman İŞİD vəhşətindən qaçan türkmənlər, yezidlər hamısı iztirab dolu həyatlarından bezib intiharmı etməlidirlər? Haqsızlığa qarşı mübarizə yollarını tapıb, ümidsizliyə qapılmaq olmaz, deyə düşünürəm.

*- Sizcə, bu mərhələ üçün Azərbaycan Rusiya təhlükəsini ötüşdürə bildimi, yoxsa hələ başının üstündən Domokl qılıncı asılmış vəziyyətdədir?*

- Bir dəfə NATO tədbirində də söyləmişdim, bizlərin taleyinə Rusiya ilə təhlükəli rəqs etmək düşüb. Bu kobra ilə rəqsə bənzəyir. Ani bir diqqətsizlik, 25 il öncə Qarabağın itirilməsi ilə nəticələndi. Bu kobra bizdən güclüdür, öldürücü zəhəri var, ancaq diqqətlə rəqs edənlər üçün hələ ki, təhlükəli sayılmaz. Ancaq bu kobranın ən azı zəhərli dişinin çəkilməsinə qərar verilibsə, bu prosesə qədər torbaya əlimizi soxmamalıyıq. Məncə, Azərbaycan iqtidarının Rusiya ilə davranışı təqribən Şirvanşah İbrahimin qüdrətli Teymurla davranışına bənzəyir. Ən optimal bir yol izlənir və bunu təqdirələyiq hesab edirəm.

*- Torpaqların azad olunması üçün savaşa başlamağın zəruriliyi, bunun üçün şans yarandığı barədə deyilənlərə sizin münasibətiniz necədir?*

- Yaxın Şərqdə, bəlkə də Asiyada savaşa başlayıb qalib gəlmə haqqı tanınan iki dövlət tanıyıram. Birisi İsrail, ikincisi Ermənistan. Bu coğrafiyada başqa bir dövlətin parlaq bir qələbəsini qeyd edə bilərsinizmi? İran-İraq savaşının qalibi kim oldu? Əfqanıstandakı daxili savaşın qalibi kim oldu? Ona görə də əlverişli beynəlxalq şərtlər yetişməyincə vətənpərvər görünmək naminə savaş ritorikasını gücləndirməyi doğru hesab etmirəm. Azərbaycan xalqının gündəlik məişətindəki davranışlarda savaşa hazırlıq tendensiyasını duyduğunuz zaman bu zərurətdən danışmaq olar. Hələ ciddi müharibə başlamamış müzakirə başlayırsa ki, niyə kasıb uşaqları ölür, varlılar ölmür, artıq bu cür düşüncə fərqliliyi mütləq səngərdə də özünü büruzə verəcək. Savaşa yalnız ordu ilə deyil, hər bir şəhərin infrastrukturu ilə, insanların intizamlı həyat tərzi ilə hazırlaşmaq lazımdır. Maraqlanmısınız ki, nə qədər binanın altında hava hücumundan qorunmaq üçün sığınacaqlar mövcuddur? Barları sığınacaqdan çox olan Bakıda bu suala hansı səlahiyyət sahibi cavab verə biləcək?

*- Müxalif düşərgədəki durum haqda nə düşünürsünüz?*

- Əslində sualı doğru tərtib etdiniz. Müxalifət bu gün ancaq düşərgədən ibarətdir. Bütün fəsillərdə istirahət etməyə məhkum olunmuş pioner düşərgəsindəyik sanki. Eyni deviz, eyni marşrut, eyni dağ, eyni dəniz... Bugünkü qədər Azərbaycan müxalifətinin cəmiyyətə təsir göstərmək imkanının sıfır nöqtəsinə endiyi dövr olmayıb. Halbuki, bu günün texnoloji vasitələri hər bir insana yetişmək, hər kəslə təmas qurmaq imkanını tanıyır. Demək ki, bir yeni fikir böhranı, yeni düşüncə böhranı mövcuddur ki, insanları hərəkətə gətirmək mümkün olmur. Hamıda elə təsəvvür var ki, bütün yolların qarşısı kəsilib və irəliləməyin faydası yoxdur. Ancaq illər öncə Aya da yol olduğunu söyləyənləri gülüşlə qarşılayırdılar. Demək ki, axtaran üçün mütləq yol və vasitə tapılır.

**Elşad PAŞASOY**



# Qançıxan MR

Zamin HACI
zaminhaci@gmail.com

**Avqustun 22-də “Turan” İnformasiya Agentliyinin şefi Mehman Əliyev “Yeni Müsavat” qəzetinə intervü vermişdi. İntervüdə son aylar müstəqil qeyri-hökumət təşkilatlarına yapistlərin hücumlarından bəhs olunurdu. Sitat: “Bəzi QHT-lər var ki, fəaliyyəti demək olar dayandırılıb. Bunlar Media Hüquqları İnstitutu, Hüquq Maarifçiliyi Cəmiyyəti, RATİ, Sülh və Demokratiya İnstitutudur. Bu təşkilatlar insan hüquqları, siyasi məhbuslar və cəmiyyəti narahat edən əsas problemlərlə məşğul olurdu. Ona görə də bu təşkilatların zərərsizləşdirilməsi həyata keçirildi. Belə baxanda çox ciddi bir itki oldu”.**

Doğrudan da, son həbslər, hücumlar əsasən hüquq, demokratiya, media, siyasət istiqamətli QHT-lərə yönəlmişdi, hakimiyyət bunları məhv edəndən sonra meydanda demək olar kimsə qalmayıb. Bir-iki iqtisadi yönümlü QHT meydanda qalıb. Qalan saysız-hesabsız QHT-lər vüqarbayramovların, sahibməmmədovların rəhbərlik elədiyi qonqolardır, heç müzakirə edilməyə layiq deyillər.

Ancaq “Turan” Agentliyi başçısının intervüsündə mənim diqqətimi təkcə məhv edilən QHT-lərin sıralaması cəlb etməmişdi. Orda maraqlı bir yanlışa yol verilmişdi. Mehman bəyi uzun illərdir tanıyırıq, məsələn, mən bilirəm ki, onun açıqlamalarında hər zaman optimist yön olur, bəzən də əsassız-arqumentsiz nikbinlik tonu olur. Burda da belə cümlə vardı, ancaq bircə hərf səhvi işləri korlamışdı. Mehman bəyin “Məncə, hakimiyyət danışıqlara gedəcək, müsbətə doğru nəsə gözləmək lazımdır” fikrində “müsbət” sözü “müsibət” kimi getmişdi.

Bu, mənim “dörd gözüm”dən yayınmadı, gün ərzində narahat dolaşdım, axşama yaxın hakimiyyətin müsibətə doğru hərəkətinin sorağını Naxçıvandan aldım. Regionda yaşamaqda olan 4 azadfikirli insandan birini - hüquq müdafiəçisi İlqar Nəsibovu vəhşicəsinə döymüşdülər, al qana bülənd eləmişdilər.

Haşiyə çıxaraq yazım ki, mən “Naxçıvanda qalan 4 nəfər” ifadəsini havadan yazmıram. Vasif Talıbov Azərbaycanın bu bölgəsində təmizləmə-filtrasiya işlərini elə əzmlə aparıb ki, mən orda hazırda yaşayan azad fikirli insanları barmaqla sayıram: Məlahət Nəsibova, Həkimeldostu Mehdiyev, İlqar Nəsibov... Vay-vay... Mən də səhv eləmişəm, heç 4 nəfər də olmadı! Bu adamlar sözün əsl anlamında qəhrəman, qanını qaşığa qoymuş şəxslərdir. Qalanlarını döyüblər, sürgün ediblər, sındırıblar, tutublar, dəlixanaya salıblar, öldürüblər. Muxtar respublikada repressiyanın bütün metodları sınaqdan çıxarılıb. Hakimiyyət “arxa bağçasında” yad adamlara dözə bilməzdi.

İlqar Nəsibovun fotoları qanla boyanmış qırmızı rəsm əsərlərinə, qorxunc tablolara bənzəyirdi. Norveç rəssamı Munkun “Fəryad” rəsminə, Bosxun cəhənnəm təsvirlərinə... Bu rəsmin müəllifi Naxçıvan MR-dəki rejim, yerli Kim Çen İn-dirsə, çərçivəni Bakıdan göndəriblər. Sadəcə, Bakıda QHT rəhbərləri zindana salınıbsa, Naxçıvan bunu kortəbii təkrarlasa daha nəyi Naxçıvan oldu? Həmişə paytaxta örnək olmaq gərəkdir! Paytaxt ağzını əzəndə, Naxçıvan başını kəsməlidir!

Rəsmdən söz düşmüşkən, Azərbaycan realist boyakarlığının, klassik rəssamlığımızın banilərindən biri cavan ölmüş Bəhruz Kəngərlidir. Bəhruz bəy təxəllüsündən göründüyü kimi Naxçıvanın Kəngərli bölgəsində, 19-cu əsrdə doğulmuşdu. Onun ermənilərdən qaçan azərbaycanlıları təmsil edən “Qaçqınlar” silsilə rəsmləri məşhurdur. İndi ümid edirəm naxçıvanlı rəssamlardan kimsə Vasif xanın gözünü çıxartdığı hüquq müdafiəçilərini qanlı boya texnikası ilə rəsmə alar, yeni bir “Qaçqınlar” seriyası ortaya çıxar.

Naxçıvan polisinin hadisə ilə bağlı açıqlaması isə normal KİV cümləsi ilə izah edilməz bir şeydir. Guya İlqarı VHP-nin yerli sədri içki məclisində şəxsi təhqirə görə döyüb. VHP nəinki belə sədri, heç üzvü olmadığını bildirib. Amma nə xeyri? Vasif müəllim deyirsə, yəqin elədir. Talıbov istəsə Sabir Rüstəmxanlını VHP sədrliyindən azad edib yerinə qardaşı Məhərrəmi qoyar. Kim nə deyəcək?

Deyənlərin qanı ölkə boyunca axır. Arazla axıb Naxçıvandan da gəlir. 21 ildir. Mənbə ordandır.

# “Davudoğlunun baş nazirliyi Azərbaycana xeyir gətirə bilər”

## Elxan Şahinoğlu: “Sürix protokollarına imzanı o atsa da, proses ondan əvvəl başlanmışdı...”

**“Əhməd Davudoğlunun baş nazirliyə Ərdoğan tərəfindən irəli sürülməsi suallar doğurur. Əslində o, Ərdoğanın istədiyi xarici siyasəti yürüdürdü. Ancaq Ərdoğan Abdulla Gülü yox, Əhməd Davudoğlunu baş nazir kimi irəli sürdü. Çünki Ərdoğanın Fətullah Gülənlə davasında Əhməd Davudoğlu ona yaxın oldu. Abdulla Gül isə bu qarşıdurmada neytral mövqe saxladı”.**


Əhməd Davudoğlu


Elxan Şahinoğlu

Bu fikirləri “Yeni Müsavat”a “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi analitik Elxan Şahinoğlu Türkiyədə baş nazirlik məsələsi ilə bağlı vəziyyəti şərh edərkən açıqladı. Onun sözlərinə görə, Davudoğlunun baş nazir olması Azərbaycan üçün xeyir gətirə bilər.

E.Şahinoğlunun fikrincə, hazırkı xarici işlər naziri Ermənistan - Türkiyə sərhədlərinin açılması ilə bağlı İsveçrədə Sürix protokollarına imza atmış olsa da, bu proses ondan əvvəl başlanmışdı: “Ona qədər Ermənistanla təmaslar olmuşdu. Həmin dövrdə Türkiyənin xarici işlər naziri Əli Babacan danışıqlarda iştirak edirdi. Və Davudoğlu Sürix protokollarını imzalayanda Azərbaycan tərəfindən kəskin etirazlar oldu. Azərbaycanın təzyiqləri qarşısında Ərdoğan geriyə addım atdı. Azərbaycanla razılaşdılar. Ondan sonra Ərdoğan Bakıya gəldi, ardınca dəfələrlə Davudoğlu Azərbaycana səfər etdi. Bu da Davudoğlunun ölkəmizlə əlaqələrini yaxşılaşdırdı.

Hər şey öz məcrasına qayıtdı, Elmar Məmmədyarovla təmaslar quruldu. O baxımdan Davudoğlunun baş nazir olması Azərbaycana xeyir gətirə bilər. Çünki ölkəmizi yaxşı tanıyır, əlaqələr var, Azərbaycanın maraqlarına zidd addım atacağını düşünmürəm".

Xatırladaq ki, Türkiyədə yeni baş nazirin adına artıq aydınlıq gəlib. Yeni seçilmiş prezident Rəcəb Tayyib Ərdoğan xarici işlər naziri Əhməd Davudoğlunun baş nazir olacağını bildirib. Bundan əvvəl avqustun 21-də yeni baş nazirin təyin edilməsi haqqında qərar qəbul olunacağı deyilirdi. Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AKP) sədri vəzifəsinə də xarici işlər naziri Ə.Davudoğlunun namizədliyi irəli sürülüb.

Bu qərar partiyanın Mərkəzi İcraiyyə Komitəsinin iclasında qəbul olunub. Ə.Davudoğlunun namizədliyi AKP-nin avqustun 27-də keçiriləcək təcili qurultayında təsdiq olunmalıdır.

❑ E.SALAMOĞLU

# Siyasətçilərin fərari övladları

**Qarabağ savaşında məmurların övladları niyə iştirak etmir? Hətta atəşkəs dövründə belə məmur övladlarını əsgər paltarında görmək mümkün deyil. Orduya belə münasibətlə ölkədə vətənpərvərlik ruhunu qaldırmaq ağlasığmazdır. Ordunun MORQa döndərildiyi, əsgərlərin yalnız kasıb təbəqədən ibarət olduğu bir ölkədə insanlara qələbə hissini aşılamaq da olduqca çətindir.**
**Tarix boyunca siyasi elita nümayəndələri öz övladlarını əsgərliyə həvəslə yola salıblar. Bir çoxlarının övladları ya əsir düşüb, ya da həlak olub. Məsələn, SSRİ diktatoru İosif Stalinin oğlu Yakov Stalin döyüşlərdə əsir düşüb. Stalin oğlunun dəyişdirilməsinə razılıq verməyib. Bundan qəzəblənən almanlar Yakovu güllələyiblər.**

Azər RƏŞİDOĞLU



Elə Azərbaycan tarixində də belə hallar çox müşahidə edilib. Əks təqdirdə, xalq oğlu fərarilik edən xalq qəhrəmanını bağışlaya bilməzdi. Babək Xürrəmi oğlunu döyüşdə sağ qaldığına görə söyüş və təhqirlərlə qınadı.

Elə bu gün ətrafımızda baş verənlər də onu göstərir ki, əsl liderlərin övladları əyninə əsgər paltarı geyinir.

Ukraynada baş verən son hadisələr bir daha sübuta yetirdi ki, məmur övladlarının sıravi vətəndaşlarla çiyin-çiyinə səngərdə dayanması vətənpərvərlik əhval-ruhiyyəsinin qaldırılmasında olduqca böyük rol oynayır.

Ukrayna prezidenti Petro Poroşenkonun böyük oğlu, 29 yaşlı Aleksey Poroşenko ölkənin cənub-şərqində - antiterror əməliyyatı zonasında xidmət edir. Aleksey Poroşenko özünü sadə aparır. Maraqlıdır ki, prezidentin özü oğlunun hərbi xidmətdə olması barədə heç yerdə heç nə deməyib.

Vinnitsk Vilayət Sovetinin deputatı olan Aleksey 3 aylıq oğlunu, xanımı Yuliyanı evdə qoyaraq gizli şəkildə döyüşə gedib.

Qeyd edək ki, parlamentin spikeri Aleksandr Turçinovun 21 yaşlı oğlu Kirilə, müdafiə naziri Valeri Geletayın böyük oğlu Aleksandra da bildiriş gəlib. Daxili işlər naziri Arsen Avakovun 25 yaşlı oğlu Aleksandr isə “Kiyev 1" batalyonunda qulluq edir.

Çeçenistanın sabiq prezidenti, mərhum Cöhvər Dudayevin oğlu Avlur Dudayev də ruslara qarşı savaşda döyüşlərdə iştirak edib. 1995-ci ildə Arqun uğrunda döyüşlərdə A.Dudayev ağır yaralanıb. Onun öldüyü barədə məlumatlar yayılsa da, bəzi mənbələr çeçen liderinin övladının möcüzə nəticəsində sağ qaldığını iddia edirlər.

Azərbaycanda isə hətta kiçik bir nazirliyin rəhbərliyində olan şəxslərin övladları da əsgərlikdən yayınır, fərarilik etməyə üstünlük verir. Halbuki, ölkə qanunları məmur övladlarının fərarilik etməsini qadağan edir.

“Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 12.2.1-ci maddəsinə əsasən müddətli həqiqi hərbi xidmətə Azərbaycan Respublikasının 18 yaşına çatmış, sağlamlıq vəziyyətinə görə hərbi xidmətə yararlı olan, çağırışa möhlət hüququ olmayan və ya çağırışdan azad edilməmiş kişi cinsli vətəndaşlar çağırılırlar. Göründüyü kimi, Azərbaycan Respublikasının bütün vətəndaşları kimi hakimiyyətdə təmsil olunan məmurların övladlarının da müddətli həqiqi hərbi xidmət keçmələrini qanun tələb edir.

Buna baxmayaraq, məmurlarımızın övladları yaxşı yaşayışlarını tərk edərək vətəni qorumaq barədə düşünmürlər.

Məmurları vətən deyil, övladlarının gələcək karyerası düşündürür. Ən yaxşı halda kiçik məmur övladları paytaxtın mərkəzi hissəsində yerləşən hərbi hissələrində “ölü can”lara çevrilirlər.

Avropa dövlətlərinin böyük əksəriyyətində, eləcə də digər ölkələrdə - İsraildə, Türkiyədə məmurlar övladlarını öz əlləri hərbi xidmət yerinə gətirir, onların fərari olmadığını sübuta yetirirlər.

Türkiyə baş naziri Ərdoğanın oğlu, İsrailin baş naziri Benyamin Netanyahunun oğlu hərbi xidmət keçib.

Azərbaycanda isə bu fantastik görünür. Nəinki məmurlar, hətta millət vəkillərinin özləri və övladları da hərbi xidmətdən yayınırlar. Ən faciəli cəhət ondan ibarətdir ki, Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri komitəsinin bəzi üzvləri hərbi xidmətdə olmayıblar.

Harınlığa adət etmiş məmur övladlarının fərariliyini anlamaq bəlkə də mümkündür. Lakin bəzi müxalifət rəhbərləri də övladlarını hərbi xidmətdən yayındırırlar.

Düzdür, bu deyilənlər bütövlükdə müxalifətə şamil edilə bilməz. Mirmahmud Mirəlioğlunun böyük oğlu Sərhəd Qoşunlarında xidmət edib. Eks-prezident Əbülfəz Elçibəyin oğlu Ərturqut Əliyev bir neçə il əvvəl hərbi xidmət borcunu yerinə yetirərək başa vurub. AMİP lideri Etibar Məmmədovun böyük oğlu hərbi xidmətdə olub. Sabiq baş nazir Pənah Hüseynin oğlu Vaqif Hüseyn hərbi xidmət keçib. Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəylinin oğlu Tural əsgəri xidmətini keçib. Eldar Namazovun oğlu da hərbi xidmətdə olub.

Digər aparıcı liderlərin övladları isə ya əsgər paltarı geyinməyiblər, ya da ki qısa müddətə əsgərlikdə olub, vaxtından xeyli əvvəl evlərinə dönüblər. Adıçəkilən liderlər ranqlarına görə digərlərindən daha yüksək məqamda dururlar. Ən ürək ağrıdan fakt isə ondan ibarətdir ki, məmurlarla yanaşı, bəzi müxalifət liderlərinin əsgərlik yaşına çatmış övladları da Avropa ölkələrində yaşamağa üstünlük verirlər. Hamını tənqid edən bu liderlər övladlarını vətən uğrunda savaşa göndərmək istəmirlər.

Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmaq sıravi müxalifətçi övladlarının nəsibi imiş. Vətəni sevdiyini sübuta yetirmək əməldə olmalıdır, sözdə deyil...

❑ Azər RƏŞİDOĞLU



# Putin prezidentlərin görüşünü pozmaq planını işə salıb

## Moskva Azərbaycan və Ermənistan arasında indi hətta meyit mübadiləsinin baş tutmasında da maraqlı deyil; Kəlbəcərdə əsir götürülən və biri Rusiya vətəndaşı olan azərbaycanlıların taleyinə Kremlin biganəliyi davam edəcək...

**Bakıda qəfildən dünyasını dəyişmiş Ermənistan vətəndaşı Karen Petrosyanın ölümü ətrafında erməni tərəfinin antitəbliğat isteriyası davam edir. İş o yerə çatıb ki, Ermənistanın xarici işlər nazirinin müavini Şavarş Köçəryan hadisəni İŞİD-çilərin amerikalı jurnalisti qətlə yetirməsi ilə eyniləşdirməyə cəhd edərək, rəsmi Bakını "dinc insanlara qarşı terror"da suçlayıb. Sözün həqiqi mənasında Azərbaycan xalqına, türk toplumuna qarşı terror və təcavüz həyata keçirmiş, Xocalı soyqırımı kimi antibəşəri bir rəzalətə imza atmış bir xalqın rəsmi nümayəndəsinin belə iddiasına söz tapmaq olmur.**

İşğalçı ölkə, erməni diasporu beynəlxalq miqyasda bu hadisədən Azərbaycan əleyhinə təbliğat aparmaqdadır. Əfsus ki, dünyada erməni yalanlarına daha böyük ehtiyac var, nəinki Azərbaycan, Qarabağ həqiqətlərinə. Bunun nəticəsidir ki, artıq Dağlıq Qarabağ məsələsində guya ədalətli vasitəçiliyi öz üzərinə götürmüş ATƏT-in Minsk Qrupunun hər üç həmsədrindən ikisi - ABŞ və Fransa XİN-in təmsilçiləri olaya operativ reaksiya verərək hadisədən "şoka düşdüklərini" bildirdilər. Halbuki, buna qədər işğal altındakı Kəlbəcər rayonunda azərbaycanlı Həsən Həsənov öldürülüb və meyiti hələ də doğmalarına çatdırılmayıb.

Öz növbəsində üçüncü həmsədr ölkə - Rusiya XİN-in rəsmi nümayəndəsi Aleksandr Lukaşeviç səviyyəsində məsələyə reaksiya bildirib. Rus diplomat Petrosyanın ölüm faktı ilə bağlı üzüntü keçirdiklərini söyləyib. "Biz dərin hüzn hissi ilə bəyan edirik ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmaması insan itkiləri ilə, həm də qeyri-döyüş şəraitində itkilərlə müşayiət olunmaqdadır. Petrosyanın, həmçinin həyatını itirən digər ermənilərin və azərbaycanlıların yaxınlarına və doğmalarına biz dərin hüznlə başsağlığı veririk. Belə insidentlərin diqqətlə araşdırılmasını vacib hesab edirik. Həmçinin, tərəfləri prezidentlərin 27 oktyabr 2010-cu il tarixli bəyanatında əksini tapmış və həlak olanların mübadiləsi ilə bağlı anlaşmaya praktik əməl etməyə çağırırıq", - deyə XİN yetkilisi qeyd edib.

***

Məsələ də ondadır ki, məhz erməni tərəfi həlak olanların mübadiləsinə isti yanaşmır. Bunu Ermənistanın Xarici İşlər Nazirliyinin mətbuat katibinin Azərbaycan tərəfinin girovları və cəsədləri mübadilə eləmək təklifinə verdiyi ironik reaksiya bir daha təsdiqləyir. XİN təmsilçisi deyib ki, "biz bazarlığa getmirik". Ardınca separatçı qurumun qondarma "müdafiə naziri" bəyan edib ki, Dilqəm Əsgərov və Şahbaz Quliyev "cinayətkarlar" kimi mühakimə olunacaq. Yəni onlar mübadilə edilməyəcəklər.

Xatırladaq ki, Azərbaycanın baş nazirinin müavini Əli Həsənov Beynəlxalq Qızıl Xaç Komitəsi vasitəsilə Ermənistana girov və meyitlərin dəyişdirilməsi ilə bağlı təklif göndərmişdi. Maraqlısı həm də odur ki, girovlarla bağlı (onlardan biri Rusiya vətəndaşıdır) Rusiya prezidenti Putinə və Azərbaycandakı Rusiya səfirliyinə onların doğmalarının göndərdiyi müraciət də indiyədək cavabsız qalıb. Həmçinin, Soçi





görüşü soydaşlarımızın taleyinə hər hansı aydınlıq gətirməyib. Görəsən niyə?

Müşahidələr göstərir ki, Rusiya tərəfi də məsələdə tezliklə hansısa irəliləyin və anlaşmanın olmasında maraqlı deyil. Əslində məntiqlidir. Çünki hazırda Bakı ilə İrəvan arasında gərginliyi yüksək həddə qalması və davamlı olması ən çox Moskvaya sərf edir. Çünki o halda Kremlin situasiyanı manipulyasiya eləmək imkanları artır. Paralel olaraq Qərbin - ABŞ və Fransanın tezliklə Azərbaycan və Ermənistan prezidentləri arasında növbəti görüşü təşkil eləmək təşəbbüsü fiasko təhlükəsi ilə üzləşir ki, bu da yenə Rusiyanın maraqlarına cavab verir.

İlham Əliyevlə Serj Sərkisyanın növbəti görüşü isə sentyabra planlaşdırılır. Qərbə bu görüşün baş tutması iki aspektdən vacib görünür: 1. Soçi görüşündən sonra Qarabağ məsələsində əsas vasitəçi dövlətin Rusiya olmadığını bir daha nümayiş etdirmək; 2. Əliyevlə Sərkistanın birbaşa təmasına nail olmaqla müharibə və Rusiyanın təxribat ehtimalını minimuma endirmək.

Sentyabr ayında həmçinin, NATO-un Ulrels sammiti gözlənilir və toplantı böyük ehtimalla Rusiya əleyhinə müəyyən qərarların qəbul edilməsi ilə əlamətdar olacaq. Məhz bu ərəfədə Kremlin "əzələ nümayişi"nə ehtiyacı yarana bilər. "Əzələ nümayişi" iki istiqamətli ola bilər: prezidentlərin görüşünü pozmaqla və ən qorxulusu, Dağlıq Qarabağ münaqişəsi zonasında vəziyyəti dramatikləşdirməklə, təxribatlar və idarə olunan situasiya yaratmaqla.

Təbii ki, bundan ötrü ideal vasitə "əl quzusu" olan ermənilərdən növbəti dəfə istifadə eləməkdir. Ötən saylarımızdan birində yazdığımız kimi təxribat böyük miqyaslı da ola bilər. Bu asılı olacaq Rusiyanın, konkret olaraq prezident Vladimir Putinin Ukrayna böhranından hansı statusla çıxmasından, öz sifətini saxlayıb-saxlamamasından.

Ukraynadakı proseslər isə öz yekununa doğru irəliləyir. Bu yekun Kreml başçısının ovqatını o dərəcədə korlaya bilər ki, o, Rusiyanı Minsk Qrupu həmsədrliyindən birtərəfli qaydada çıxara da bilər. Zatən, bunun anonsunu Putin Soçi görüşündə verib - Moskvanın təkbaşına vasitəçilik haqqının hamıdan çox olduğuna aydın işarə vurmaqla...

Beləcə, Rusiya Qarabağ məsələsində sırf öz maraqlarından doğan oyununu davam etdirir. Əfsus ki, ona bu oyunda ən böyük dəstəyi həmişəki kimi, məhz Ermənistan verir. Ən betəri, verməyə bilməz də. Deməli, Qarabağ ixtilafının dinc yolla həlli üçün ən birinci Rusiya amili zərərsizləşdirilməlidir.

# "Ermənistanı Gömrük İttifaqında hamı sevmir"

## **Serj Sərkisyan:** "Kimin haqlı olduğunu zaman göstərəcək..."



**"Ermənistanın üzvlüyünə Gömrük İttifaqında hamı sevinmir". Musavat.com-un erməni KİV-ə istinadən verdiyi məlumata görə, bunu Ermənistan prezidenti Serj Sərkisyan jurnalistlərlə söhbətində deyib.**

"Təbii ki, Gömrük İttifaqı bir ölkə deyil və mən hamının sevinməməsi fikri ilə razıyam. Biz öz problemləri olan balaca ölkəyik. Əlbəttə, hansısa ittifaqa qoşulmağımız bu ittifaqın üzvləri üçün müəyyən problemlər yaradır", - Ermənistan lideri əlavə edib.

Bununla belə, Serj Sərkisyan Ermənistanın Gömrük İttifaqında üzvlərin hamısının görmək istəməməsi ilə bağlı fikirlərlə razılaşmadığını bildirib: "Əgər istəməsəydilər, bu məsələyə, sadəcə, veto qoyardılar və prosesin heç bir davamı da gəlməzdi".

Sərkisyanın sözlərinə görə, Gömrük İttifaqına üzvlük normal templərlə davam edir. O, Ermənistana Gömrük İttifaqına qoşulmaq üçün təzyiqləri olması barədə iddiaları da təkzib edib. Düşmən ölkənin başçısı o qənaətdədir ki, quruma üzvlükdən sonra Ermənistanda çox şey dəyişəcək: "Təbii ki, cəmiyyətdə bu perspektivlə bağlı fərqli fikirlər olacaq. Bu da normaldır. Mənim bu ideyanı nə sərt tənqid edənlərlə, nə də qızğın müdafiə edənlərlə heç bir problemim yoxdur. Kimin haqlı olduğunu zaman göstərəcək". Lakin Sərkisyan Ermənistanda konkret hansı dəyişikliklərin olacağı haqda heç nə söyləməyib.

Yada salaq ki, Sərkisyan Ermənistanın Avrasiya İqtisadi Birliyinə qoşulması üçün iyunun 15-dək müqaviləni imzalamağı təklif eləmişdi. Öz növbəsində Qazaxıstan prezidenti Nursultan Nazarbayev mayın 29-da, qurumun təsis toplantısında bir növ Azərbaycanın lobbiçiliyini edərək, Ermənistana BMT tərəfindən tanınmış sərhədlərlə təşkilata üzv olmağı mümkün saymışdı.

Bunun ardınca Serj Sərkisyan bütün şübhələrə son qoyaraq, Avrasiya Birliyinə Dağlıq Qarabağsız girəcəklərini bəyan eləmişdi. "Kim deyib ki, biz Avrasiya İttifaqına Dağlıq Qarabağla girəcəyik? Belə bir şey səslənməyib", - deyə Ermənistan prezidenti məyusluqla qeyd eləmişdi.

Lakin maraqlıdır ki, bundan sonra da Ermənistanın Avrasiya və Gömrük ittifaqlarına üzvlüyü tezləşməyib. Bir sıra təhlilçilərə görə, əsas səbəb Moskvanın bu məsələdə Bakı ilə hələ də anlaşa bilməməsidir.

YENİ MÜSAVAT
N 212 (5921) 25 avqust 2014

**Fişer hər yeni gedişində çox uzaqda o İlahi yaradanın nəfəsini duyurdu. İçində o varlıqdan doymadığını hiss edirdi. Amma öz içindən çıxan kimi bu dünyanın hər şeyi onu aldadır, incidir, ona zülm edirdi. Fişerin əzabı Həzrəti İsanın əzabına bənzəyirdi. Fitritindən uzaq düşmüş insan Allahından da uzaq düşürdü. Fişer məntiqi olanla məntiqi olmayanı, əslində o, rasionalla irrasionalı birləşdirirdi.**



Kamil Vəli NƏRİMANOĞLU

# 64 xanə və mat-məəttəl qalmadan bitən yaş - 64

## 68 (64+4) yaşıma

*(Əvvəli ötən sayda)*

Ancaq rasional (gediş, kombinasiya) olan hesablanıb, yəni əslində rasional sıraya girib. Əlbəttə bu, maddənin yox olması deyil, maddənin başqa ölçülərdə zühur etməsidir. XX əsr mütləq olanı nisbiləşdirdi. Eynşteynin nisbilik nəzəriyyəsi, Borlerin prinsipi, Herenburq tamamlama prinsipi, qeyri-müəyyən plan və nəzəriyyəsi mikroaləmlə və makroaləmlə yeni baxış sistemi formalaşdırıb.

Bu elm və sənət kontekstində Fişer fenomeninin gizlinləri açılır. Mən "Fişerlə yeni şahmat başlayır" deyənə haqq qazandırıram.

Əlbəttə, bu yeniliyi duymaq köhnədən yeniyə uzanan körpüdür (xüsusilə, Alyoxin və Kapablankanın).

Fikir və düşüncə həyatı yenilik və arayışlar, yeni hüdudlar ilk növbədə bu körpülərə minnətdardır.

...Söhbət ədəbiyyat və sənətdən, yaxud elmdən, idmandan deyil, insanın mücərrədləşmə qabiliyyətindən və dühasından gedir. Burada mən mücərrədəm (yəni ayrılmışam, ayrıcayam) deyən Füzulini, xəyalınən görüşdüyüm dostlarım riyaziyyatçı Rauf Hüseynova, Siyavuş Dadaşova, ədəbiyyatçı Nəsib Göyüşova, yeni riyaziyyatçı İsmixan Yusifova salamlarımı göndərirəm. Mərhum Xudu Məmmədovu, Aydın Məmmədovu rəhmətlə anıram və çağırışdan (assosiasiya) Fişerə dönürəm.

Sıradan adamlar və ya boz adamlar alışmadıqları, fərqliliyə görə ürəklərinin bir yerində nifrət etdikləri dahiyə dəli deməklə özlərini sakitləşdirirlər. Guya Dostayevskinin və ya Qoqolun, Salvador Dalinin və ya Van Qoqun, Selincerin və ya Stavriadinin, yaxud ingilis fiziki Nikolay Tesla və ya 1 milyon dollarlıq mükafatdan imtina edən təqaüdlə keçinən Puankare fərziyyəsini isbat edən Q.Peremin olması milyonların ağıllı özünütəsdiqidir.

İnsan özünü aldadanda təskinlik tapır və guya rahatlayır. Amma əslində sıradan insanlar bu hökmü verməklə öz sıradanlıqlarına imza atmış olurlar.

Fişerin söylədiyi bir söz mənim üçün çox şeyin açarıdır. "Bütün oyun boyu elə bir vəziyyət yaradıram ki, (temp, fiqurların sayı, mövqeyi) rəqib elə bilir ki, oyun bərabər səviyyədədir və hər zaman heç-heçə ola bilər. Oyunun sonuna gələndə qələbə üçün rəqibin yarımgedişi çatışmır. O, yarım gediş gecikir və mütləq uduzur. Bu, illüziya deyil, dəqiq və gərgin hesablamadır.

Fişer şahmat riyaziyyatının dahisi olduğu üçün risk onun üçün həlledici amil deyil.

Tutalım ki, Fişer dəlidir. Onun dəliliyi daxil olduğu şahmat statistikasının, durğunluğunu, alışılmışlığını dəyişə bilirsə, inqilab və ya islahat keyfiyyəti, dəyəri daşıyırsa o dəli min-min ağıllıdan qiymətlidir.

Düha adlandırılan insanlar peyğəmbər olmasa da, peyğəmbərlər kimi əzaba qatlaşırlar, görünməmiş acılar çəkir və daşıdıqları missiyanı yerinə yetirirlər. Bu yalnız onların olduqları elm, sənət, idman sahəsini deyil, əxlaqı, baxış bucağını, metodu, metodologiyanı dəyişməklə bir inqilabı, islahatı gerçəkləşdirmiş olurlar.

Bu mənada Fişer özünün fövqəladə qabiliyyəti ilə şahmat əxlaqını, şahmat fəlsəfəsini, oyun texnologiyasını, oyunun elmi məntiqini və sənət sayıla biləcək unikallığını anlaya bilməsidir.

Fişerə yağdırılan təhqirləri, üzdəniraq təyinləri toplasaq ortaya uzun bir siyahı çıxar, lovğa, dəli, gic, acgöz, pulgir, hiyləgər, şöhrət düşkünü, şizofrenik, əxlaqsız, soysuz və nə bilim, nələr, nələr...

Hələ o zaman indi idmanda (xüsusi ilə futbolda) şikə deyimi fırıldağı, yarış zamanı hesabda bir-biri ilə anlaşmaq tətbiq edilən sovet şahmatçılarına qarşı ilk müharibə açan və o şahmat hegemoniyasını sovetlərin əlindən alan Fişer olmuşdur.

Bəlkə də Fişer o sistemin çökdüyünü şahmat vasitəsi ilə insanlığa müjdələmişdir.

Şahmatın ideologiyadan xilas olması layiqli sovet şahmatçılarının da xilası idi (onlar az deyildi, M.Tal, B.Spasski ləyaqətli şahmatçılardandır).

Xisləti ilə Fişer uşaq qədər sadə, hətta sadəlövh idi. Bu təmiz adamın əynindəki kostyumlardan başqa var-dövləti yox idi. Onun yeganə sərvəti şahmat idi. Həmişə cibində gəzdirdiyi mini şahmat onu dəbdəbəli ziyafətlərdən, şoulardan, şöhrət ehtişamlarından qoruyurdu. O, şahmatda, əslində həyatda daha düzgün gediş və mürəkkəb situasiyaları çözmüş, sadələşdirməkdən, ağla gəlməyəni gerçəkləşdirməkdən başqa idealı yox idi. Zəka sürətli və hesablama qabiliyyəti, ən irrealı real, ən realı irreal edə bilmək qabiliyyəti, riski ən incəliklə hesablaya bilmək fitrəti Fişer fenomenini şərtləndirən əsas amillərdəndir desək səhv etmərik.




Oynadığı 500-dən artıq oyun və şahmat klassikası olan və "Mənim 60 oyunum" kitabı şahmat klassikasının modern inciləridir.

"Mənimlə oynayan rəqib oyun boyu məndən üstün olduğunu hiss etməlidir və son addımda cəmi yarım gediş gecikməlidir" deyən Fişer yalnız şahmat düşüncəsini deyil, insanların düşüncə dərinliyini dəyişmişdir.

Bu dahi uşağın şıltaqlıq kimi görünən hərəkətləri sadəlövh və qəribə görünən addımları (Reykyavikə Amerikadan öz kreslosunu gətirtməsi, şahmat seanslarının çəkilməsinə izin verməməsi) ideal tələbləri şahmatı, əslində insanın haqqını qorumaq, o haqqı təsdiq etmək ehtirasından başqa bir şey deyildir.

...Mən Fişerin dünyanı sarsıdan yürüşü zamanı Azərbaycanın bir əyalətində, orta məktəbdə oxuyurdum. Müəllimlərimi, tanıdığım yaşıdlarımı, Fişerin oyunlarını və yarışlarını səbirsizliklə izləyən insanları yaxşı xatırlayıram. Fişer sanki bu əyalətə yaşama ümidi, çox uzaqlarda olan işığı gətirmişdi. Həyatı maraqlı olmuşdu, yaşamaq və gələcək haqqında düşünməyə bir qapı açılmışdır. O zamanlar Fişeri təbliğ, "reklam" etdiyi üçün "Azərbaycan Bədən Tərbiyəçisi" qəzetinə töhmət verilmişdi.

O zamanlar Sovet mətbuatının bir nömrəli düşməni Amerika düşməni örnəyi Fişer olmuşdu.

Dünya çempionluğu uğrunda ağır və qeyri-adi yarışda B.Spaskinin "Mənim strategiyam" kitabında açıq şəkildə yazdığı kimi "mən alt şüurumda Fişerin udmağını istəyirdim" deməsi mücadilədən yayınmaq anlamında deyil, çox dərin və incə bir həqiqəti ifadə etmək mənasında anlaşılmalıdır.

Fişerin simpatiya ilə yanaşdığı iki şahmat ustasının adlarını qeyd etməmək olmaz: B.Spasski və M.Tal.

Hər cür mücadilə modeli kimi şahmat da insana ədaləti, haqqı, adilik içindəki qeyri-adiliyi, insanın yarada biləcəyi möcüzəni yaşatmalıdır. Bu möcüzə, yaradıcılıq, eşq yoxdursa insan peyin, zıl maşınından başqa bir şey deyil...

Fişerin öz oyunlarını oxuduqca nədənsə mən Xudu müəllimi və riyaziyyatçı Rauf Hüseynovu xatırlayıram.

Son 20 ildə dünyaya çıxan iki-üç alimimiz var ki, biri Xudu Məmmədovdur, o birisi Rauf Hüseynov adlı çoxlarının tanımadığı riyaziyyatçı-alimdir. Göyçaylı Rauf Hüseynovdan özü də Fişerdən danışdığım yazıda o adların üstündən keçsəm Allah bunu mənə bağışlamaz.

Rauf müəllim (ona müəllim deməmək əslə mümkün deyil və vicdansızlıqdır) məndən yaşca böyükdür. Təxminən Fişer yaşdadır. Çox ağır şəkər xəstəsidir. Bilənlər bilir, bilməyənlərə deməyi özümə borc bilirəm ki, yalnız dünyada mühüm seçmə düzləndirmə əmsallara (xüsusilə elmi istinada əsaslanmayan) görə deyil, ümumi intellektual səviyyəsinin tutumuna müdriklik, bilgəlik əmsalına, bir sözlə, zəka gücünün genişliyinə görə bütün dünyaya çıxara biləcəyimiz, fəxr edə biləcəyimiz nadir adamlardır.

Kiminsə gözəl bir sözü var, bu dünyada hamı mənə tanış gəlir. Amma bu xarabada heç kimi tanıya bilmirəm.

Nə isə yenə Fişerə qayıdaq. Fişer təzahüründə yayılmış bu qədər ayıq, dəqiq zəka adamının bu qədər yuxulu xəyal olması dünyanın bilinməzlərindən biridir. Görünür ən ayıq adam ən yuxulu adamdır. Qismətini dananlardan olan Fişer öz gen-qan tərkibinə görə deyil, aldığı missiyaya görə seçilmişlərdəndir. Allah-Təala hər yüz ildən min bir müstəsnalar yaradır.



Bir də ki Fişer şahmat haqqında yazmaq deyil, dünya, Allah, insan haqqında düşünməkdir. Və söhbət bir idman növündən, idmançıdan deyil, dünyanı adilikdən qurtaranlardan gedir.

İnsanın özündən ağır, çox ağır yüngül və çox yüngül olmasını şərtləndirən amillər bu bərabərsizliyin təməlində dayanır.

Rəhmətlik müəllimim Muxtar Hüseynzadə deyərdi ki, bu Universitetdə şahmatla əlaqədar adamlar iki yerə ayrılır: şahmatistlər və baxmatistlər. Mən elə əvvəldən baxmatistlər qrupunda idim, indi də elə qalıram. Kosmosu öyrənmək üçün kosmonavt olmağa ehtiyac yoxdur.

..."Ağır bir son yaşamaq sonacan ağrı ilə yaşamaqdan yaxşıdır" - hansı bir yazıçınınsa sözüdür, ya da hansısa filmdən yadımda qalmış cümlədir. Bəli, Fişer ağır, çox acı bir son seçdi - şahmatdan uzaqlaşdı. Onsuz da yalqız idi, şahmatdan sonra yaşamaq onun üçün mənasını tamamilə itirdi. Yaşamağın və ya yaşamamağın Fişer üçün fərqi qalmadı. Ölümün ona doğru gəlməyinə imkan vermədi, özü ölümün ağuşuna getdi.

...Mən inanıram ki, 5-10 adamın müşayiət etdiyi tabutda da, buz kimi soyuq məzarda da onun ya ovcunda, ya da yanında bir cib şahmatı olub. Bu cib şahmatını tabuta, sonra da məzara qoymaq kiminsə ağlına gəlmişdi. Onu şahmatdan ayırmaq istəməyən kimsə Fişerə son yaxşılığını etmişdir.

...Dahilik xisləti olan yaradıcıların peyğəmbərlərə xas olan, yəni İlahi olan özəllikləri var. Onlar hər cür dərdi, məşəqqəti, ağrını, acını yaradıcılıq enerjisinə çevirə bilirlər və ya hər cür dərd o adamlarda yaradıcılıq təşnəliyinə çevrilir. Fişer də iztirab çəkdikcə, yalqızlıq içində əridikcə onun dünyası daha çox aydınlanırdı. Rusların daha dəqiq ifadə etdiyi - ozareniye, yəni aydınlanmasını sözə çevirmək, açıqlığa qovuşdurmaq çox çətindir. Dünyada elə şeylər var ki, onlar yazılmır və ya yazıla bilmir.

...İnsanların ən çox sevdiyi şey özünü aldatmaqdır. Fişer nə özünü, nə də bir kimsəni aldatmadı. Gəldi, oynadı, getdi...

Görüşəcəyik. Allah amanında...

**P.S.** *Yazının bütöv versiyası ilə musavat.com saytında tanış ola bilərsiniz.*

**Saytların birində, İŞİD haqqında vərdiş etdiyimiz, qanlı xəbərlərdən birini oxuyurdum, altda şərhlər diqqətimi çəkdi. İŞİD-i lənətləyən istifadəçilərdən başqa, orda İŞİD-i müdafiə edənləri də gördüm. Ürəyi İŞİD-lə olanlardan biri, belə bir şərh yazmışdı: "Necə ki, siz rafizilər (vəhhabilərin şiələrə qoyduğu aşağılayıcı ad - Ə.Ə.) bizi səfəvilər zamanı kəsib doğramısınız, biz də sizin kökünüzü belə qurutmağa and içmişik. Rafizilərə ölüm!"**

**"Sadəcə, ABŞ-ın dərin dövləti buna saqqal taxıb, başına çalma qoyub, arada video kamera qarşısında danışdırır və lazımi montaj işlərindən sonra videoları dünyaya yayır. Partlayışların da hamısını, əlbəttə, dərin dövlətin özü edir"**

# İŞİD-i Hollywood düzəldib?

Əli Əkbərdən sensasiyalı yazı



Yəni bir azərbaycanlı Azərbaycan dilində belə bir şərh yazır. Maraqlıdır, onun özü kimdir, hardan çıxıb, necə olub ki, qafası-beyni belə kalka fikirlərlə dolub? Açıq-aydın görünür ki, bu fikirlər "copy-paste" üsulu ilə soxulub beyninə. Səudiyyədə kəsib, Azərbaycanda yapışdırıblar.

Səudiyyəni anladıq, bəs bunlara nə düşüb ki, bir torpaqda yaşadıqları, bir ölkəni paylaşdıqları insanlara, özü də ölkənin əksəriyyətinin, folklor səviyyəsində olsa belə, inandığı məzhəbin mənsublarına belə kin qusurlar? Hansı dini dözümlülükdən danışmaq, bunlara qarşı necə tolerant olmaq olar ki, adamlar açıq mətnlə, ölkənin 60-70 faizini "rafizi"dir deyə qətlə yetirməyə hazırdırlar? Bir vəhhabi, sələfi, nə bilim xəvaric, təkfirçi (heç bir fərqi yoxdur) boynuna alsa da, almasa da, Azərbaycan əhalisinin yarıdan çoxunun qanını halal hesab edir. Faciədir.

Yoxsa bunlar ciddi-ciddi, tam səmimi olaraq əsrlər əvvəl yaşanmış hadisələrin intiqamını almaq istəyirlər? Kimdən? Yüz illərdir, nəsildən-nəslə genetik nifrətmi ötürülür? Şah İsmayıl nə vaxtsa, nəsə edib deyə yüz, min, bəlkə də on min azərbaycanlı İŞİD-ə qoşulub İraq çöllərində baş kəsməyə, ya da heç olmasa internetdə oturub onları dəstəkləməyəmi hazırdır? İnsan doğrudanmı öz nifrətində bu qədər səmimi ola bilər? Mənim dindar, hətta qatı dindar zamanlarım da olub, amma mən heç vaxt, heç kəsi kəsməyi, öldürməyi arzulamamışam. Mənim indi də inanclı dostlarım var və onların da adam öldürmək kimi arzuları yoxdur. Ümumiyyətlə inana bilmərəm ki, təhsilli, kitab bilən, qəzet tanıyan, normal tərbiyə alan adam, kiminsə başını kəsmək istəsin. Dində radikalizm, ekstremizm yolunu tutsun. Sadəcə, inanmıram. Savadlı, təhsilli, zəngin dünyagörüşlü bir adam radikaldırsa, deməli bir marağı var. Mütləq marağı var və artistlik edir, rol oynayır. Qalanları isə qurbanlardır - "cənnət və huri" müqabilində ət maşınından keçirilməyə hazır qurbanlar.

Bizdə belə bir yanılğı var ki, vəhhabilərin sıralarında xeyli sayda savadlı, rusdilli, şəhər adamı var. Hey gidi dünya, "rusdilli şəhər adamı" avtomatik, sorğu-sualsız "oxumuş, təhsilli, intellektual" kimi tərcümə olunur deyə, camaat da elə bilir vəhhabilərin sıralarında xeyli sayda ağıllı adam var. Heç ağıllı adam da vəhhabi olarmı? Nə olsun ki, rusca düşünür və danışır? Baş boş olandan sonra istəyir yaponca danışsın. Ağlı başında adam marionetka olmağa razılıq verərmi? Səudiyyə Ərəbistanı, Küveyt və Qatardan maliyyələşən bir təlim; qızılın, kokainin içində üzən, 50 min arvadlıq hərəmxanalar saxlayan ərəb şeyxlərinin pulu ilə varlığını davam etdirən bir cərəyan ağıllı, savadlı insanlar üçün iman mənbəyi ola bilərmi? Mümkün deyil. İstəyir "Hərb və Sülh"ü əzbər bilib, Mane ilə Moneni fərqləndirsin, hətta impressionistlərdən məruzə desin - mən yenə də onun zəkasını, səviyyəsini şübhə altına alacam və bu işin içində bir maraq axtaracam.

**"Heç ağıllı adam da vəhhabi olarmı; nə olsun ki, rusca düşünür və danışır?"**

Sual edilir, özü də çox sadə sual - Cənubi Qafqazda yerləşən; İran, Rusiya, Türkiyə, Gürcüstan və Ermənistanla əhatə olunmuş bir ölkənin vətəndaşı, Ərəbistan yarımadasında yaradılmış, dinidən çox siyasi bir cərəyan olan vəhhabiliyə necə, nə adla gedib qoşula bilər? Yaxşı, nurçunu bildik - qardaş ölkədən gəliblər, sənin dilini danışırlar, kostyum, qalstuk, nazik bığ, təbəssüm-filan. Şiəliyi də bildik, zatən ənənəsi var, mədəniyyətin tərkib hissəsidir - "Ya Hüseyn!", Aşura, şəbeh, Həzrət Abbasın kəsilmiş qolu... Bəs bu vəhhabilik nədir? Nə dəxlisiz söhbətdir.

Əgər bu eksperimentdirsə və məqsəd İŞİD vasitəsilə profilaktik-sanitar tədbirlər görüb, dünyanın hər yerindən marionet olmağa razılaşmış debilləri bir yerə toplayıb qırmaqdırsa; ya da kimsə düşünürsə ki, "qoy olsun, Azərbaycandan gedib hamısı orda gəbərsin", bu da çox axmaq fikirdir, çünki adicə təhsillə, mədəniyyətlə marionetlərin sayını xeyli azaltmaq olar. Niyə ölsünlər axı? Qoy adam kimi yaşasınlar və cəmiyyətə fayda versinlər də, olmazmı?

***

Dörd gün öncə, İŞİD guya amerikalı jurnalistin başını kəsdi. Ola bilsin doğrudan da kəsib, hətta yüz faiz kəsib, amma mən yenə də "guya" ara sözünü işlətməliyəm. Baş doğrudan kəsilibsə də, hansısa proqram, layihə, plan üzrə kəsilib. Bu baş kəsilibsə, deməli bu başın kəsilməyi kiməsə lazımdır. Yəni İŞİD-dən başqa və İŞİD-dən çox kiməsə lazımdır.

**"Diqqət edin. Britaniya hökuməti jurnalistin başını kəsən terrorçunun təmiz Britaniya ingiliscəsi ilə danışdığını açıqlayıb. ABŞ isə baş kəsmə aktının, həqiqətən, yaşandığını bildirib. Baş hələ kəsilib qurtarmamış, ABŞ açıqlama verir ki, bu video montaj deyil. Adətən nəyinsə montaj olduğunu açıqlamaq üçün tələsərlər, bunlar isə montaj olmadığını demək üçün tələsdilər, özü də yaman tələsdilər deyə, dananın quyruğu göründü"**

Diqqət edin. Britaniya hökuməti, jurnalistin başını kəsən terrorçunun, təmiz Britaniya ingiliscəsi ilə danışdığını açıqlayıb. ABŞ isə baş kəsmə aktının həqiqətən yaşandığını bildirib. Baş hələ kəsilib qurtarmamış, ABŞ açıqlama verir ki, bu video montaj deyil. Adətən nəyinsə montaj olduğunu açıqlamaq üçün tələsərlər, bunlar isə montaj olmadığını demək üçün tələsdilər, özü də yaman tələsdilər deyə, dananın quyruğu göründü. Hətta terrorçu, rəhmətlik jurnalistin onurğa sümüyünü kəsən yerdə, ABŞ bu videonun montaj olmadığını artıq bəyan etməkdə idi. Bu nə operativlikdir belə? Xeyrola?

Hollivud filmlərinə baxmağın faydaları çoxdur. Mən arada bir dincəlmək üçün uşaqlarla bir yerdə blokbasterlərə baxıram. "Dəmir adam" (Iron Man) filminin üçüncü hissəsi çıxan kimi baxmışdıq. Deməli, dünya zahirən Ben Laden tipli, amma nə üçünsə Mandarin adında bir terrorçunun əlindən zara gəlib. Bu Mandarinin başçılıq etdiyi terror təşkilatı (İŞİD, əl-Qaidə, Boko Haram və s.) hamını avara qoyub, hər yeri partladır, baş kəsir. Mandarin video müraciətlər edir, əli silahlı, saqqallı, başı çalmalı adamlar da arxa fonda nəsə qışqırırlar, silahları kameraya tuşlayırlar. Yəni hamımıza məlum olan görüntülər.

Nə isə, axırda bizim amerikanski qəhrəmanlar bu terrorçunu yaxalayırlar. İraqda yox. Suriyada yox. Əfqanıstanda da yox. Bəs harda? Nə az, nə çox - Mayamidəki villasında! Adam Mayamidə villada yaşayırmış. Amerikanski rembolar villaya girəndə, nə görsələr yaxşıdı? Bizim bu imanlı, mücahid Mandarin çarpayıda iki qadınla qrup sekslə məşğul olur, arada da kokain iyləyir.

Uzun sözün qısası, məlum olur ki, bu Mandarin əslində Mandarin deyilmiş, adi narkomanın, avaranın biri imiş. Sadəcə, ABŞ-ın dərin dövləti buna saqqal taxıb, başına çalma qoyub, arada video kamera qarşısında danışdırır və lazımi montaj işlərindən sonra, videoları dünyaya yayır. Partlayışların da hamısını, əlbəttə, dərin dövlətin özü edir.

Bu film ekranlara çıxanda artıq Bin Laden öldürülmüşdü. Terrorist nömrə bir yox idi. Hardan biləydim ki, üstündən heç yarım il də keçməyəcək və ortaya Bağdadinin liderliyində İŞİD çıxacaq. Buyurun sizə, təzə Mandarin.

Bu filmə baxandan sonra, 2001-ci il istehsalı olan, baş rolda John Travoltanın oynadığı, "Parol: Qılınc balığı" adlı film yadıma düşdü. Film ekranlara 2001-ci ilin iyun ayında çıxmışdı, həmin ilin 11 sentyabrında isə dünyanı lərzəyə gətirən əkiz qüllələrin partladılması aktı baş verdi. Bu hadisə ətrafında konspiroloji gəzişmələrin ucu-bucağı yoxdur və mən onları təkrarlamaq istəmirəm. Heç bu filmi də xatırlamazdım, əgər bu filmdə John Travoltanın qəhrəmanının dilindən bu cümləni eşitməsəydim: "Dövlət naminə, lazım gələrsə, binaları da partladarıq".

Təsadüf? Əlbəttə, ola bilər. Sadəcə nə hikmətdir ki, bu təsadüfdən üç ay sonra, Nyu-Yorkda binalar partladı. Travolta müəllim haqlıdırsa, qurban verilən minlərlə adamla müqayisədə, bir bədbəxt jurnalistin başsız qalması nədir ki? Ona görə dəhşətli başkəsməni "guya" şərtinə bağlamışdım. Yoxsa sinik adam deyiləm.

**"Səudiyyə Ərəbistanı, Küveyt və Qatardan maliyyələşən bir təlim; qızılın, kokainin içində üzən, 50 min arvadlıq hərəmxanalar saxlayan ərəb şeyxlərinin pulu ilə varlığını davam etdirən bir cərəyan ağıllı, savadlı insanlar üçün iman mənbəyi ola bilərmi?"**

# Buzlu su çılğınlığı



Samir SARI

**Nə işdirsə, vaxtaşırı bir çılğınlıq dünyanı başına götürür və biz də guya ki, dünyanın bir parçası olduğumuzdan başımızı başlara qoşuruq.**

Son belə bir haqq-hesab başa buzlu su tökməkdir. Hazırda dünyanın dörd bir tərəfində tanınmış və tanınmamış adamlar başlarına buzlu su tökürlər - kimisi vannadan, kimisi vedrədən, kimisi xüsusi qurğudan, kimisi vertolyotdan. Bəli, bəli, bu işdən ötrü adına hərdən helikopter deyilən uçan aparat kirayələyənlər var. O gün televiziyada göstərirdilər.

Çox xub. Bir halda ki, bu dünya dəbidir, demək, biz qonşudan dala qala bilmərik. Hərçənd qonşularımızın heç də hamısı başına buzlu su tökmür. Gürcü, erməni, rus fikirləşincə, bizimkilər artıq dünya ilə inteqrasiya ediblər. Multukulturalizmizin şiddətindəndir, nədir...

Əslində, bizim regionda "baş" deyəndə ağıla ilk olaraq kəsilmiş başlar gəlir. Razılaşaq ki, baş kəsmək problemi üzərində kəllə sındırmaqdansa, yaxşısı elə başa buzlu su tökməkdir. Bundan daha yaxşısı başa isti su tökmək, vaxtaşırı duş almaqdır. Sosial şəbəkə fəalları eyzən gileylənirlər ki, tər, kir, his-pas iyindən metroda yol getmək olmur.

Amma sanitar-gigiyenik problemlərin bu söhbətə dəxli yoxdur, söhbətin mövzusu dünyanı sarmış çılğınlıqdır.

Bəs bu nədən ötrüdür?

Mətbuatda yazılanlara görə, başa buzlu su tökmək icadını çıxaranlar bu hərəkətlə ALS (Amiotrofik Lateral Skleroz) xəstəliyinə diqqət çəkmək, onunla mübarizəyə daha çox adamın qoşulmasına nail olmaq istəyirlər.

Bundan ötrü başa buzlu su tökmək vacibdirmi? Görünür ki, vacibdir. Çünki başına buzlu su tökən adam bir saniyənin içində öz sinir sistemində milyonlarla motor hüceyrələrini (neyronları) öldürür. Bu, bir növ əzadarlıq kimi bir şeydir. Yəni bizim neyronlarımız da qurban olsun, ALS xəstələrinin dərdinə şərik olaq.

İndi məsələnin başqa bir tərəfi də mövcuddur. Bir var, dünyanın o başında milyarder Billi Qeyts başına buzlu su töksün, bir də var, Sulutəpədə, Xırdalanda yaşayan Bilal və Qeys, yaxud Əhmədlidə yaşayan Bilqeyis. Çox fərqli şeylərdir.

Çünki cənab Qeyts başına buzlu suyu töküb videoya çəkiləndən sonra qurulanacaq və 50 milyardlıq varidatından 100 milyon ayırıb ALS xəstəliyi ilə mübarizə fonduna köçürəcək ki, fond mərəzin profilaktikası, müalicə dərmanlarının icadı üçün xərcləsin.

Amma Bilalın, Qeysin və Bilqeysin Sulutəpədə, Əhmədlidə oturub başlarına buzlu su tökməsinin nəyə xeyri var? Onlar hələ su tapmalıdırlar. Əhmədlidə camaat sovet vaxtından bəri "su, su" deyib dad çəkir, su idarəsində işləyənlərin adını "Yezid", "Şümr" çağırır. Hətta deyilənə görə, su idarəsinin rəisləri dəyişəndə camaat onların əmək fəaliyyətini bu cür qiymətləndirir: "Bundan əvvəlki Yezid insaflıydı, təzə Yezid daha pisdir".

Yəni Əhmədli camaatının, eləcə də susuzluqdan əziyyət çəkən digər yaşayış massivlərinin camaatı durub ALS xəstəliyinə görə başlarına buzlu su töksələr, kənardan pis görünər.

Adları eyzən "soyundu", "hamamda görüntüləndi", "hovuzda yaxalandı" kimi fellərlə çəkilən, son günlərdə başlarına buzlu su əndərən bəzi müğənniləri isə, sizi əmin edirəm, nə xəstəlik maraqlandırır, nə onun müalicəsi. Onlar üçün bu öz bədənlərinin gözəlliyini gözlər önünə sərmək və pullu sponsor (məşuqə saxlayan) tapmaq üçün daha bir fürsətdir.

Helikopterdən başına soyuq su tökdürən adamın hərəkətinə gəlincə, bu, bakılılar demişkən, "risovkalıq"dan başqa bir şey deyil. Adama deyərlər, belə humanistsən və səxavətlisən, helikopterin kirayələnməsinə verdiyin pulu ALS ilə mübarizə üçün xərclə, "Mən belə oğlanam" filminə çəkilmə.

Həkimlər deyirlər ki, ALS bizim camaatın "Allaq göstərməsin" qrafasına saldığı xəstəliklərdəndir və başa buzlu su tökməklə onu sağaltmaq olmaz. Hətta bu, daha təhlükəlidir. Ola bilər ki, başına buzlu su tökən adam şok keçirsin və ölsün.

Ona görə də, prezidentliyə namizədlərdən biri demişkən, əziz mənim hörmətli oxucularım, gəlin dünyanın o başında nəsə bir şey dəb olan kimi küyə getməyək. Necə deyərlər, bizim öz mentalitetimiz var. Hərçənd bilirəm ki, bu tövsiyənin xeyri yoxdur. Sabah Amsterdamda, Göteborqda şalvarçıxarma aksiyası start götürsə, mütləq bizdə də o aksiyaya qoşulmaq istəyənlər olacaq.

YENİ MÜSAVAT
N 212 (5921) 25 avqust 2014



## Savalan dağında tutulanlardan son xəbər

### Onlar ETTELAAT məmurları tərəfindən cismi və ruhi təzyiqlər altında sorğu-suala tutulublar

**Savalan dağının sığınacaq məntəqəsində İranın təhlükəsizlik qüvvələri tərəfindən həbs edilən fəallardan Səccad İbrahimpur sərbəst buraxılıb. GunAzTV-nin xəbərinə görə, Həmid Qüvvəti və Rza Qüvvəti tutulduqdan 3 gün sonra 100 milyon riallıq mülki vəsiqə qarşılığında və İsa Əzizi keçirdiyi aclıq aksiyasının ikinci günündə, yəni tutulduqdan 4 gün sonra azadlığa çıxıb.**

Həbib Nigəhban isə aclıq aksiyasının 4-cü günü, yəni tutulduqdan 1 həftə sonra 100 milyonluq mülki vəsiqə qarşılığında sərbəst buraxılıb. ETTELAAT (İran Kəşfiyyat Nazirliyi) məmurları isə Ərdəbildə Həbib Nigəhbanın evində axtarış aparıb və azərbaycanlı fəala aid kitablar və bir sıra şəxsi əşyanı özləri ilə aparıblar. Rəhim Qulami tutulduğu gündən aclıq aksiyasına başlayıb, lakin astma və böyrək xəstəlikləri səbəbindən və digər fəalların israrı ilə aclıq aksiyasının 4-cü günü aksiyanı dayandırıb. R.Qulami bundan öncə də dəfələrlə tutuqlanıb və həbs olunub.

Cəfər Rüstəmirad Ərdəbil zindanına aparıldıqdan sonra bu şəhərin ETTELAAT şöbəsinin təcridxanasına göndərilib. O, tutulduğu gündən aclıq aksiyasına başlayıb. Azərbaycanlı fəal bu müddətdə yalnız bir dəfə öz ailəsi ilə qısa telefon əlaqəsi saxlamağa nail olub və aclıq aksiyasını davam etdirdiyini bildirib. Fəalın ailəsi isə onun danışıq zamanı halsız olduğu və telefonun gözlənilmədən kəsilməsi səbəbindən, fəalın işgəncələr altında saxlandığını ehtimal edirlər.

Səid Hüseyni iki gün öncə öz ailəsi ilə qısa telefon əlaqəsi saxlayıb və hələ də aclıq aksiyasını davam etdirdiyini və ETTELAAT məmurları tərəfindən cismi və ruhi təzyiqlər altında sorğu-suala tutulduğu bildirib. Məlumata görə, fəalın mobil telefonu yaxalanarkən məmurlar tərəfindən döyüldükləri səbəbindən qırılıb. S.Hüseyni keçən aylarda da Ərdəbilin ETTELAAT şöbəsində saxlanılıb və sonra vəsiqə qarşılığında sərbəst buraxılıb.

Aydın Zakir yaxalanarkən məmurların qanunsuz hərəkətinə etiraz olaraq avtomobilə minməkdən imtina edib. Sonra məmurlar gözyaşardıcı qazdan istifadə edib və ona qarşı zorakılığa başlayıblar, məhz bundan sonra milli-mədəni fəalı avtomobilə mindirmək mümkün olub. Fəal tutulduğu gündən aclıq aksiyasına başlayıb və hələ də davam etdirir. A.Zakir bundan öncə də dəfələrlə tutuqlanıb və müxtəlif təzyiqlərə məruz qalıb.

Aylar öncə onlarla fəalla birlikdə tutuqlanan və vəsiqə qarşılığında sərbəst buraxılan Meysəm Colani də tutulduğu gündən aclıq aksiyasına başlayıb. O, 4 gün sonra aclıq aksiyasını dayandırıb. Həsən Colanin isə bundan öncə saxlandığı söylənilmir. O tutulduğu gündən aclıq aksiyasındadır və öz ailəsi ilə telefon əlaqəsi saxlayarkən ağır vəziyyətdə olduğunu bildirib.

❑ **Cavid TURAN**

## Tünzalə Ağayeva ilə duet oxuyan Sura Əsgərli vəfat edib



**"Qafqazinfo" xəbər verir ki, "Qovuşona"mahnısı ilə tanınan Sura dünən dünyasını dəyişib. Suranın ölüm səbəbi isə məlum deyil. Onun intihar etdiyi güman edilir.**

İfaçının ölümüylə bağlı Tünzalə Ağayeva öz hesabında məlumat verib. "Can Suram, söhbətindən, özündən doymadığım Sura, belimizi qırdın. Getdin Sura... Nakam yaşda getdin balam... Səninlə hələ neçə musiqi oxuyacaqdıq, yazacaqdıq... Ya Rəbbim! Suramın qəbrini nurla doldur, Rəhmət eylə Ya Rəb, saf-məsum balamızın axirətini gözəl eylə, məkanını cənnət eylə! Faciəvi şəkildə dünyasını dəyişən Suranın ailəsinə başsağlığımı bildirirəm. Rəbbim kimsəyə övlad itkisi yaşatmasın! Amin".

## "Paytaxtda Çinin saxta məktəbli formaları satılır"

### Bakı Tikiş Evinin təmsilçisi Etibar Əzimov: "Bu formaların ölkəyə gətirilməsində maraqlı qüvvələr var..."

**Yeni dərs ili yaxınlaşdıqca paytaxtda valideynlərin qayğılarına daha biri - məktəbli forması almaq da əlavə olunur. Artıq üzərində Bakı Tikiş Evi (BTE) yazılan dükanların qarşısında sıxlıqdır. Vaxt daraldıqca dükanlara axışıb geyim seçənlərin sayı da artır. Biz də yolumuzu BTE-dən (keçmiş Volodarski adına fabrik) salıb durumla tanış olmaq istədik.**



Fabrikə gedib istehsal prosesi ilə yaxından tanış olub, müəssisənin rəhbərliyini danışdırdıq. BTE-nin Nəsimi rayonu, Mərdanov qardaşları 113-də yerləşən əsas mağazasında yenə də sıxlıq idi. Mağazanın arxasında yerləşən fabrikdə isə qızğın iş gedirdi. Müəssisənin satış şöbəsinin müdiri Etibar Əzimov deyir ki, dərs ili yaxınlaşdıqca fabrik və mağaza istirahətsiz iş rejiminə keçir. Buradakı bir neçə sexdə 800-dən artıq tikişçi işləyir: "Biz artıq ehtiyac olduğu qədər məktəbli forması tikirik. Hər gün satılan və anbarda qalan mallara baxırıq, hansı ölçü azalıbsa, dərhal biçilməyə verilir. Bu gün hansısa mağazamızda ola bilməz ki, hansısa ölçüdə forma olmasın. Forma artıqlaması ilə var. Hər ölçüyə uyğun 4 ölçüdə tikirik. Uyğun gəlməyənlərə ayrıca olaraq da formalar tikilir. Hazırda 1500 belə sifarişimiz var".



E.Əzimovun sözlərinə görə, məktəbli formaları tikilən parçalar həmişəki kimi Türkiyədən gətirilir: "Biz Türkiyənin "Bossa" firması ilə müqavilə bağlamışıq və keyfiyyətli parça alırıq. İpliklər İngiltərədən, parça isə Türkiyədən alınır. Yeganə müəssisəyik ki, laboratoriyamız var və orada elmi-tədqiqat işçiləri də çalışır. 25 işçi il boyu model hazırlayır. İndiyə qədər bizə heç kim keyfiyyətlə bağlı rəsmi müraciət etməyib, geyimlərin keyfiyyətindən şikayətlənməyib. Amma biz hər dəfə deyirik ki, kimin şikayəti varsa, (012) 597-42-95 nömrəli "Qaynar xətt"imizə müraciət edə bilər. BTE-nin istənilən dükanındakı məhsulların keyfiyyətinə tam zəmanət veririk. Arabir yaranan problemləri baş mühəndis və baş texnoloq yerində həll edir. Parçanı Türkiyədə məşhur fabriklərdən alıb gətiririk. Laboratoriyaya gətirib xassələrini öyrənib sertifikat tələb edirəm".



Satış müdiri qeyd edir ki, onların ən böyük problemləri və narazılıqları bazarlarda satılan saxta formalardandır: "Çində və Bakıda gizli sexlərdə bizim formaların saxtaları satılır. Bakıdakı kiçik sexlər bizə o qədər də problem yaratmır. Çünki onlarda 500, uzağı 600 geyim tikilib satıla bilər. Düzdür, biz onlarla bağlı da rəsmi qurumlara şikayət edib tədbir görülməsini istəyirik. Ancaq xaricdən minlərlə forma kilo halında gətirilib bazara çıxarılanda bu, bizim üçün əhəmiyyətli itki deməkdir. Həmin sexlərdə tikilən və xaricdən gətirilən formalarda bizim adımızdan istifadə edilir. Bunlarla bağlı dəfələrlə Standartlaşdırma Komitəsinə və İqtisadi İnkişaf Nazirliyinə müraciət etmişik. Reydlər də keçirilib, saxta sex də aşkarlanıb. Ancaq nəticə o qədər də dəyişmir".



E.Əzimovun sözlərinə görə, bir həftədir ki, ölkəyə keyfiyyətsiz məktəbli geyimləri gətirilib: "Sədərək və Binədə, həmçinin bazarlarda keyfiyyətsiz və ucuz formalar yenidən satışdadır. Biz aidiyyəti qurumlara, Standartlaşdırma Komitəsinə, İqtisadi İnkişaf Nazirliyinə məktublar hazırlayırıq ki, bunun qarşısı alınsın. Bu, bizim bazarımıza ziyan olduğu kimi, valideynlərin, məktəblilərin də xeyrinə deyil. Buna görə valideynlər gərək ucuz geyimlərə qaçmasınlar. Həmin geyimlər 15-25 manata satılır. Bizim geyimlər isə 40 manatdan başlayır". O, həmçinin qeyd edib ki, ölkədəki saxta geyim tikən sexlərlə bağlı məhkəməyə müraciət etmək fikrindədirlər: "Onların bizim adımızdan istifadə etmələri doğru deyil".

Fabrikin bütün sexlərində isə qızğın iş gedir. E.Əzimovun sözlərinə görə, əhalinin rahatlığı üçün BTE-nin satış məntəqələrinin sayı da artırılıb: "İstəyirik ki, insanlar evlərinə ən yaxın dükandan, uzaq məsafə qət etmədən məktəbli forması ala bilsinlər. Əhalinin mərkəzə gəlməsinə ehtiyac qalmasın. Bizim 20-yə yaxın dükanımız var. Bakının ucqar qəsəbələrində belə dükanlar açmışıq. Həmçinin, "Binə" ticarət mərkəzində dükanımız var. Alıcılar orada satılan keyfiyyətsiz formalarla bizim formaları müqayisə edib seçim edə bilərlər. Ancaq valideynlər buraya, mərkəzi dükana gəlməyə üstünlük verirlər. Çünki o qədər dükanlarda aldadılıblar ki, fikirləşirlər ki, mərkəzi dükanda saxta mal olmayacaq. Onları da qınamaq olmur. Ancaq bizim bütün dükanlarımızda geyimlər keyfiyyətlidir. Sadəcə olaraq, paytaxt dükanları və bazarları keyfiyyətsiz formalarla doludur. Valideynlər belə yerlərdən forma almasınlar. Əks halda, həmin keyfiyyətsiz geyimlər qısa zamanda sıradan çıxacaq. Bu keyfiyyətsiz məhsullar BTE-nin loqosundan istifadə edilib satışa çıxarılır. Onlar bizim brendimizi, loqomuzu oğurlayır. Bununla da imicimizə zərbə vururlar".

E.Əzimov məktəbli formalarının qiyməti barədə də danışıb: "İbtidai siniflər üçün məktəbli formaları 40 manata, yuxarı siniflər üçün isə məktəbli forması 52 manata satılır. Buraya şalvar, yaxud yubka, pencək, köynək və jilet daxildir. Biz qanuni şəkildə, sənədlə, vergi ödəməklə fəaliyyət göstəririk. Onlar isə qaçaqmalçılıq yolu ilə ölkəyə keyfiyyətsiz geyimlər gətirib uşaqların sağlamlığını təhlükə altına qoyurlar. Bizim parçamızın keyfiyyətinə Standartlaşdırma Komitəsi sertifikat verib. Avropa Birliyinin laboratoriyasının da sertifikatı var. Başqaları isə zirzəmilərdə iyrənc, üfunət iyi verən məhsuldan geyim hazırlayır. Biz adımızı qorumağa çalışırıq, işə məsuliyyətli yanaşırıq, aylarla geyimlərin layihəsi üzərində işləyirik. Onlar isə rənglənmiş 1 dollarlıq parçalara emblemimizi vurub pul qazanır. Saxta məktəbli formalarının ölkəyə gətirilməsində maraqlı qüvvələr var. Həmin geyimlərin ölkəyə gətirilməsinin qarşısını almaqda maraqlı olmayan qüvvələr də var. Keyfiyyətsiz geyimlərin ölkəyə gətirilməsi kimlərəsə milyonlar qazandırır, bu səbəbdən onun qarşısını almaq sərf etmir".

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 212 (5921) 25 avqust 2014

**Avqustun 20-də Moskvada naməlum şəxslər Stalin vaxtı inşa edilən çoxmərtəbəli binanın üzərinə Ukrayna bayrağını taxıb. Həmçinin, binanın üzərindəki ulduz da Ukrayna bayrağının rənglərinə boyanıb. Bayraq 3 saat binanın üzərində qalıb. Yalnız bundan sonra onu ordan çıxarmaq mümkün olub. Məlumata görə, naməlum şəxslər binanın içindən yuxarı qalxıblar.**



# Dövrümüzün karlsonları...

## Onları ən yüksək nöqtələrə çıxaran səbəblər nələrdir; rufer və rufinq barədə bilmədiklərimiz...



Moskva polisi hadisəni törətməkdə şübhəli bilinən 4 nəfəri saxlayıb. Onlardan ikisi qadın, ikisi isə kişidir. Əməlləri sübut olunsa, onları 3 ilə qədər həbs cəzası gözəyir.Həbs olunanlar 33 yaşlı Aleksandr Poqrebov, 26 yaşlı Aleksey Şirokojuxov, onun həmyaşıdı Yevgeniya Korotkova və 25 yaşlı Anna Lepeşkinadı. Bu şəxslərin hamısı Moskvada yaşayır və Rusiya vətəndaşıdır. Gənclərin sosial şəbəkədə paylaşdığı şəkillərdən onların paraşüt idmanı ilə məşğul olduğu məlum olur. Polis məhz bu gənclərin binanın üzərinə bayraq sancdığını iddia edir. Lakin saxlanılanlar binanın üzərinə bayraq sancmadıqlarını, ordan paraşütlə tullandıqlarını deyiblər.

**Biri körpüyə çıxır, o biri dama - səbəblər fərqli olsa da...**

Yəqin ki, bu xəbəri xatırladınız. Əslində bu işlə məşğul olanların, konkret olaraq isə bu peşənin adı var - ruferlər. Son aylar "Koroğlu" metro stansiyası yaxınlığındakı asma körpüyə çıxıb intihar edənlərin fonunda bu məslək də aktuallıq qazanıb. Doğrudur, müqayisə bir qədər qüsurludur. Belə ki, biri intihar üçün çıxır, o biri adrenalin əldə etmək üçün. Amma bütün hallarda yüksəkliyin fəthindən gedir söhbət...

Müasir dünya rufinqi (ingilis dilində roof-dam) səyahətlərin ekstremal növü sayılır. Bunun məğzi isə şəhər yüksəkliklərində, damların üstündə gəzməkdən ibarətdir. Amma anlamaq lazımdır ki, rufinqi təkcə damlarda gəzmək adlandıranlar yanılır. Bu həm də gözəl və özəl mənzərələrin axtarışıdır. Yaxşı, bəs insanları hündürlüyə cəlb edən səbəblər nədir? Hər şeydən əvvəl damlar təbii ki, hündürlük deməkdir, ora çıxan insanlara çoxlu sayda müsbət emosiyalar, adrenalin partlayışı bəxş edir. Bu arada nəzərə almalıyıq ki, dama çıxmaq heç də qanuni sayılmır. Bundan başqa, damlar görməyə alışdığımız dünyaya başqa bir rakursdan tamaşa etməyə imkan verir.

**Rufinqin də "ağıllı-dəli"si var**

Maraqlıdır ki, artıq rufinqin də növləri var. Ekstremal rufinq yanğınsöndürmə pilləkənlərindən, borulardan binanın başına qalxmağı özündə ehatə edir. Amma bununla yekunlaşmır. Rufer bir damdan digərinə hoppanmalıdır. Təbii ki, hərə öz zövqünə uyğun olaraq damda ekstremal əyləncələr tapa bilər.

Sakit rufinq - dama çıxmaq üçün standart üsullardan istifadə edilir. Pilləkən, çardaq... Bu da təbii ki, ekstrimin dozasını azaldır.

Art-rufinq - ruferlər arasında yaradıcı insanlar da var. Daha çox isə rəssamlar, şairlər, yazıçılar. Onlar şəhəri ən yuxarı nöqtədən təsvir etməyə, ən yuxarı nöqtədə ilham pərisi ilə görüşməyə üstünük verir. Bundan başqa, romantikləri də yaddan çıxarmaq olmaz. Hündür binaların başında piknik təşkil etmək arzusunda olanlar azdır bəyəm?

Elə bilirsiz binaların damında görəcək iş yoxdur? Poetik gecələr, işgüzar sövdələşmə, müxtəlif növ yarışlar, evlənmə təklifi... Ağlınıza nə gəlirsə, mümkündür. Əsas odur ki, yüksəklik qorxusu olmasın.

**Damın səthi hamar olmalıdır, yoxsa...**

Ruferlərin məsləhətləri də az maraqlı deyil. Onlar hesab edir ki, bu işlə məşğul olmaq istəyənlərin fiziki və maddi hazırlığı olmalıdır. Birinci barədə xüsusi danışmağa ehtiyac yoxdur. Çünki idmanla məşğul olmayan, fiziki baxımdan bu idman növü üçün natamam olan şəxsləri yüksəklik sadəcə "uda" bilər. Maddi baza isə onun rufer kimi yetişməsində gərəklidir. Ruferlərlə tanışlıq, spesifik biliklərə sahib olma da bu işlə məşğul olmaq istəyənlər üçün vacib şərtdir.

Yaxşı, bəs rufer öz marşrutunu necə seçir? Ümumi rəyə görə, ruferlər başına çıxmaq üçün ən hündür binanı seçərkən, damın səthinə də diqqət yetirir. Vacib olan məqam o damın səthinin hamar olmasıdır. Heç də hər zaman damın forması aşağıdan dəqiqliklə görünmür. Ona görə də internetə girib ruferlərin şəxsi bloqlarını, gündəliklərini təqib etmək lazımdır. Onlar hər yüksəklik fəthindən sonra bu barədə ətraflı məlumat verir. Seçilmiş yer maksimum təhlükəsiz olmalıdır.

**Onların 8 qızıl qaydası var**

Əksər ruferlər qəbul olunmuş qaydalar əsasında hərəkət edirlər. Bu, onların təhlükəsiz səyahət etməsinə, eləcə də başına çıxdığı binanın sakinlərinin sakitliyinə yardımçı olur. Bu qaydalar təxminən aşağıdakı kimidir:

1. "Səyahət" üçün təşkil edilən qrupun tərkibi çox böyük olmamalıdır - optimal variant olaraq 4 nəfər. Say məhdudiyyəti onunla bağlıdır ki, çoxlu insanın sakinləri narahat etmədən binanın başında səyahət etməsi qeyri-mümkün görünür.

2. Belə səfərləri bunun üçün uyğun geyimdə etmək lazımdı - rahat, geyinəni utandırmayacaq, diqqət çəkməyəcək rəngdə.

3. Tam təhlükəsizlik üçün rufer səyahətə çıxmadan əvvəl sərxoş olmamalı, hər hansı narkotik vasitədən istifadə etməməlidir. Neyçün ki, yüksəklik özü-özlüyündə insanı sərxoş edir.

4. Hündürlüyə çıxan şəxs ancaq və ancaq özünə arxayın olmalıdır. Dostlarından, naməlum karniz və borulardan dəstək axtarmamalıdır. Hoppanmamaq, qəfil hərəkətlər etməmək, aşağı baxmamaq - bunlar da vacib şərtlər sayılır.

5. Təhlükəsizlik məqsədilə səyahəti yağışdan əvvəl və sonra etmək məsləhət görülmür. Çünki bu zaman dam örtüyü sürüşkən olur.

6. Özünə və dostlarına hörmət edən rufer yüksəkliyə gedən yolda özünə rahat olsun deyə deşiklər, ayaq yeri yaratmamalıdır. Çünki gerçək rufer sakinləri narahat etməməlidir.

7. Rufer sakinlərə hörmət əlaməti olaraq səyahəti zamanı heç vaxt səs-küy salmamalı, xuliqanlıq, sərxoşluq etməməli, özündən sonra zibil qoymamalıdır. Çünki səs-küyü eşidən sakinlər onlardan polislərə şikayət edə bilərlər. Bu isə nə ruferlərə, nə də sakinlərə lazımdır.

8. Rufer heç vaxt öz sevimli damının ünvanını başqasına deməz. Bu, məslək sirrinin yayılması sayıla bilər.

**Ən yadda qalan rekordlar...**

Məşhur rusiyalı ruferlər Vadim Maxorov və Vitali Raskalov Çinin Şanxay şəhərində yeni dünya rekordu vurublar. Onlar "Şanxay qülləsi"nin (Shanghai Tower) damına çıxıblar. Göydələnin yüksəkliyi 650 metrdir. "Şanxay qülləsi" yüksəkliyinə görə Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərindəki "Burj Khalifa"dan sonra dünyada ikinci binadır.

"120 mərtəbəni piyada qalxandan sonra yuxarıda 18 saat yatdıq. Çünki hava çox pis idi və çəkiliş aparmaq mümkün deyildi. Lakin sonradan buludlar aşağıda qaldı, krana dırmaşdıq və çəkilişi apardıq", - V.Raskalov söyləyib.

Şanxay qülləsinin tam yuxarısına kimi məsafə 650 metr təşkil edir. Burada olan güclü təhlükəsizlik tədbirləri və göydələnə icazəsiz girişin demək olar ki, mümkün olmamasına baxmayaraq rusiyalı ruferlər qüllənin tam başına kimi çıxa biliblər. Onların qarşısını hətta bunun müqabilində ola biləcək yüksək cəza belə ala bilməyib. Lakin onlar təkcə pullarını riskə atmayıb. AzVision.az RT-yə istinadən xəbər verir ki, 2 saat ərzində 120 mərtəbəlik qülləyə dırmaşan ruferlər heç bir sığortadan istifadə etməyiblər. Papaqlarına kamera bağlayan gənc ekstremallar möhtəşəm görüntülər də çəkməyi unutmayıblar.

❑ **Sevinc TELMANQIZI**

# +18... Naxçıvan...



**Sevinc TELMANQIZI**
s.qurbanova@gmail.com

**"Şok, şok, şok"... tipli saytların çoxunda rast gəlmədim bu xəbərə. Onlar həmin vaxt azərbaycanlı manısların başlarına buzlu su tökmələrindən yazırdılar. Bir uşaq evində konsert verən kimi onu yüz yerdə danışanların ALS xəstələrinə yardım etmək istəməsi o qədər inandırıcı görünürdü ki. Amma bunu yazmaq daha çox sərf edirdi. Naxçıvanda qanına qəltan edilmiş hüquq müdafiəçisi İlqar Nəsibovun başına gətirilənlərdən heç nə yazmadılar, demədilər. Ölkədə bundan böyük şok baş verməsə də... Ta ki, rəsmi açıqlama gələnə kimi. Ona bir azdan qayıdacağıq.**

Bəli, qanına qəltan edilmiş, hətta ən məharətli rejissorun "boyevik" filmlərində görmədiyimiz həddə döyülmüşdü İlqar Nəsibov. Naxçıvan xanının, əlaltılarının əlindən zəncir çeynədiyi Nəsibovlar ailəsinin başçısı. Həyat yoldaşı, jurnalist Məlahət xanımla danışanda hələ döyülmənin masştabından xəbərimiz yox idi, fotoları görməmişdik. O, sınan qabırğaları, zədələri sadaladıqca mənzərəni təsəvvür etməyə çalışırdıq. Mənzərə isə doğrudan da dəhşətverici idi: bir insanı ölümünə döymək deyirlər buna. Elmar Hüseynovdan üzü bu yana mən belə qanlı mənzərə görməmişdim. İlqar Nəsibovun taleyi bundan sonra necə olacaq, sağlamlığı bərpa olunacaq, ya yox, bilmirəm, amma bu qanlı səhnə heç kimin gözü önündən getməyəcək.

Bu faktla bağlı rəsmi açıqlamanı oxudum. Bildiyimiz Azərbaycan lətifəsi. Dərhal hekayə uydurublar. Guya hüquq müdafiəçisi bir dostu ilə içib, sonra onun ailəsi haqda nalayiq ifadələr işlədib, nəticədə də döyülüb. Təsəvvür edin, illər keçir, dünya qloballaşır, kainat insanı Marsa səyahət edib, ordan daş parçaları gətirir, yadplanetlilər dünyada at oynadır.... Bunlar isə primitivliklərindən əl çəkmirlər ki, çəkmirlər.

Yəqin xatırlayırsız, Qənimət Zahidi guya bir qıza söz atmaq bəhanəsi ilə tutmuşdular. Mirzə Sakitin cibinə nəşə atmışdılar. Aqil Xəlili özləri bıçaqlayıb, bunu bir homoseksualın boynuna qoymuşdular... Xuliqanlıq bəhanəsi ilə tutduqları onlarla siyasi fəala belə teatr qurmayıblarmı? Siyahını uzatmaq olar, amma fakt dəyişmir. Hər zaman müxalifətçini, bunlara əks fikirdə olanları haqsız duruma düşürmək, cəmiyyətə elə təqdim etmək üçün hazır ssenariləri, ştatdankənar aktyor qrupu olur. "Rejissorun" bir "dubl" əmri ilə kino dərhal çəkilir.

Naxçıvan "rəssamları" bu dəfə yağlı boya ilə İlqar Nəsibovun portretini al qana boyadılar. Zatən bu günə qədər oralar qara qanlı görünürdü, bundan sonra quş da ordan uçanda tük salacaq. Zarafat deyil, Naxçıvan bütün məsələlərdə rəsmi Bakıdan bir addım qabaqda olmaq istəyir. Məsələn, Bakıda yas məclislərindəki israfçılıqdan sadəcə şikayətlənirlər. Naxçıvan yaslarında isə ehsan qadağan olunur. Biz burda mağazalara, bir sıra ictimai obyektlərə xarici ad qoyulmasına etiraz edirik, onlar bunu rəsmən qadağan edirlər. İctimai yerlərdə siqaret yasağı, mollaya pul vermə qadağası... Və sonda. Bakıda hüquq müdafiəçilərini həbs edib, üzünə adam qoyurlar. Naxçıvanda isə elə üsuli-idarəyə uyğun olaraq həll edirlər məsələni: ölümünə döy, şərlə... Hələ sağalandan sonra üstünə əlavə cinayət atmasalar yaxşıdır.

"Divar"ımızdakı qanlı tabloların sayı çoxalır. Rəssamların üzü qara olsun.





Tarix

## "Ələddinin sehrli çırağı" Yardımlıda tapıldı

**Azərbaycanın tarixi abidələrlə zəngin, amma nisbətən az tədqiq olunmuş rayonlarından biri də Yardımlıdır. Bu günlərdə qəzetimizin əməkdaşı Elşad Paşasoy doğma rayonunda olarkən təsadüf nəticəsində xalqımızın qədim tarixini əks etdirən tapıntılarla rastlaşıb.**

Əməkdaşımızın dediyinə görə, doğulduğu Bilnə kəndinin sakinlərindən birinin həyətinə döşənmiş çay daşlarının arasındakı yonulmuş daş fiqur onun diqqətini cəlb edib. Həmin daşın torpaqdakı hissəsi yerdən çıxarılanda məlum olub ki, bu, qədim türklərin mədəniyyətini özündə əks etdirən qoç heykəlinin bir hissəsidir. Kənd sakininin sözlərinə görə, bu daşları çaydan yığıb həyətinə döşəyib və yaqin ki, nə vaxtsa sındırılıb məhv edilən bu tarixi eksponatın bir hissəsi də çay daşqınları nəticəsində çay daşlarına qarışıb.

Əməkdaşımız bundan sonra daha bir nadir tapıntını əldə edib. Məlum olub ki, bir müddət öncə kənd ərazisində əkin işləri aparılarkən "Ələddinin sehrli çırağı" kimi tanınan maraqlı bir tarixi eksponat da tapılıb. E.Paşasoy yaxınlarının tapdığı bu eksponatı da Yardımlı rayon tarix diyarşünaslıq muzeyinə təqdim edib. Tapıntıları muzeyə təqdim etdiyinə görə əməkdaşımıza təşəkkür edən muzeyin direktoru Əli İskəndərov bildirib ki, hər iki əşya tarixiliyi baxımından çox qiymətlidir və onlar sənədləşdiriləərək bu ünvanda saxlanacaq. Əli müəllimin dediklərindən: "Ələddinin sehrli çırağı" uzunluğu 20 sm, hündürlüyü 9 sm olan arxeoloji tapıntı, saxsı çıraq lampa, gildən bişirilib hazırlanmış, qulpu sınmış və özü bir neçə yerdən çatlamış vəziyyətdə, komanın və ya daxmanın içərisində işqlanma üçün məişət əşyası, eramızdan əvvəl II-I əsrə aiddir. Küp qəbirlər mədəniyyətini özündə əks etdirir". Ə.İskəndərov deyir ki, tapılan daş parçası daş qoç heykəlinin baş hissəsidir. Əsas gövdədən qoparaq ayrılmış, güman ki, nadanların əməlləri sayəsində nə zamansa sındırılıb. Uzunluğu 25 sm, qalınlığı 11 sm olan arxeoloji tapıntı XV-XVI əsrlərə aiddir. Qəbirüstü abidənin - daş qoç heykəlinin baş hissəsi - əl işidir.

❑ Cavìd TURAN
FOTO: "YM"




## Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< Kiyev Dövlət Texniki Universiteti
< Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.
< Kremençuk Dövlət Universiteti
< Psixologiya. Jurnalistika. Hüquq. Filologiya
< Kiyev Dövlət Dəniz Akademiyası
< Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq
< Tbilisi Dövlət Tibb Universiteti
< Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria
< Minsk Dövlət Universiteti
< Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika
< Qrodno Dövlət Universiteti
< Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik
< Volqoqrad Dövlət Aqrar Universiteti.
< Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A Nərimanov m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

Elan

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**

## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq borularıın keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**





## Komsomol dairəsi - "ölüm zolağı"...

### Nə piyada zolağı, nə işıqfor, nə də hərəkəti nizamlayan hər hansı işarə... sakinlərin həyatı təhlükədədir

**Bakının Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Komsomol dairəsi "yol canavar"larının oylağına çevrilib. Komsomol dairəsində nə piyadaların keçidi üçün zolaq, nə işıqfor, nə də hərəkəti nizamlayan hər hansı işarə var.**

Bu ərazidə yaşayanlar da şikayətlənirlər ki, hərəkət intensiv olduğu üçün hər an piyadaların vurulması təhlükəsi var. Avtomobillər piyadalara yol vermir, iki istiqamətdən fasiləsiz hərəkət var, yol polisi belə yoxdur ki, nizamlayıcı işi görsün.

"Bu yol ölüm saçır. Piyadalarla maşınlar arasında hər gün bir qaçhaqov yaşanır. Bir işıqfor qoysalar, belə olmaz. Uşaq, qoca, heç kəs bu yolu keçə bilmir. Gərək gözləyəsən yol təmizlənə, maşın olmaya, ondan sonra şoseni keçəsən. Camaatın həyatı təhlükədədir " - ərazidə yaşayan sakin Füzuli Abbasov gileylənir.

Onun sözlərinə görə, bu yerdə təcili işıqfor qoyulmalıdır. Əks halda piyadaların vurulması halları kütləvi hal alacaq və statistikaya çevriləcək. Şikayətçi qeyd edir ki, bu ərazidən dəmiryol xətti keçir ki, o da öz növbəsində üçqat təhlükədir. Bütün bunların qarşılığında nə nizamlayıcı hərəkət işarəsi, nə işıqfor qoyulub. Hətta piyada zolağı olsaydı, hardasa nəqliyyatın hərəkətini tənzimləyərdi.

Komsomol dairəsində yaşayan Namiq Həsənov deyir ki, nə marşrut avtobuslarının şoferləri, nə fərdi sürücülər bu yolda ehtiyatlı hərəkət edir: "Piyadalara yol vermirlər, sürət həddini aşırlar, hər saniyə burda ölüm təhlükəsi var. Ən azı bir yol polisi olmalıdır ki, hərəkəti nizamlasın. Uşaqlarımız burdan keçir, yaşlı adamlar yolu keçməyə çətinlik çəkir. İşıqfor isə elə bir yerdə quraşdırılıb ki, bu ərazidə qəza təhlükəsini tənzimləmir".

Sakinlər redaksiyamız vasitəsi ilə aidiyyəti orqanlardan xahiş edirlər ki, əraziyə baxış keçirilsin, tədbir görülsün: "Hər kəsin yaxını, əzizi bu yerdən keçə bilər. Allah eləməmiş başlarına bir iş gəlsə, bunun məsuliyyətini kim daşıyacaq? Elə bilirik ki, bu problemi həll etmək elə çətin iş deyil".

❑ E.SALAMOĞLU

## Kürdəmirdə toy vayla bitdi - 1 ölü...

**Kürdəmir rayonunda qətl törədilib. Rayon Polis Şöbəsindən Lent.az-a verilən məlumata görə, Qarabucaq kəndində 1988-ci il təvəllüdlü Şahbuz Mikayılov həmkəndlisi, 1965-ci il təvəllüdlü Şükür Məmmədovu bıçaqlayaraq qətlə yetirib. Çoxsaylı bıçaq xəsarətləri alan 49 yaşlı Ş.Məmmədov xəstəxanaya çatdırılanadək keçinib.**

Bildirilir ki, hər iki şəxs dünən kənddəki toy məclisində iştirak edib. Burada hələlik məlum olmayan səbəblərdən onlar arasında söz-söhbət yaranıb. Mübahisə münaqişəyə çevrilmədən tərəflər sakitləşdirilib və onlar evə gediblər. Bundan sonra Ş.Məmmədov yaşadığı evdən bıçaq götürərək toyda onunla mübahisə edən 26 yaşlı Şahbuzun evinə gəlib. Burada o, Ş.Mikayılovun ailə üzvləri, doğmalarının ünvanına təhqiramiz sözlər işlədib. Toydan gəlib yatan gənc oğlan həmkəndlisinin səsini eşidib və bıçaq götürərək həyətə düşüb. Ş.Mikayılov onu öldürməyə gələn şəxsi çoxsaylı bıçaq zərbələri ilə qətlə yetirib.

Faktla bağlı cinayət işi açılıb, həmkəndlisini öldürən şəxs tutulub.

YENİ MÜSAVAT
N 212 (5921) 25 avqust 2014

# Amerikalı bankir Ukrayna uğrunda həlak oldu

## "O, ruslara nifrət edirdi, biz də edirik..."

**Bu yazı Amerikanın ən nüfuzlu saytlarından olan "VICE News"da işıq üzü görüb. Yazı Ukraynada döyüşərək ölən namuslu bir insanın taleyindən söhbət açır. Bu yazını oxucuların diqqətinə çatdırırıq.**



Sayt yazır ki, Mark Qriqori Paslavski Ukrayna əsilli amerikalı idi. O, Amerikadan Ukraynaya gələn və bu ölkəni parçalamaq istəyən separatçılara qarşı vuruşan yeganə amerikalı oldu. O, bu günlərdə müharibə zamanı aldığı yaralardan dünyasını dəyişdi.

"Franko" ləqəbi ilə tanınan Markın 55 yaşı vardı. O, Manhettendə yaşayırdı, Nyu York ləhcəsi ilə danışırdı. Kredit üzrə bankir idi. Belə bir adamın Ukraynaya gedib müharibəyə qoşulması ağlasığmaz görünür. Ancaq o, Ukrayna üçün vuruşmağı lazım bildi. Və indi o da sayı 2 mindən artıq olan müharibə qurbanları sırasındadır.

"VICE News" olaraq avqust ayının əvvəlində Luqanskda ondan müsahibə götürmüşdük. O, könüllülərdən ibarət Donbas batalyonunun tərkibində oraya göndərilmişdi. O demişdi ki, düşünüb-daşınıb qərar verdim ki, mən də separatçılara qarşı əldə silah vuruşmalıyam. Rusların dəstək verdiyi separatçılara qarşı dayanmalıyam, axı mənin damarımda ukraynalı qanı axır və mənim dədə-babam bu ölkədən Amerikaya getmişdi. Krımın Rusiya tərəfindən işğalından sonra TV-xəbərlərə baxa bilmirmiş. Sonda Ukraynaya gedib....

Mark deyirdi ki, Ukraynada hamı Obamanın anasını söyür. Çünki o, Ukraynanın müdafiəsi üçün real bir iş görmədi. Elə bir dəstəyi də hiss olunmadı.

Cənab Paslavski əvvəllər Xarkovda və Moskvada maliyyə sektorunda çalışmışdı. Amerikaya döndükdən xeyli sonra isə, daha dəqiqi, ötən qışdan Avromeydanda etirazlar başladı. O vaxtı o, sərmayə yatırmaq üzrə müstəqil məsləhətçi kimi çalışırdı.

"Gördüyüm o idi ki, qeyri-peşəkarlığın səviyyəsi çox üstdə idi. Korrupsiyada da meydan sulayırdı. Fəaliyyət zəif idi. Bütün bunlara baxmayaraq, qərara gəldim ki, mən getməliyəm və orada iştirak etməliyəm. Mənim buna mənəvi ehtiyacım vardı. Əgər mən nə vaxtsa Ukraynaya kömək etməliydimsə, indi həmən vaxt gəlmişdi", - Mark "VICE News"a belə demişdi.



O, ali təhsilini başa vurduqdan sonra Amerikanın elit hərbi birləşməsində qulluq etmişdi. 32 yaşında isə ordudan tərxis olunaraq mülki işə keçmişdi.

Oleq Nikitin cənab Paslavskinin dostu idi. Onlar Xarkovda bir yerdə çalışmışdılar. O deyir: "Paslavskinin Ukraynada baş verənlərə səbirlə baxmağa gücü çatmırdı. O, peşəkar əsgər idi, onun uzunmüddətli məşqlərə ehtiyacı yox idi, özü də fiziki baxımdan əla formada idi".

"Düşünürəm ki, o, rütbəcə mayor olmuşdu. Ancaq o, bu barədə danışmazdı", - "Franko"nun qrupunda döyüşmüş "Leks" ləqəbli döyüşçü deyir.

"Mənə elə gəlir ki, o, son dərəcə varlı adam idi, ancaq o, bunu gizlətməyə çalışardı. O, heç vaxt öz pullarını gözə soxmazdı, hamı kimi olmağa və görünməyə çalışardı", - "Leks" "Franko" haqqında fikirlərini bölüşür.

"VICE News"a müsahibəsində "evlisinizmi, arvad-uşağınız varmı" sualına isə Paslavski belə cavab vermişdi: "Yox, mən o qədər də dəli deyiləm. Onlar olsaydı müharibəyə gəlməzdim ki". "VICE News" öyrənmişdi ki, o, anasını, bacısını və qardaşını çoxdan dəfn etmişdi.

3 gün davam etdi. Ukraynalılar separatçıların əlində olan İlovaysk şəhəri uğrunda döyüşlərə atıldı. Ukrayna tərəfi bu şəhərin Donetsklə əlaqələrini kəsmək üçün mühasirəyə almaq istəyirdi...

Maksim Dondyuk fotoqrafdır. O, "VICE News"a deyib ki, yaralı "Franko"nu gözü ilə görüb: "Onun kürəyində 3 güllə yeri vardı. O deyirdi ki, ağrılardan zillət çəkir, lakin ölmək istəmir. Ətrafdakı insanlar onu inandırmağa çalışırdılar ki, hər şey qaydasındadır. Ölüm təhlükəsi yoxdur. Düşünürəm ki, onu həqiqətən də xilas etmək olardı. Bunun üçünsə tibbi təyinatlı helikopter və ya ambulans lazım idi. Ancaq bizdə batalyona aid tibbi ləvazimatdan başqa bir şey ələ keçmədi", fotoqraf deyib.

"Onunla bərabər batalyonun daha 3 üzvü öldürüldü. Hətta batalyon komandiri Semyon Semençenko da qəlpə yaralarından ağır dərəcədə yaralar almışdı. Ancaq onu xilas etmək oldu. Hazırda durumu stabildir, müalicə davam edir", - bunları isə Vasilisa Trofomoviç deyir. O, batalyonun mətbuat katibəsidir:"O, həqiqətən də ruslara nifrət edirdi. Elə biz də ruslara nifrət edirik".

"Bu, pis hazırlanmış hərbi əməliyyat idi", Dondyuk deyir. Onun sözlərinə görə, Donbas batalyonu 3 başqa batalyonla birlikdə hücuma keçmişdi. Sonra həmin batalyonlar geri çəkildi, biz az qala özümüz mühasirəyə düşəcəkdik. Qrad raketlərindən bizləri atəşə tutmuşdular. Qısalüləli toplar bizi hədəfə almışdı. Əgər onlar yolu bağlaya bilsəydilər, bizim işimiz bitmişdi.

"Mark Qriqori Paslavski həm Ukrayna dilində, həm də rusca danışırdı. Baməzə söhbətləri ilə tanınırdı. Ən çox da Obamanın anasını söyərdi. Deyərdi ki, o, Ukraynaya kömək etmədi. Bir amerikalı kimi o, buna görə xəcalət çəkirdi", - Leks deyir.

Paslavski bəzən qəddar da ola bilirdi. Leks deyir ki, biz 8 separatçını əsir götürmüşdük. Onların yarısı rus idi. Ukraynalı əsgər bir-iki qulam almaq üçün siqareti rus separatçısına ötürəndə Mark bunu görmüşdü. Yaman özündən çıxmışdı. Demişdi ki, sən ona bəlkə bir 100 qram da araq süzəsən. Axı, onlar bizim düşmənimdir, bizi öldürmək istəyirlər. O, həqiqətən də ruslara nifrət edirdi. Elə biz də ruslara nifrət edirik.

Paslavskini ən çox narahat edən şeylərdən biri də Ukraynada mövcud olan korrupsiya idi. O, korrupsiyanı da Ukraynanın düşmənləri sırasında görürdü. Deyirdi ki, son 20 ildə biz bu istiqamətdə ciddi addımların atıldığını görmədik.

O düşünürdü ki, müharibə başa çatdıqdan sonra bu gün batalyonda olan adamlar 3-cü Meydan hərəkatına başlamalı və korrupsiyanın kökünü kəsməlidirlər.

"Franko" Ukraynada separatistlərə qarşı müharibənin avqust ayında başa çatacağını düşünürdü. Ancaq iş elə gətirdi ki, o, avqust ayında canından çox sevdiyi Ukrayna uğrunda öz həyatını itirdi.

❑ Elbəyi HƏSƏNLİ, Sürix

# Banklarda əmanətlərin cəmi 30 faizi qorunur

## Banklar çökərsə, 6,4 milyard manatlıq əmanətin 4,5 milyard manatı bata bilər; Əmanətlərin Sığortalanması Fondunun icraçı direktoru Azad Cavadov təhlükəni önləmək əvəzinə, özünün ucuz reklamı ilə məşğuldur



**Azərbaycan Əmanətlərin Sığortalanması Fondunun təşəbbüsü və təşkilatçılığı ilə bu il avqustun 6-da Əmanətlərin Sığortalanması üzrə Beynəlxalq Assosiasiyasının (İADİ) Asiya-Sakit Okean Regional Komitəsinin Bakı şəhərində regional tədbiri keçirilib. Azərbaycan Əmanətlərin Sığortalanması Fondu 2013-cü ildə də belə bir tədbirə ev sahibliyi edib.**

Fondun iki il ardıcıl eyni tipli tədbirə ev sahibliyi etməsi müəmmalı görünür. Ancaq fondun beynəlxalq təşkilatla müəmmalı anlaşması sayəsində tədbirin ardıcıl olaraq Bakıda keçirilməsi anlaşılan deyil. Fonddakı mənbələrdən "Yeni Müsavat"a verilən məlumata görə, tədbirin Bakıda keçirilməsi qurumun icraçı direktoru Azad Cavadovun ucuz reklamına və korrupsiya maraqlarına xidmət edir: "Belə bir tədbir nə Fondun, nə Mərkəzi Bankın, nə də 6 milyondan çox əmanətçinin mənafelərinə uyğundur. Bu, yalnız icraçı drektorun ucuz reklamına, fondun vəsaitlərinin səmərəsiz xərclənməsinə və korrupsiya maraqlarına xidmət edir. Tədbirin təşkili adı ilə fonddan xeyli vəsait silinib və mənimsənilib. Söhbət bir neçə yüz min manatdan gedir. Mənimsənilən vəsait hesabına İADİ-in Asiya-Sakit Okean Regional Komitəsinin rəhbərliyinə bahalı hədiyyələr də verilib. Belə hədiyyələr olmasaydı, regional qurum 2 il ardıcıl Bakıda tədbir keçirilməsinə razılıq verməzdi".

Mənbə deyir ki, bu tədbirə xərclənən vəsaitlər əmanət bazarının araşdırılmasına, əmanətçilərin əmanət-investisiya davranışlarının öyrənilməsinə, içtimayyətin maarifləndirilməsi və məlumatlandırılmasına yönəlsəydi, daha faydalı olardı. Bundan həm Mərkəzi Bank, həm çoxsaylı əmanətçilər, həm də fond faydalanardı. Ancaq fondun təminat verdiyi kompensasiya olunan əmanətlərin həcmi ildən-ilə azalır.

Konkret faktlara keçək. 2014-cü ilin birinci rübündə fiziki şəxslərin cəmi əmanətlərinin həcmi 6 milyard 77 milyon manat olub ki, bunun da cəmi 1 milyard 947 milyon manatı, yəni 32 faizi kompensasiya olunan əmanətdir. Bu göstərici 2014-cü ilin ikinci rübündə əmanətləri 6 milyard 335 milyon manat olub və kompensasiya olunan əmanətlər 1 milyard 931 milyon manata, yəni 30 faizə düşüb. Bu o deməkdir, təxminən 4,5 milyard manatlıq əmanətin batmaq təhlükəsi realdır.

Əslində belə situasiya fondun tam fəaliyyət göstərə bilməməsinin göstəricisidir. Bütün dünyada əmanətlərin qorunması əmanətçilərin sayı ilə deyil, kompensasiya olunan əmanətlərin həcmi ilə ölçülür. Fond 2014-cü ilin ikinci rübü üzrə əmanətlərin 54,8 faizinin qorunmasını iddia etsə də, realda bu əmaəntlərin yalnız 30 faizi kompensasiya olunub. Yəni əmanətlərin qorunması heç də onların kompensasiya olunması anlamına gəlmir.

Əslində yuxarıda qeyd edilən məsələlər Fond tərəfindən həyata vaxtında keçirilsəydi, kompensasiya olunan əmanətlərin həcmi ən azı 10-15 faiz arta bilərdi. Fondun icraçı direktoru konkret iş görmək əvəzinə tədbirlər keçirməklə iş görmək imitasiyasını yaratmağa çalışır.

Əmanətlərin sığortalanması sisteminin mahiyyətinin, fəlsəfəsinin icraçı drektor Azad Cavadov təfəfindən tam, hərtərəfli başa düşülməməsi fondun strategiyasından tam anlaşılır. Belə ki, Fondun internet səhifəsində strategiyasında "Korporativ idarəetmə sisteminin qurulması" iddia edir. Anlamaq lazımdır ki, korporativ idarəetmə sistemi biznesin idarə olunması üçün həyata keçirilir. Əmanətlərin sığortalanması haqqında qanunun 3-cü maddəsində göstərilir ki, "Fondun əsas məqsədi mənfəət götürmək deyil və onun fəaliyyəti nəticəsində əldə etdiyi bütün mənfəət sığorta ehtiyatlarının artırlmasına yönəldilir. Sistemin mahiyyəti, fəlsəfəsi Azad Cavadov tərəfindən tam başa düşülmədiyindən daha çox Fond qapalı şəkildə fəaliyyət göstərir. Belə bir iş şəffaflıq prinsiplərinə ziddir. Digər tərəfdən çox milyonluq əmanətçini ölkənin maliyyə-bank sisteminə inamının qorumaq və artırmaq üçün əmanətlərin qorunması şəffaflıq prinsiplərinə əsaslanmalıdır.

Azərbaycan əmanətlərin Sığortalanması Fondu dünyada əmanətçi baxımından ən az informasiya paylaşan təşkilatdır. Sübut olaraq Fondun internet səhifəsində 6 milyondan çox əmanətçi üçün bir dənə də olsun analitik informasiyaya rast gəlmək qeyri-mümkündür. İllik hesabat əvəzinə 2013-cü ildə müstəqil auditorun rəyi yerləşdirilib.

Maraqlısı odur ki, Fondun müşahidə şurasının sədri nə Çingiz Əsədullayev, nə də Mərkəzi Bankın sədri Elman Rüstəmov icraçı dİrektordan iş tələb edir. Sübut Fondun strategiyasının demək olar ki, tamamilə yanlışlıqlar və səhvlər üzərində qrulmasıdır. İş planı olmadığından ilin 4 aylıq hesabat dövrü istisna olmaqla qalan vaxt Fondun nə işlə məşğul olduğunu heç kim bilmir. Cünki konkret iş planı yoxdur. Fondun fəaliyyətsizliyindən isə daha çox əmanətçilər ziyan çəkə bilər. Söhbət 4,5 milyard manat vəsaitin batmaq təhlükəsindən gedir. Necə ki, "Royal-bank"la bağlı proseslərdə bunun canlı şahidi olduq - əmanətlərin 71 faizi batdı.

❑ İqtisadiyyat şöbəsi

YENİ MÜSAVAT

Son səhifə

N 212 (5921) 25 avqust 2014

# Kosmik təmizlik üçün 300 milyon dollar



Rusiya mediasından yayılan məlumatlara görə, "Roskosmos" ömrünü tamamlamış peyk və digər kosmik cihazlardan ibarət zibilləri təmizləmək üçün Likvidator adlı cihaz hazırlayacağını açıqlayıb. Likvidator ekvator üzərində yerləşən, 36 min kilometr yüksəklikdə olan kosmik cihazları tapa biləcək. Bu cihaz bir dəfə çalışdığı zaman 10 ədəd yararsız kosmik cihazı sıradan çıxara biləcək. 10 il boyunca çalışacaq Likvidator 200 lazımsız kosmik peyki sıradan çıxarmağı bacaracaq. Yararsız peyklərin Sakit Okeandakı kosmik məzarlığa düşəcəyi gözlənilir. Mütəxəssislər isə kosmik gəmiləri daha uzaq yerlərə göndərməyin asan olacağını deyirlər. Məlumatlara görə, kosmosda 15 733 kosmik peyk var. Bunların 6 125-i Rusiyaya, 4 617-si Amerikaya, 3 672-si Çinə aiddir. Fransanın 502, Yaponiyanın 206, Hindistanın 171, Avropa Kosmik Agentliyinin 90 yararsız peyki və kosmik gəmisi mövcuddur. Aktiv olan kosmik peyklər baxımından Amerika birinci sıradadır. ABŞ-ın 371, Çinin 113, Rusiyanın 111 kosmik peyki var.



# Dünyanın ən təhlükəli ölkəsi

Bütün dünya üzrə ən yüksək təhlükə səviyyəsi ilə Venesuela vətəndaşları üz-üzədir. Bu barədə "Gallup" analitik şirkətinin vətəndaş təhlükəsizliyinin dərc etdiyi hesabatda yazılıb. Hesabatdakı rəqəmlər polislər tərəfindən verilən açıqlamalar və cəmiyyət arasında aparılan sorğu nəticəsində müəyyən edilir. Məlum olub ki, Venesuelada əhalinin 74 faizi polisə etibar etmir, cəmi 19 % insan gecə gəzintisinə çıxır. 22% insanlar isə bildiriblər ki, ya özləri, ya da ailə üzvləri son bir il ərzində soyğunçu cinayətkarların qurbanı olublar. BMT-nin Narkotiklər və Cinayət İdarəsinin məlumatına əsasən, qətl hadisələrinə görə Venesuelanın Honduras şəhəri birinci yerdədir. 100 min əhalisi olan şəhərdə 90,4% qətl hadisəsi hesablanıb. Venesuela şəhərində bu göstərici 53,7%-ə çatır, Beliz isə 44,7%-lə üçüncü yerdə qərarlaşır.

# Obamanı siqaret və içkiyə öyrəşdirdilər

ABŞ prezidenti Barak Obamanın heykəlinin gülünc şəklə salınması hər kəsdə şok yaradıb. Amerikanın Pensilvaniya ştatında yaşayan bir qadının bağçasından oğurlanan heykəl bir parkda tapılıb. Barak Obamanın gerçək həyatdakı ölçülərinə uyğun gələn heykəl parkda tapıldığı zaman əlində içki qədəhi və ağzında isə siqaret var imiş. 1250 dollar dəyərindəki heykəl üzərində araşdırmalar bitdikdən sonra o, gerçək sahibi Tifani Bruceyə təhvil veriləcək. Heykəlin oğurlandığını bilən zaman halı pisləşən və xəstəxanaya aparılan qadın qonşularının da heykəli çox sevdiyini, bayramlarda şəkil çəkdirməyə gəldiklərini söyləyib. Oturmuş halda, gülümsəyən Obamanın heykəlini prezidentə sevgisini göstərmək üçün düzəltdirdiyini deyən ev sahibi heykəl tapılmazsa, yenisini düzəltdirəcəyini deyib.





# Uşaqlara toyuq qanadı verməyin

London Metropoliten Universitetində yaşları 6 ilə 10 arasında dəyişən 12 uşaq üzərində aparılan araşdırmalar nəticəsində məlum olub ki, toyuq qanadı yeyən uşaqlar daha əsəbi olurlar. Yeməklərin davranışlara necə təsir etdiyini araşdıran mütəxəssislər bu yaşda uşaqlara xüsusilə də yatmazdan əvvəl toyuq qanadı yedirməyin olduqca zərərli ola biləcəyini deyiblər. Yemək yeyərkən üzlərində əsəbi ifadə yaranan uşaqlar zaman keçdikcə daha əsəbi olurlar. Uşaqlara zorla yemək yedizdirmək də onların psixologiyasına mənfi təsir edir.

# Qoroskop




**QOÇ** - Saat 16-ya qədər bütün vacib işlərinizi yekunlaşdırmağa çalışın. Həmin ərəfədə şəxsi işlərinizdə müsbət dönüş gözlənilir. Sonrakı müddəti isə daha çox istirahətə həsr edin.

**BUĞA** - Maliyyə problemləriniz olsa da, bu, işgüzarlığınızı azaltmayacaq. Hətta ola bilsin ki, saat 15-18 arası maraqlı və perspektivli təklif də alasınız. Özünüzü buna hazırlayın.

**ƏKİZLƏR** - Ulduzlar kənar təsirlərdən uzaq olmağı, yalnız öz qərarınızla addım atmağı tövsiyə edir. Bu gün spirtli içki içmək, qarğış və qeybət etmək, o cümlədən yalan vədlər vermək yolverilməzdir.

**XƏRÇƏNG** - Hər mənada düşərli gündür. Rastlaşdığınız hər bir hadisə ürəyinizdən xəbər verəcək. Əlbəttə ki, bunun üçün özünüz də canfəşanlıq göstərməlisiniz. Sövdələşmələrdə aktiv olun.

**ŞİR** - Bu təqvimi təsadüflərlə başa vuracaqsınız. Gözləmədiyiniz adamlarla, ağlınıza gətirmədiyiniz xəbərlərlə rastlaşacaqsınız. Axşama doğru sürprizlər də mümkündür. Şəxsi büdcənizlə bağlı narahat olmayın.

**QIZ** - Ulduzlar xəbər verir ki, bu təqvim şəxsi işlərinizdə yeni mərhələnin baş qaldırmasına səbəb ola bilər. Bunun üçün müsahiblərinizə diqqətlə qulaq asmalı, düz seçim etməlisiniz.

**TƏRƏZİ** - Kifayət qədər xoş məqamlar yaşayacaqsınız. Bir tərəfdən yeni işgüzar əlaqələr, digər tərəfdənsə ətrafınızdakıların sizə bəraət qazandırması ovqatınızı yüksəldəcək.

**ƏQRƏB** - Sizin üçün müəyyən mənada mistik gündür. Daxili sıxıntılarınızı və ruhi zəifliyinizi aradan qaldırmaq üçün müqəddəs ziyarətgahlarımıza üz tutun. Dini qaydaları pozmayın.

**OXATAN** - Səhhətinizin qayğısına qala bilsəniz, gün ərzində başqa narahatçılığınız olmayacaq. Nahardan sonra sevindirici xəbərlər və ya ürəyinizcə olan təkliflər alacağınıza şübhə etməyin.

**OĞLAQ** - O qədər də ürəkaçan ərəfə deyil. İlk növbədə səhhətinizə diqqət yetirin. Çünki ulduzlar sağlıq durumunuzun aşağı səviyyəyə düşəcəyini bəyan edir. Riskdən də uzaq olun.

**SUTÖKƏN** - Astroloji göstəricilər yalnız səfər və qonaqlıqlar üçün səmərəli vaxt olduğunu bəyan edir. Digər məsələlərdə, xüsusən də fəaliyyət zəminində isə proseslər o qədər də uğurlu olmayacaq.

**BALIQLAR** - Neçə vaxtdan bəri daxilinizdə mövcud olan gərginlik səngimədiyindən nahara qədərki ovqatınız aşağı səviyyədə ola bilər. Sonrakı saatlarda isə sürprizlər gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Baş nazir xalq çimərliyində



İngiltərə baş naziri David Kameronun bir neçə gün əvvəl çimərlikdə çəkilən şəkilləri hər kəsi təəccübləndirib. Şəkillərin təəccüblü olmasının səbəbi isə baş nazirinin özəl çimərliklərdə deyil, xalq çimərliyində istirahət etməsi olub. Baş nazirin şəkilləri sosial şəbəkələrdə sürətlə yayılsa da, qınaq hədəfinə çevrilib. İngiltərə mediası tətilə həvəsli olan Kameronun İŞİD terror təşkilatının törətdikləri vəhşiliklərə, insan ölümlərinə baxmayaraq tətildə olmasını tənqid edir.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.900